www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3-4 sentyabr 2016-cı il Şənbə № 195 (6516) Qiyməti 60 qəpik

## Xəbər

### Ölkədə intiharlar şoku- daha iki nəfər özünü öldürdü

yazısı səh.14-də

## Gündəm

### Güclü yağış rayonlara və təsərrüfata ciddi ziyan vurdu



Bəzi kəndlərdə işıq dirəklərini su aparıb və elektrik enerjisinin verilişində problemlər yaranıb, rayon mərkəzi ilə əlaqə kəsilib, yağıntılar isə davam edəcək

yazısı səh.15-də

### General Çovdarovun ölüm aclığı davam edir

yazısı səh.7-də

### Azərbaycanın ÜTT şərti- 2 milyard dollar...

yazısı səh.10-da

### "Xəzər Dəniz Gəmiçiliyi"nin sabiq sədr müavinin seyfini necə oğurlayıblar?

yazısı səh.7-də

### Xalq müxalifətin çağırışlarına niyə qoşulmur-rəylər

yazısı səh.6-da

### Ermənistanda hər kəs isteriya və şübhə içində - düşmən mediası nələrdən yazır...

yazısı səh.8-də

### Livan nəşri: Bəşər Əsədlə Ərdoğan Moskvada görüşəcək

yazısı səh.13-də

### Neftin qiymət proqnozları: hamı 50 dollar deyir...

yazısı səh.10-da

### Azyaşlı uşaqların zəvvar olması nə dərəcədə doğrudur?

yazısı səh.14-də

### Təhsin Ağayev "MTN işi" üzrə istintaqdan yayınır

yazısı səh.3-də

### İslam Kərimov öldü, Özbəkistan matəmdə

yazısı səh.13-də

## Ürkən və ürkütməyə çalışan işğalçı - aprelin daha bir dərsi

# İRƏVANIN MÜHARİBƏ XOFU, MÜSTƏQİLLİK FİASKOSU - SƏRKİSYAN QARABAĞA SON DƏFƏ GƏLİB...

Ermənistan 25 ildə nəinki separatçı qurumu dünyaya tanıda bilmədi, üstəlik, öz müstəqilliyini də de-fakto itirdi; Xankəndindəki "ildönümün" ilk dəfə sönük keçirilməsinin əsas motivi - müharibə təlaşı, yaxınlıqdakı Azərbaycan Ordusunun zəhmi...




yazısı səh.9-da

# Maliyyə Nazirliyindən həbsdəki bankirə cavab: "Səfehləmə..."

Müavini Cahangir Hacıyevin üzünə durdu; Emil Mustafayev "qanun önəmli idi, ancaq rəhbərliyin göstərişinə əməl etmək məcburiyyətində idik" dedi; Maliyyə Nazirliyi sabiq bankirə cavab verdi: "5 milyard dolları offşorlara ötürüb"

yazısı səh.11-də



*Sərdar Cəlaloğlu:*

### "Milli Məclisdə, YAP-da olan gülənçilər həbs olunacaqsa..."

yazısı səh.6-da



### "Lənkəranski" türk klanı yaradıbmış

yazısı səh.3-də



Nəsimi Paşayev

### "Yeraltı dünya"dan xəbər verən jurnalistlə söhbət

yazısı səh.12-də

## “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-yə sədr təyin edilib

**Əbülfət Novruz oğlu Qocayev “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edilib.**

APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb.

## “Azərbaycan Dəmir Yolları” QSC sədrinin müavini təyin edilib

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti (QSC) sədrinin müavini təyin edilib. APA-nın məlumatına görə, prezident İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.**

Sərəncama əsasən, Vüsal Aslanov “Azərbaycan Dəmir Yolları” QSC sədrinin müavini təyin edilib.

Qeyd edək ki, Vüsal Aslanov “Azərbaycan Dəmir Yolları” QSC sədrinin müşaviri olub.




## Bu gün referendumqabağı təşviqata start veriləcək

**Konstitusiyada dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) ilə əlaqədar referendumqabağı təşviqat başlayacaq.**

APA-nın məlumatına görə, Seçki Məcəlləsinə əsasən referendum üzrə qeydə alınmış təşviqat qrupları tərəfindən referendumqabağı təşviqatın aparılması prosesi səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalanadək dayandırılır.

Sentyabrın 26-na təyin edilmiş referendumla əlaqədar bu proses sentyabrın 3-də başlanacaq, sentyabrın 25-i saat 8.00-da dayandırılacaq.

## Putin Ərdoğandan danışdı

**Moskva Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiya ilə münasibətlərin hərtərəfli bərpasında açıq-aydın maraqlı olduğunu görür.**

Bu barədə “Bloomberg”ə müsahibəsində Rusiya prezidenti Vladimir Putin bildirib.

“İlk növbədə, Türkiyənin məlum insidentə, vətəndaşımızın ölümünə görə birbaşa, heç nə uydurmadan üzr istəməsini nəzərə alırıq. Biz bu addımı yüksək qiymətləndiririk. Prezident Ərdoğan buna getdi və biz Türkiyə prezidentinin Rusiya ilə münasibətlərin hərtərəfli bərpasında maraqlı olduğunu müşahidə edirik”, - deyə Rusiya dövlət başçısı vurğulayıb.

O, Rusiya və Türkiyənin həm Qara dəniz regionunda, həm qlobal planda, həm də Yaxın Şərq regionunda bir çox ortaq maraqlarının olduğunu qeyd edib.(“Report”)

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01; (012) 434 01 33**

## “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**“Yeni Müsavat” - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Şahmat Olimpiadası başladı

**Sentyabrın 2-də “Baku Crystal Hall”da 42-ci Ümumdünya Şahmat Olimpiadasının birinci turuna start verilib.**



APA-nın məlumatına görə, tədbirdə Azərbaycan prezidenti İlham Əliyev də iştirak edib.

Dövlət başçısı əvvəlcə Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Kirsan İlyumjinov ilə görüşüb.

Bakı Olimpiadasında 175 ölkəni təmsil edən 181 kişi və 142 qadın komandanın 1600-dən çox üzvü, bundan əlavə, yüzlərlə komanda kapitanları və məşqçilər, digər rəsmi nümayəndələr iştirak edirlər. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstəricidir. Yarışları 193 hakim idarə edir. Yarışın idarə olunmasına Azərbaycandan 30 hakim cəlb edilib.

Prezident İlham Əliyev Azərbaycanın kişilərdən ibarət birinci komandasının üzvü Şəhriyar Məmmədyarov ilə Zimbabve şahmatçısı Rodvel Makoto arasındakı partiyada ilk gedişi (D2-D4) edib.

Azərbaycan Olimpiadada üç kişi və üç qadın komandası ilə təmsil olunur. Kişilərdən ibarət “Azərbaycan-1" komandası Zimbabve, "Azərbaycan-2" Mozambik, “Azərbaycan-3" isə Papua-Yeni Qvineya millilər ilə qarşılaşacaq. Qadınların mübarizəsində isə "Azərbaycan-1" komandası Nikaraqua, “Azərbaycan-2" Yaponiya, "Azərbaycan-3" isə Lesoto yığması ilə üz-üzə gələcək.

Sonra dövlət başçısı yarışların keçirildiyi zala baxıb, şahmatçıların oyunlarını izləyib.

Prezident İlham Əliyev qadın şahmatçıların yarışında Rusiya idmançısı Aleksandra Kostenyuk ilə şotlandiyalı Araksamita Grant arasındakı partiyada da ilk gedişi (E2-E4) edib.

Azərbaycan prezidenti əlil şahmatçıların yarışına da baxıb, daha sonra arenada yaradılan şəraitlə tanış olub.

On bir turdan ibarət yarışlar sentyabrın 13-də yekunlaşacaq. Olimpiada ilə yanaşı, sentyabrın 4-dən 13-dək Bakıda FIDE-nin 87-ci Konqresi və Baş Assambleyasının iclasları keçiriləcək.

Şahmat Olimpiadasını işıqlandırmaq üçün 250-dən çox yerli və xarici media nümayəndəsi qeydiyyatdan keçib.

Bir neçə rayonun polis rəisi dəyişdirilib

Daxili İşlər Nazirliyi sistemində kadr dəyişiklikləri olub. Redaksiyamıza daxil olan məlumata görə bu barədə daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmrlər imzalayıb. Şirvan Şəhər Polis Şöbəsinin rəisi Şahin Mirzəyev vəzifəsindən azad edilərək Şamaxı rayon Polis Şöbəsinə rəisi tutulub. Bu təyinata qədər Şamaxı Rayon Polis Şöbəsinin rəisi olmuş Habil Əmiraslanov Masallı RPŞ-yə rəis təyin edilib. Bərdə Rayon Polis Şöbəsinin rəisi Hikmət Quliyev Şirvan Rayon Polis Şöbəsinə rəis təqyin edilib.

**❑ E.HÜSEYNOV**

## Satışda keyfiyyətsiz məktəbli geyimləri var

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən məktəb yaşlı uşaqlar üçün tikilən üst geyimlərinin - məktəbli formalarının standartların tələblərinə uyğun olmadığı, əmtəə nişanının saxtalaşdırılaraq istifadəsi barədə şikayət araşdırılıb.**

Komitənin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, müəyyən olunub ki, “Binə”, “Sədərək” ticarət mərkəzlərində, Əhmədli qəsəbəsində yerləşən ticarət mərkəzində, 8-ci km qəsəbəsində yerləşən bazar, həmçinin Şəki, Oğuz, Göyçay şəhərlərinin geyim satış məntəqələrində mənşəyi bilinməyən, başqasına məxsus əmtəə nişanını özününküləşdirərək, keyfiyyətsiz məktəbli geyimləri satılır.

“Binə” və “Sədərək” ticarət mərkəzlərindəki satış məntəqələrindən götürülmüş nümunələr Təcrübə-Sınaq Mərkəzinin (AzTEST) Yüngül sənaye məhsullarının sınağı laboratoriyasına təqdim olunub. Laborator müayinələrin nəticəsində müəyyən olunub ki, məktəbli formaların üzlük və içlik parçaları mövcud normativ sənədlərin tələblərinə uyğun deyil.

Belə ki, normativ sənədlərə əsasən içlik parçanın tərkibində kimyəvi liflərin (sintetikanın) miqdarının 50%-dən və üzlük parçanın tərkibində kimyəvi liflərin (sintetikanın) miqdarının 67%-dən çox olmaması nəzərdə tutulmasına baxmayaraq, sınaqların nəticələrinə görə kimyəvi liflərin (sintetikanın) miqdarı müvafiq olaraq 98,9% və 93,7% olub.

Satışdakı mənşəyi bilinməyən bütün məhsulların üzərində “Bakı Tikiş Evi” ASC-yə məxsus “BTE” əmtəə nişanından qeyri-qanuni istifadə olunduğu aşkar olunub. Hazırda araşdırmanın nəticələri əsasında qanunvericiliyə uyğun tədbirlər görülür.

**Məlumatda o da bildirilir ki, qanunvericiliyə, əsasən məktəbli formaları qüvvədə olan dövlətlərarası standart (QOST 25294-2003 “Məktəb yaşlı oğlan və qızlar üçün üst geyimləri” standartı) əsasında müəssisələr tərəfindən hazırlanmış və dövlət qeydiyyatına alınmış texniki şərtlərin tələblərinə uyğun istehsal edilir.**

## AXCP Müsavat Partiyası ilə mitinq müzakirələrindən imtina edib

**“Mitinqlərin birgə təşkili üçün Azərbaycan Xalq Cəbhəsi Partiyası ilə Müsavat Partiyası arasında müzakirələr aparılmayıb. Çünki qarşı tərəf müzakirələrdən imtina edib”.**

Bunu “Report”a açıqlamasında Müsavat Partiyası başqanının müavini Yadigar Sadıqov deyib.

O, Müsavat Partiyasının keçirəcəyi mitinqin tarixinin müəyyənləşməməsinin səbəbini də açıqlayıb: “Bəzi siyasi təşkilatlarla müzakirələr aparmalıyıq. Bura Nida Vətəndaş Hərəkatı, "D18" Hərəkatı və Real Hərəkatı daxildir. Müzakirələrdən və məsləhətləşmələrdən sonra mitinqin keçiriləcəyi tarix açıqlanacaq. Hazırda ümumi fikir ondan ibarətdir ki, mitinq sentyabrın 18-də keçirilsin. Amma bu barədə qərar verilməyib".

**Qeyd edək ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının da təmsil olunduğu Milli Şura sentyabrın 11-nə mitinq təyin edib.**



## Pakistan yeni qırıcılarını Azərbaycana gətirir

**Pakistanın müdafiə sənayesi naziri Rana Tanvir Hüseyn Azərbaycana səfər etməyi planlaşdırır. “Report” bildirir ki, nazir Bakıya sentyabrın 27-30-u keçiriləcək II Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi sərgisində (ADEX 2016) iştirak etmək üçün gələcək.**

Məlumata görə, Bakıdakı sərgidə Pakistan əsas yeni məhsulunu - Çinlə birgə istehsal olunmuş “JF-17 Thunder” qırıcı təyyarəsini təqdim edəcək.

## Pilot qadın və bətnindəki körpənin meyitlərinin müayinəsi aparılıb

**Bakı şəhər Prokurorluğu pilot qadının ölümü ilə bağlı yayılan məlumatlara münasibət bildirib. Şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, Dilarə Babayevanın vəfatı ilə bağlı Nəsimi rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.**

D.Babayevanın və onun bətnindəki körpənin meyitlərinin daxili və xarici müayinəsi aparılıb. Ölümün səbəblərinin müəyyənləşdirilməsi məqsədi ilə məhkəmə-tibbi ekspertizaları təyin edilib. Hazırda iş üzrə zəruri-istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, məlum hadisə bir neçə gün əvvəl baş verib. İlkin olaraq zəhərlənmə ehtimalı ilə 1 saylı şəhər xəstəxanasına daxil olan 1986-cı il təvəllüdlü Babayeva Dilarə Aydın qızı orada ölüb. D.Babayeva xəstəxanaya daxil olarkən hamilə olub və onun bətnindəki 36 həftəlik körpəsi də tələf olub.

Kapitan rütbəli D.Babayeva Dövlət Sərhəd Xidmətinin pilotu olub.

## “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-nin sədri təyin edilib

**Əbülfət Novruz oğlu Qocayev “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edilib.**

APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb.

Türkiyə kəşfiyyatının rəhbəri də vəzifəsini itirə bilər

Türkiyə kəşfiyyatının (MİT) rəhbəri Hakan Fidanın vəzifəsindən getməsi gözlənilir.

“Milligazete”nin verdiyi məlumaat görə, H.Fidanın istefası Ankaranın siyasi dairələrində müzakirə olunur.

Qeyd edək ki, H.Fidan 2010-cu ilin mayından bu vəzifədə çalışır.

## “Azərbaycan Dəmir Yolları” QSC sədrinin müavini təyin edilib

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti (QSC) sədrinin müavini təyin edilib. APA-nın məlumatına görə, prezident İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.**

Sərəncama əsasən, Vüsal Aslanov “Azərbaycan Dəmir Yolları” QSC sədrinin müavini təyin edilib.

Qeyd edək ki, Vüsal Aslanov “Azərbaycan Dəmir Yolları” QSC sədrinin müşaviri olub.



## Bu gün referendumqabağı təşviqata start veriləcək

**Konstitusiyada dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) ilə əlaqədar referendumqabağı təşviqat başlayacaq.**

APA-nın məlumatına görə, Seçki Məcəlləsinə əsasən referendum üzrə qeydə alınmış təşviqat qrupları tərəfindən referendumqabağı təşviqatın aparılması prosesi səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalanadək dayandırılır.

Sentyabrın 26-na təyin edilmiş referendumla əlaqədar bu proses sentyabrın 3-də başlanacaq, sentyabrın 25-i saat 8.00-da dayandırılacaq.

## Putin Ərdoğandan danışdı

**Moskva Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiya ilə münasibətlərin hərtərəfli bərpasında açıq-aydın maraqlı olduğunu görür.**

Bu barədə “Bloomberg”ə müsahibəsində Rusiya prezidenti Vladimir Putin bildirib.

“İlk növbədə, Türkiyənin məlum insidentə, vətəndaşımızın ölümünə görə birbaşa, heç nə uydurmadan üzr istəməsini nəzərə alırıq. Biz bu addımı yüksək qiymətləndiririk. Prezident Ərdoğan buna getdi və biz Türkiyə prezidentinin Rusiya ilə münasibətlərin hərtərəfli bərpasında maraqlı olduğunu müşahidə edirik”, - deyə Rusiya dövlət başçısı vurğulayıb.

O, Rusiya və Türkiyənin həm Qara dəniz regionunda, həm qlobal planda, həm də Yaxın Şərq regionunda bir çox ortaq maraqlarının olduğunu qeyd edib.(“Report”)


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**“Qaya Mətbuat Yayımı” MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**“Yeni Müsavat” - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Şahmat Olimpiadası başladı

**Sentyabrın 2-də “Baku Crystal Hall”da 42-ci Ümumdünya Şahmat Olimpiadasının birinci turuna start verilib.**

APA-nın məlumatına görə, tədbirdə Azərbaycan prezidenti İlham Əliyev də iştirak edib.

Dövlət başçısı əvvəlcə Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Kirsan İlyumjinov ilə görüşüb.

Bakı Olimpiadasında 175 ölkəni təmsil edən 181 kişi və 142 qadın komandanın 1600-dən çox üzvü, bundan əlavə, yüzlərlə komanda kapitanları və məşqçilər, digər rəsmi nümayəndələr iştirak edirlər. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstəricidir. Yarışları 193 hakim idarə edir. Yarışın idarə olunmasına Azərbaycandan 30 hakim cəlb edilib.

Prezident İlham Əliyev Azərbaycanın kişilərdən ibarət birinci komandasının üzvü Şəhriyar Məmmədyarov ilə Zimbabve şahmatçısı Rodvel Makoto arasındakı partiyada ilk gedişi (D2-D4) edib.

Azərbaycan Olimpiadada üç kişi və üç qadın komandası ilə təmsil olunur. Kişilərdən ibarət “Azərbaycan-1” komandası Zimbabve, ”Azərbaycan-2" Mozambik, “Azərbaycan-3" isə Papua-Yeni Qvineya millilərı ilə qarşılaşacaq. Qadınların mübarizəsində isə ”Azərbaycan-1" komandası Nikaraqua, “Azərbaycan-2" Yaponiya, ”Azərbaycan-3" isə Lesoto yığması ilə üz-üzə gələcək.



Sonra dövlət başçısı yarışların keçirildiyi zala baxıb, şahmatçıların oyunlarını izləyib.

Prezident İlham Əliyev qadın şahmatçıların yarışında Rusiya idmançısı Aleksandra Kostenyuk ilə şotlandiyalı Araksamita Grant arasındakı partiyada da ilk gedişi (E2-E4) edib.

Azərbaycan prezidenti əlil şahmatçıların yarışına da baxıb, daha sonra arenada yaradılan şəraitlə tanış olub.

On bir turdan ibarət yarışlar sentyabrın 13-də yekunlaşacaq. Olimpiada ilə yanaşı, sentyabrın 4-dən 13-dək Bakıda FIDE-nin 87-ci Konqresi və Baş Assambleyasının iclasları keçiriləcək.

Şahmat Olimpiadasını işıqlandırmaq üçün 250-dən çox yerli və xarici media nümayəndəsi qeydiyyatdan keçib.

Bir neçə rayonun polis rəisi dəyişdirilib

Daxili İşlər Nazirliyi sistemində kadr dəyişiklikləri olub. Redaksiyamıza daxil olan məlumata görə bu barədə daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmrlər imzalayıb. Şirvan Şəhər Polis Şöbəsinin rəisi Şahin Mirzəyev vəzifəsindən azad edilərək Şamaxı rayon Polis Şöbəsinə rəisi tutulub. Bu təyinata qədər Şamaxı Rayon Polis Şöbəsinin rəisi olmuş Habil Əmiraslanov Masallı RPŞ-yə rəis təyin edilib. Bərdə Rayon Polis Şöbəsinin rəisi Hikmət Quliyev Şirvan Rayon Polis Şöbəsinə rəis təqyin edilib.

❑ **E.HÜSEYNOV**

## AXCP Müsavat Partiyası ilə mitinq müzakirələrindən imtina edib

**“Mitinqlərin birgə təşkili üçün Azərbaycan Xalq Cəbhəsi Partiyası ilə Müsavat Partiyası arasında müzakirələr aparılmayıb. Çünki qarşı tərəf müzakirələrdən imtina edib”.**

Bunu “Report”a açıqlamasında Müsavat Partiyası başqanının müavini Yadigar Sadıqov deyib.

O, Müsavat Partiyasının keçirəcəyi mitinqin tarixinin müəyyənləşməməsinin səbəbini də açıqlayıb: “Bəzi siyasi təşkilatlarla müzakirələr aparmalıyıq. Bura Nida Vətəndaş Hərəkatı, "D18" Hərəkatı və Real Hərəkatı daxildir. Müzakirələrdən və məsləhətləşmələrdən sonra mitinqin keçiriləcəyi tarix açıqlanacaq. Hazırda ümumi fikir ondan ibarətdir ki, mitinq sentyabrın 18-də keçirilsin. Amma bu barədə qərar verilməyib".

Qeyd edək ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının da təmsil olunduğu Milli Şura sentyabrın 11-nə mitinq təyin edib.



## Pakistan yeni qırıcılarını Azərbaycana gətirir

**Pakistanın müdafiə sənayesi naziri Rana Tanvir Hüseyn Azərbaycana səfər etməyi planlaşdırır. “Report” bildirir ki, nazir Bakıya sentyabrın 27-30-u keçiriləcək II Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi sərgisində (ADEX 2016) iştirak etmək üçün gələcək.**

Məlumata görə, Bakıdakı sərgidə Pakistan əsas yeni məhsulunu - Çinlə birgə istehsal olunmuş “JF-17 Thunder” qırıcı təyyarəsini təqdim edəcək.

## Pilot qadın və bətnindəki körpənin meyitlərinin müayinəsi aparılıb

**Bakı şəhər Prokurorluğu pilot qadının ölümü ilə bağlı yayılan məlumatlara münasibət bildirib. Şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, Dilarə Babayevanın vəfatı ilə bağlı Nəsimi rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.**

D. Babayevanın və onun bətnindəki körpənin meyitlərinin daxili və xarici müayinəsi aparılıb. Ölümün səbəblərinin müəyyənləşdirilməsi məqsədi ilə məhkəmə-tibbi ekspertizaları təyin edilib. Hazırda iş üzrə zəruri-istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, məlum hadisə bir neçə gün əvvəl baş verib. İlkin olaraq zəhərlənmə ehtimalı ilə 1 saylı şəhər xəstəxanasına daxil olan 1986-cı il təvəllüdlü Babayeva Dilarə Aydın qızı orada ölüb. D. Babayeva xəstəxanaya daxil olarkən hamilə olub və onun bətnindəki 36 həftəlik körpəsi də tələf olub.

Kapitan rütbəli D. Babayeva Dövlət Sərhəd Xidmətinin pilotu olub.

## Satışda keyfiyyətsiz məktəbli geyimləri var

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən məktəb yaşlı uşaqlar üçün tikilən üst geyimlərinin - məktəbli formalarının standartların tələblərinə uyğun olmadığı, əmtəə nişanının saxtalaşdırılaraq istifadəsi barədə şikayət araşdırılıb.**

Komitənin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, müəyyən olunub ki, “Binə”, “Sədərək” ticarət mərkəzlərində, Əhmədli qəsəbəsində yerləşən ticarət mərkəzində, 8-ci km qəsəbəsində yerləşən bazar, həmçinin Şəki, Oğuz, Göyçay şəhərlərinin geyim satış məntəqələrində mənşəyi bilinməyən, başqasına məxsus əmtəə nişanını özününküləşdirərək, keyfiyyətsiz məktəbli geyimləri satılır.

“Binə” və “Sədərək” ticarət mərkəzlərindəki satış məntəqələrindən götürülmüş nümunələr Təcrübə-Sınaq Mərkəzinin (AzTEST) Yüngül sənaye məhsullarının sınağı laboratoriyasına təqdim olunub. Laborator müayinələrin nəticəsində müəyyən olunub ki, məktəbli formaların üzlük və içlik parçaları mövcud normativ sənədlərin tələblərinə uyğun deyil.

Belə ki, normativ sənədlərə əsasən içlik parçanın tərkibində kimyəvi liflərin (sintetikanın) miqdarının 50%-dən və üzlük parçanın tərkibində kimyəvi liflərin (sintetikanın) miqdarının 67%-dən çox olmaması nəzərdə tutulmasına baxmayaraq, sınaqların nəticələrinə görə kimyəvi liflərin (sintetikanın) miqdarı müvafiq olaraq 98,9% və 93,7% olub.

Satışdakı mənşəyi bilinməyən bütün məhsulların üzərində “Bakı Tikiş Evi” ASC-yə məxsus “BTE” əmtəə nişanından qeyri-qanuni istifadə olunduğu aşkar olunub. Hazırda araşdırmanın nəticələri əsasında qanunvericiliyə uyğun tədbirlər görülür.

Məlumatda o da bildirilir ki, qanunvericiliyə, əsasən məktəbli formaları qüvvədə olan dövlətlərarası standart (QOST 25294-2003 “Məktəb yaşlı oğlan və qızlar üçün üst geyimləri” standartı) əsasında müəssisələr tərəfindən hazırlanmış və dövlət qeydiyyatına alınmış texniki şərtlərin tələblərinə uyğun istehsal edilir.

YENİ MÜSAVAT
N 195 (6516) 3 sentyabr 2016

# Azərbaycanda millətçilik ideologiyası geridə qaldı?

**Son illərdə Azərbaycanda millətçilik ideyalarının ciddi şəkildə zəiflədiyi müşahidə olunur. Xüsusilə, bu ideyaların ölkəmizdə yayılmasında və inkişafında böyük xidmətləri olan, 2000-ci ildə milli-azadlıq hərəkatının lideri Əbülfəz Elçibəyin vəfatından sonra millətçilik enmə mərhələsinə qədəm qoydu.**

## Müşfiq Vəliyev: "Yeni nəsil milliyyətçi hərəkat inkişaf mərhələsindədir"
## Mehriban Vəzir: "Millətçi lider yoxdursa..."



Geriləmə dövrünü yaşayan, bir vaxtlar milyonları bir yerə toplayan bu ideyaları Azərbaycanda tədricən başqa dini cərəyanlar əvəz etməyə başladı. Vəhhabilik, "nurçuluq" və digər belə təriqətlərin adlarını qeyd etmək olar. Hazırda bu adda bir siyasi qurum fəaliyyət göstərir. O da gənclərdən ibarət olan Milliyyətçi Gənclər Təşkilatıdır ki, onun da potensialı bu ideyaların yenidən inkişaf etdirilməsinə yetmir.

**Təşkilatın sədri Müşfiq Vəliyev** yeni nəsil milliyyətçiliyinin formalaşdığını bildirdi: "Hal-hazırda yeni nəsil milliyyətçi hərəkatın mərhələşməsi prosesi getməkdədir. Fundamental dəyişikliklər vaxt aparır və səbir tələb edir. Bu hər hansı prosedura və ya rəqabətə bağlı bir proses deyildir. Hərəkatın sistemləşməsi zamanla formalaşır. Çünki zamanın gedişatı hər bir ideologiyanın öz vaxtını şərtləndirir. Əlbəttə ki, Elçibəyin vəfatından sonra hərəkat üçün ideoloji inkişafda çətinliklər və vaxt itkisi olmuşdur. Ancaq hazırkı hərəkatımız öz inkişafı ilə itirilən vaxtımızı bərpa etməklə məşğul olmuş və yetərincə hərəkatın saflaşması üçün, eləcə də, hədəflərini reallaşdırmada ciddi qalxınma etmişdir. Hesab edirəm ki, milliyyətçilikdə də qalxınma var və bu təbii ki, zərurətdən doğur. Bu gün yeni nəsil milliyyətçi hərəkat inkişaf mərhələsindədir".

**Yazıçı-publisist Mehriban Vəzir** Elçibəyin vəfatının milliyyətçilik ideyalarına ciddi zərbə vurduğunu qeyd etdi: "Elçibəy kimi demokrat, böyük insan, elm xadimi, xarizmatik gücü olan bir lideri itirdikdən sonra boşluq yarandı. Bu təkcə bizə aid deyil, digər xalqlara da şamil olunmalıdır. O boşluq özünü çox ağır şəkildə göstərəcək. Amma nəzərə alaq ki, Almaniya, Fransa, İtaliya və digər böyük Avropa dövlətlərində milliyyətçi liderlər yoxdur. Bu o demək deyil ki, həmin dövlətlərin, xalqların millətçilik, vətənpərvərlik duyğuları sıradan çıxıb. Əksinə daha güclü, ciddi proseslər gedir. Dövlət də altdan bunlara təkan verir. Amma bizim kimi ölkələrdə bunların əksi olur. Sosial rifah, yaşayış durumu çox aşağı olduğundan, idarəetmə qanunsuzluğuna görə insanlar bir pənah yeri axtarırlar. Bolşevik kimi canilər 1920-ci ildə qalib gəldilər. Rusiya boyda böyük məkana hakim kəsildilər. Bunun səbəbi azğın idarəetmə idi. Amma o zamanlar insanlar bolşevizmə üz tutdular. Çünki o zamankı idarəçilik, yeni bəylərin, xanların, mülkədarların özbaşınalıqları insanları buna sürüklədi. Bu gün də insanlarımız vəhhabizmə və digər bu kimi təhlükəli yerlərə üz tuturlar. Qınamaq da olmur. Çünki insanların üz tutası başqa yerləri qalmayıb. "Nurçuluq" da göstərdi ki, bunları dünya gücləri körükləyir. Çalışırlar ki, Azərbaycan, Türkiyə və digər müsəlman ölkələrində millətçilik ideyaları baş qaldırmasın. İnsanlara dini mövhumatı daha çox aşılayırlar. Nəticədə təhlükəli təriqətlərdən insanlar maliyyə ala bilirlər, ailələrini dolandırırlar və sonda da belə vəziyyət yaranır. Təsəvvür edin ki, "nurçuluq", mason kimi hallar Avropada heç olmur. Çünki Avropa insanı rifah içərisində yaşayır. Onların mücərrəd tərəflərə üz tutmağa ehtiyacları yoxdur. Haqlarını tələb edirlər və sonradan da onun bəhrəsini dadırlar. Millətçilik ideyalarında yaranan problem Elçibəy, yaxud millətçi liderlərin yoxluğu ilə həm bağlıdır, həm də bağlı deyil. Millətçi lider yoxdursa, dövlət onu əvəz etməlidir. Çünki bu yol davam etməlidir. Biz də isə həm bu missiya davam etdirilmir, həm də vətəndaş acından ölür. Adətən böyük liderlərin əvəzləyicisi olmur, davamçısı olur. Elçibəyin davamçıları məlum çevrələrdir ki, onlar da gücləri yetən qədər bu yolu davam etdirirlər. Əlbəttə o boşluqlar doldurulacaq səviyyədə deyil. Çünki o boşluqlara basqılar o qədər güclüdür ki, kiçik qruplar nə qədər fədakar olsalar da yetərli deyil".

❑ Cavanşir ABBASLI



# "Lənkəranski" türk klanı yaradıbmış

## Antalyada "qanuni oğru"ların qətli ilə bağlı "sxodka"nin yeni detalları bilindi

**Türkiyənin Antalya şəhərində keçmiş SSRİ respublikalarından olan " qanuni oğru"ların iştirakı ilə baş tutan "sxodka"nın yeni təfərrüatları bəlli olub. Kriminal "sxodka"da əsasən, "Rövşən Lənkəranski"yə yaxın olan gürcü avtoritetlər iştirak ediblər.**

Kriminal yığıncaq "Lənkəranski"nin yaxın dostu Merab Canqveladzenin ("Merab Suxumski") rəhbərliyi altında keçirilib. Buna qədər yayılan xəbərlərdə deyilirdi ki, tanınmış oğrular Merab Baxiya, "Roin Uqlava, İrakliy Kaliçava, Koba Axvlediani, Zurab Dqebuadze iştirak ilə baş tutan "sxodka"da "Rövşən Lənkəranski"nin qətlinin təşkilatçı və icraçılarına ölüm hökmü çıxarılıb.

"Yeni Müsavat" xəbər verir ki, həmin "sxodka"da qeyri-millətlərdən olan avtoritetlərin Rusiyadan sıxışdırılıb çıxarılması da müzakirə mövzusu olub. Slavyan mənşəli avtoritetlərə qarşı yeni cəbhənin açılması da qərarlaşdırılıb. Rusiyanın rosbalt.ru saytı yazır ki, "sxodka"da gözlənilməz olan bu mövzu müzakirə edilərkən slavyan mənşəli "qanuni oğru"lar - "Petrik" ləqəbli Aleksey Petrov, "Şişkan" ləqəbli Oleq Şişkanov, "Tyurik" ləqəbli Vladimir Tyurin hədəf seçiliblər.

Bu il avqustun 18-də öldürülən "Rövşən Lənkəranski"nin mənsub olduğu klanı "türk" klanı adlandıran sayt yazır ki, "Merab Suxumski" və ətrafı "sxodka"da slavyan "qanuni oğru"ların Rusiya kriminal aləmini ələ keçirdiyini bildirib. Ətrafını slavyanları bu aləmdən "təmizləməyə" çağırıb. "Sxodka"da slavyan "qanuni oğru"ların hazırda Yunanıstanda olan "kriminal general" "Laşa Rustavski"yə dəstək verdikləri qeyd edilib. Laşa Şuşanaşvilinin "Rövşən Lənkəranski"nin qətlində adı keçən, hazırda həbsdə olan yezdi-kürdü "Şakro Molodoy"un əvəzinə onun təmsil etdiyi kriminal qruplaşmaya namizəd olması da qeyd edilib. Bu "sxodka"dan sonra Rusiyada yerli kriminal qruplaşmalarla gəlmələr arasında qanlı "razborka"ların olacağı şübhəsizdir.

Bu arada "Rövşən Lənkəranski" qətlində şübhəli bilinən şəxslə birlikdə axtarışda olması üzə çıxıb. Bu günə qədər "Rövşən Lənkəranski"nin qətli ilə bağlı ümumilikdə 4 nəfər saxlanılıb. "Report" Türkiyə KİV-inə istindən xəbər verir ki, "Rövşən Lənkəranski" güllələnən zaman onun yanında olmuş şəxsin vəziyyəti ağır olaraq qalır. Məlumata görə, həmin şəxsin bədənindən 4 güllə çıxarılıb. Hadisə ilə bağlı Tahir C., Hacıbaba.T., Zaur İ. və Vahid M. şübhəli qismində saxlanılıb. Məlumata görə, polis tərəfindən aparılan istintaq işi tamamlandıqdan sonra şübhəlilər məhkəməyə göndərilib. İstintaq zamanı bu cinayətin çoxyönlülüyü məlum olub. Rusiyada işlətdiyi cinayətlərlə bağlı Hacıbaba T. -nın axtarıldığı da bildirilir. Polisin məlumatına görə, 2013-cü ildə Başakşehirdə öldürülən Ali Baba Qametovun qətli ilə bağlı "Rövşən Lənkəranski" və Hacıbaba T.İstanbul polisi tərəfindən axtarılırmış. Qeyd edək ki, avqustun 18-də "Rövşən Lənkəranski" İstanbulda Yıldız məhəlləsində aldığı çoxsaylı güllə yaraları nəticəsində xəstəxanada vəfat edib.

❑ E.HÜSEYNOV

# Təhsin Ağayev "MTN işi" üzrə istintaqdan necə yayınır...

## Adı bir sıra qanunsuzluqlarda çəkilən sabiq rəis müavini "ölüm ayağında" olması barədə saxta rəylər alıb; amma o, yaxınlarının toyunda yallı gedir...

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyindəki (MTN) mütəşəkkil cinayətkar dəstənin ifşasının bir ili yaxınlaşır. 2015-ci ilin oktyabrında MTN-də başladılan "təmizləmə" əməliyyatı zamanı həbs edilən, məsuliyyətə cəlb olunan cinayətkar dəstənin üzvlərinə qarşı açılan cinayət işinin istintaqı davam edir. Gununsesi.info yazır ki, ötən müddət ərzində istintaqdan yayına bilənlər də var: "Ancaq "dəstə başçısı" Eldar Mahmudov və onun "baş torbatikəni" olan Mövlan Şıxəliyevin azadlıqda qalması cəmiyyətdə birmənalı qarşılanmır".**

**Sayt MTN-in İstintaq Baş İdarəsinin sabiq rəis müavini Təhsin Ağayevin istintaqdan yayınması haqda bunları yazır:** "Mənbənin sözlərinə görə, Leyla Şıxlıniskayanın klinikasında saxta epikriz yazdıran Təhsin Ağayev xəstəlik səbəblərinin əsas gətirərək, istintaqdan yayınır. Belə ki, 50-yə yaxın iş üzrə ifadə verməli olan Təhsin Ağayev istintaqın çağırışlarına epikrizlər göndərməklə məhəl qoymur. Həmin sənədlərdə guya onun ölüm ayağında olması barədə rəylər də yazılıb. Araşdırmamız zamanı onu da öyrəndik ki, yaxınlarının toy məclislərinə qatılan və orada yallı gedən Təhsin Ağayevin səhhəti nədənsə həmin məclislərdə normal olub. Ümid edirik ki, prokurorluq orqanları fəaliyyəti dövründə saysız qanunsuzluqlara imza atan Təhsin Ağayevi və onun sifarişi ilə saxta cinayət işlərinin istintaqını aparan müstəntiq Elşən Murtuzov kimi hüquqa qəsd edən şəxsləri məsuliyyətə cəlb edəcək və məhkəmə onların layiqli cəzasını təyin edəcək".

T.Ağayevin fəaliyyəti haqda o, hələ vəzifədə olarkən redaksiyalara çoxsaylı şikayətlər daxil olurdu. Məsələn "Yeni Müsavat"ın 12 iyul 2009-cu il tarixli sayında dərc olunan "Terrorda suçlanan şəxs prezidentdən kömək istədi" sərlövhəli məqalədə onun fəaliyyəti haqda MTN təcridxanasından keçmiş Müşfiq Amanov yazırdı.

**Sitat:** "Cənab prezident! Mən artıq 14 aydır ki, heç bir təqsirim olmadan MTN-in istintaq təcridxanasında saxlanıram. Məni heç xəyalıma gəlməyən bir cinayətdə - İsrail səfirliyinə qarşı terrora hazırlıqda günahlandırırlar. Mən özümün heç bir günahım olmadığı barədə kifayət qədər müvafiq dövlət təşkilatlarına şikayət ərizəsi yazmışam. Hətta bir dəfə Baş Prokurorluğun səlahiyyətli nümayəndəsi ilə görüşmüşəm. Görüş zamanı mənə bildirib ki, sən narahat olma, bu, hələ son deyil, istintaqın sonunda inşallah, hər şey yaxşı olacaq. Nəhayət, istintaqın sonunda MTN-in İstintaq İdarəsinin şöbə rəisi, ədliyyə mayoru cənab Təhsin Ağayev mənə heç bir sübut olmadan "tapşırıq belədir" dedi. Dövlətə xəyanət, terrora hazırlıq və digər heç ömrüm boyu rəngini belə görmədiyim narkotik vasitə satışında günahlandırıldım".

**M.Amanov Təhsin Ağayevin barəsində fikirlərini belə davam etdirmişdi:** "Təhsin Ağayev sübutları öz xəyallarına söykənir. Mənimlə bərabər 5 adam həbs olunub və bunların heç birinin mənim barəmdə heç bir ifadəsi yoxdur. Nə lehimə, nə də əleyhimə. Mən göydə Allaha, yerdə prezidentimə ümid edirəm ki, bu haqsız adamların haqsız ittihamlarına görə mənim günahsız olaraq həbs olunmama imkan verilməyəcək".

❑ E.MƏMMƏDƏLİYEV



# Vətəndaş bankı necə məhkəməyə verə bilər?

**Əkrəm Həsənov: "Vətəndaşlara bankları məhkəməyə verməyi tövsiyə etmirəm, bu addımı qarşı tərəf atsa faydalıdır"**

**Banklarla kredit borcu olan vətəndaşlar arasında çəkişmələr davam edir. Borcluların bir qismi krediti ödəməkdən imtina edib, bir qismi isə ödəməkdə çətinlik çəkir. Bu səbəbdən də ölkə üzrə problemli kreditlərin həcmi artaraq rekord həddə-1,5 milyard manata çatıb.**

Problemdən ən çox əziyyət çəkən isə vətəndaşlardır. Xüsusən xarici valyutada kredit götürənlərin borcu son bir il ərzində iki dəfədən çox artıb. Dolların hər gün tədricən bahalaşdığını nəzərə alsaq, bu borclar da günbəgün artmaqdadır. Halbuki vətəndaşların əksəriyyəti banklardan götürdükləri məbləği həmin dövrün məzənnəsi ilə hesabladıqda geri ödəyiblər.

Bu halda vətəndaş kredit müqaviləsinin dayandırılması üçün məhkəməyə necə müraciət edə bilər? Bunun üçün hansı prosedurlardan keçməlidirlər? Bankların vətəndaşları məhkəməyə verməsi, yoxsa vətəndaşın bu addımı atması problemin həllində daha effektivdir?

Bu sualları cavablandıran hüquqşünas və iqtisadçı ekspert Əkrəm Həsənov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bankların ilk olaraq məhkəməyə müraciət etməsi vətəndaş üçün daha uğurlu variantdır: "Əlbəttə, istənilən vətəndaş hesab etsə ki, banka borcunu tam bağlayıb, lakin bank heç bir əsas olmadan ondan əlavə ödənişlər etməsini tələb edir, vətəndaş məhkəmədə banka qarşı iddia qaldıra bilər və iddia predmeti də bağlanmış kredit müqaviləsinə xitam verilməsi olacaq. Yəni müştəri məhkəmədən tələb edəcək ki, bağlanan kredit müqaviləsinə xitam verilsin. Çünki həmin müqavilə üzrə öhdəliklər çoxdan icra edilib. Lakin vətəndaşlar onu da nəzərə alsınlar ki, belə iddianın müəyyən qədər xərcləri olacaq, dövlət rüsumları ödənilməlidir, vəkil tutmalı olacaqlar. Buna görə də mən məsləhət görərdim ki, vətəndaşlar məhkəməyə özləri müraciət etməsinlər. Yaxşı olar ki, onları bank məhkəməyə versin. Bundan öncə isə banka müraciət göndərməyi tövsiyə edərdim. Əgər bank vətəndaşdan ödəniş etməyi tələb edirsə, o zaman banka sadəcə məktub göndərsinlər. Mətni də mən belə olsun: "Mən hesab edirəm ki, bankdan götürdüyüm borcu bağlamışam, bank qarşısında heç bir öhdəliyim yoxdur. İstəyirsinizsə, məni buna görə məhkəməyə verin". Daha sonra vətəndaş etirazını ona qarşı açılmış məhkəmədə bildirə bilər. Bu halda vətəndaş onu udur ki, məhkəmə iddiasına görə dövlət rüsumu ödəməyəcək, onu bank ödəmiş olacaq. Əksər hallarda heç banklar da vətəndaşları məhkəməyə vermirlər, çünki iş çoxdur, işçi qüvvəsi çatışmır, vəsait yoxdur".

**Ekspertin sözlərinə görə, əgər borcun qalıq məbləği də azdırsa, ümumiyyətlə məhkəməyə vermirlər ki, vaxt itkisi olmasın:** "Buna görə də, ola bilsin ki, heç bank vətəndaşı məhkəməyə verməyəcək və o məktubla da iş bitəcək. Lakin bank məhkəməyə versə, vətəndaş gedib məhkəmədə öz maraqlarını qoruya bilər. Bu baxımdan mən vətəndaşlara bankları məhkəməyə verməyi tövsiyə etmirəm. Lakin vətəndaşın buna imkanı varsa, məhkəməyə verməsi də yaxşı bir addımdır. Banklar bundan qorxurlar, çəkinirlər, bu baxımdan pis deyil".

**Vətəndaşları narahat edən bir məqam da məhkəmə prosesi zamanı onların ölkədən çıxışının məhdudlaşdırıla biləcəyi faktıdır. Bu məsələyə toxunan Ə. Həsənov vurğuladı ki, məhkəmə prosesi getdiyi zaman vətəndaşın heç bir hüququ məhdudlaşdırıla bilməz:** "Yalnız məhkəmənin qanuni qüvvəyə minmiş hökmü varsa, lakin onu icra etmirsə bu halda belə addımlar ola bilər. Vətəndaşlar məhkəmə prosesindən qorxmalı deyil. Əksinə məhkəmə prosesi nə qədər çox çəksə, bu bankların deyil, vətəndaşların xeyrinədir. Çünki bank məhkəmə prosesi gedə-gedə vətəndaşa qarşı heç nə edə bilməz. Bank qanunsuz bir əməl etmək istəsə belə, məhkəmə prosesi gedirsə, bunu edə bilməz".

❑ **Nərgiz LİFTİYEVA**

# Dollar 1.70-i ötdü

## Banklar dollar və avro satışını on gündür dayandırıblar; Mərkəzi Bank xarici valyuta qıtlığı ilə bağlı vəziyyəti şərh etmir

**Milli valyuta olan manatla bağlı vəziyyət pisləşməkdədir. Sentyabrın 2-də ölkə banklarında dolların satış qiyməti 1,70-i ötüb. Bankların əksəriyyəti satış kursunu 1,7010-1,7016 səviyyəsində açıqlayıb. Yeri gəlmişkən, banklar dollar və avro satışını on gündür ki, dayandırıblar. Mərkəzi Bank isə xarici valyuta qıtlığı ilə bağlı vəziyyəti şərh etmir.**

Kommersiya banklarının xarici valyuta satışı ilə bağlı vəziyyət gərgindir. Bankların bir hissəsi valyuta satışını ya dayandırıb, ya da sərt limit qoyub. Müvafiq maliyyə strukturları banklarda dollar qıtlığına və bununla bağlı yaranan təşvişə rəsmi reaksiya vermirlər. Mərkəzi Bank "Turan"ın valyuta qıtlığı və vəziyyəti yaxşılaşdırmaq üçün görülən tədbirlər barədə sorğusuna cavab verməyib. Maliyyə Bazarlarına Nəzarət Palatasında qeyd ediblər ki, onlar bankların kommersiya siyasətinə qarışmır, 4 faiz marjaya nəzarət edirlər. Bununla belə, Palatada qeyd ediblər ki, əksər kommersiya banklarının valyuta satışından imtinası ilə bağlı əhali arasında təlaşın mövcud olduğunu hesab etmirlər.

**İqtisadçı alim Fikrət Yusifov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, manatın kəskin ucuzlaşacağı real görünmür: "Manatın keçən ilin fevral və dekabr aylarında olduğu kimi, birdən-birə kəskin ucuzlaşacağı real görünmür. Əslində manatın üzən məzənnəyə keçirilməsindən sonra heç buna ehtiyac da qalmır. Zəruri olan halda bazar özü valyuta birjası vasitəsilə manatın məzənnəsini tənzimləyə bilər. Xüsusi indikator rolunu oynayan "qara bazar" isə vəziyyətin nəbzini özünəməxsus qaydada daha həssas bir şəkildə müəyyən edir. Sentyabrın 2-də "qara bazar"da artıq 1 dolların 1 manat 81 qəpiyə satılması faktının qeydə alındığı bildirildi. Mərkəzi Bankın rəsmi kursu isə bu günə 1 dollar üçün 1 manat 63 qəpik ətrafındadır. Deməli, qara bazarla rəsmi məzənnə arasında fərq 18 qəpik cuvarındadır. Bu, çox ciddi kənarlaşmadır. Bilmirəm Mərkəzi Bankın rəhbərliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası və Maliyyə Sabitliyi Şurası vəziyyəti necə qiymətləndirirlər. Ancaq rəsmi məzənnə ilə qeyri-rəsmi məzənnə arasında belə uçurum ciddi narahatçılıq üçün bir əsasdır. Bu vəziyyəti yetirən əsas səbəblərdən biri də budur ki, son günlər banklar xarici valyuta satışını tam dayandırıblar. Bunu görən "qara bazar"dakı möhtəkirlər isə yaranmış vəziyyətdən maksimum yararlanmaq qərarı veriblər".

**Ekspertin sözlərinə görə, bütün dünyada gedən iqtisadi tənəzzülün bizdən də yan keçmədiyi bir dönəmdə manatın məzənnəsində bəzi yumşalmaların baş verməsi təbii bir haldır:** "Neftin qiymətlərində baş verən kəskin ucuzlaşmalardan sonra ölkəyə daxil olan valyutanın həcminin əsaslı şəkildə azalması nəticə etibarilə tədiyyə balansımızdakı müsbət saldonun mənfi saldoya çevrilməsinə gətirib çıxardı. İndi qarşıda duran əsas vəzifə iqtisadiyyatın real sektorunun sürətli inkişafını təmin etməklə bu sektordan ixracın həcminin artırılmasına nail olmaqdan ibarətdir. Bu hesaba daxil olacaq valyuta gəlirləri ölkənin tədiyyə balansındakı kəsrin aradan qaldırılmasını təmin edə biləcəkdir. Bu variantın alternativi yoxdur. Yaranmış vəziyyətin tənzimlənməsi məqsədilə kordinal arrımların atılmasına ehtiyac var. Hesab edirik ki, yaxın iki il ərzində real sektorda iki minə qədər kiçik və orta müəssisənin yaradılmasına ciddi ehtiyac var. Bu məqsədlə Neft Fondunun vəsaitlərindən 5 milyard dollara qədər vəsaitin çıxarılaraq dediyimiz məqsədə istifadə edilməsi çox yerinə düşərdi. Bu yolla yaxın bir neçə ilə tədiyə balansındakı vəziyyətin tarazlaşdırılması mümkün ola bilər. Əks halda, manatın getdikcə dəyərdən düşməsi, inflyasiyanın sürətlənməsi və əsas makrogöstəricilərin pisləşməsi baş verər ki, bu da arzuolunan deyil. Digər tərəfdən, manatın məzənnəsində baş verən ucuzlaşmalar birbaşa qiymətlərə təsir edir. Xüsusilə da xaricdən möhkəm valyuta ilə alınıb gətirilən malların qiyməti dərhal qalxır. Təəssüf ki, belə qiymət artımları təkcə xaricdən alınıb gətirilən mallara şamil edilmir, yerli xammal əsasında daxili istehsalla məşğul olan iş adamları da sonradan tədricən öz məhsullarının qiymətlərini eyni səviyyədə qaldırırlar".



**Ekspert Vüqar Bayramov** isə qeyd edib ki, manatın kəskin dəyər itirməsinin qarşısını almaq olar: "May ayından sonra dollar manata nisbətən 14 faiz dəyər qazanıb. Dollara tələb yüksəkdir, bu isə nəticədə onun valyuta bazarımızda bahalaşmasına səbəb olur. Əgər banklar hərraca 700 milyon dollara təklif ilə gedirlərsə və həmin auksiondan sadəcə 50 milyon dollar aparırlarsa deməli, ABŞ pulu bahalaşmalıdır və nə qədər ki, tələb ilə təklif arasında bu disbalans var, dollar möhkəmlənməkdə davam edəcək. Hərraca son zamanlar yalnız Dövlət Neft Fondunun çıxması, Mərkəzi Bankın son aylar pul xərcləməməsi ondan xəbər verir ki, baş bank prosesə müdaxilə etməkdə maraqlı görünmür. Təbii ki, 15 milyard dollarlıq valyuta ehtiyatlarının cəmi 4 milyardan bir az artığını qoruyub saxlayan Mərkəzi Bankın ehtiyatlı davranışı anlaşılandır. 11 milyard dollar pul xərcləyən amma hələ də manatın kursunu stabilləşdirə bilməyən Mərkəzi Bank üçün güman ki, indi daha prioritet məzənnə siyasətini dəyişmək olacaq. Aydındır ki, tənzimlənən üzən məzənnə siyasəti səmərəli deyil. Amma Rusiya və Qazaxıstanda olduğu kimi, liberal məzənnə siyasətinə keçid də riskli görünür. 2016-cı ilin ötən aylarında hərraclara 3,03 milyard dollar çıxaran Dövlət Neft Fondu isə sadəcə öz büdcə öhdəliklərini yerinə yetirənədək hərraclara çıxacaq. Deməli, manatın məzənnəsi ilə bağlı iki mümkün yol var. Birincisi, Mərkəzi Bank mövcud tənzimlənən üzən valyuta rejimini davam etdirəcəksə, o zaman mərhələli şəkildə dollar möhkəmlənəcək. Bu məzənnə siyasəti son üç ayda dolların manata nisbətən hər 100 dollarda 25 manat möhkəmlənməsinə səbəb olub. İkincisi, Mərkəzi Bank məzənnə siyasətini dəyişir və kursu bazar müəyyənləşdirir. Bu halda bazarda dollar sıçrayışla dəyər qazanır. Mərkəzi Bank yəqin ki, gec-tez liberal məzənnə siyasətinə keçəcək. Amma bunu nə zaman edəcək, proqnozlaşdırmaq mümkün deyil. Çünki bu, inzibati qərardır. Amma dollara tələb ilə təklif arasındakı gündəlik 14 dəfəlik fərq hər iki mümkün yolda dolların möhkəmlənəcəyindən xəbər verir. Manatın yenidən kəskin dəyər itirməsinin qarşısını valyuta ehtiyatlarının bir hissəsinin ölkəyə gətirilərək banklar vasitəsi ilə sahibkarlara güzəştli kredit formasında verilməsi ilə almaq olar. Birinci mərhələdə 4 milyard dollar Azərbaycana gətirilə bilər. Bu bir tərəfdən imkan verəcək ki, sahibkarlar güzəştli kredit alsınlar və real sektora "isti pullar" daxil olsun, digər tərəfdən xarici valyutaya olan tələb qarşılanacaq və təklif ilə tələb arasında balans bərpa ediləcək. Nəticədə bu zaman Mərkəzi Bank artıq daha az itkilər ilə liberal valyuta rejiminə keçə bilər. Düşünürəm ki, yalnız bu yolu seçərək manatı xilas etmək olar".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 195 (6516) 3 sentyabr 2016

# ANS-in məhkəməsi oldu

**Sentyabrın 2-də 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsində "ANS ÇM Yayım və Media" Şirkətinin Milli Televiziya və Radio Şurasına (MTRŞ) qarşı şikayətinə baxılıb.**



APA-nın xəbərinə görə, hakim Elçin Məmmədovun sədrliyi ilə keçirilən prosesdə "ANS ÇM Yayım və Media" Şirkətinin vəkili Rafiq Mustafayev bildirib ki, MTRŞ-ın qərarları nəticəsində şirkətə külli miqdarda maddi ziyan dəyib və işçilərə maaş vermək mümkün olmayıb.

Vəkil əlavə edib ki, maddi ziyanın həcmi hər gün artır: "Buna görə də biz sizə müraciət edirik ki, radionun fəaliyyətinin dərhal bərpa edilməsi haqda cavabdehin üzərinə vəzifə qoyasınız".

MTRŞ-nın nümayəndəsi Toğrul Məmmədov vəsatətin əsassız olduğunu və təmin edilməməsini istəyib.

Hakim vəsatətə növbəti mərhələdə baxılacağını deyib.

ANS-in vəkili ANS Şirkətlər Qrupunun 3-cü tərəf kimi işə cəlb olunması barədə vəsatət qaldırıb. Məhkəmə bu vəsatəti təmin etməyib.

Vəkil Rafiq Mustafayev hakimə vəsatətləri təmin etmədiyi üçün etiraz edib və etiraz məktubunun hazırlanması üçün məhkəmədən vaxt istəyib.

Fasilə elan edilib. Fasilədən sonra hakim qərarla tanış olmaq üçün ANS-ə vaxt verib. Məhkəmə prosesi sentyabrın 6-da davam etdiriləcək.

Qeyd edək ki, MTRŞ-nin 18 iyulda keçirilmiş iclasında "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 23.2.8-ci maddəsinin tələbinə uyğun olaraq "ANS ÇM Yayım və Media" Şirkətinə 25 oktyabr 2013-cü il tarixdə verilmiş TR 100 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə qərar qəbul edilib. Yayım zamanı bir neçə dəfə qanunvericiliyin tələblərinin pozulması halları əsas götürülərək ANS ÇM radiosunun xüsusi razılığı (lisenziya) ləğv olunub.



**"ANS ÇM Yayım və Media" Şirkəti dəymiş maddi və mənəvi ziyana görə MTRŞ-dan 1 milyon manat təzminat tələb edir.**

# Əli Kərimlinin köməkçisi həbsdə qaldı

## Mövsüm Səmədovun isə aclıq aksiyasına Penitensiar Xidmətdən reaksiya

**Sentyabrın 2-də Bakı Apelyasiya Məhkəməsində AXCP sədri Əli Kərimlinin köməkçisi "Azadlıq" qəzetinin yayım direktoru, Faiq Əmirlinin şikayətinə baxılıb. Qapalı keçirilən məhkəmə iclasına Faiq Əmirlinin özünü də gətiriblər. O, məhkəmədə çıxışında ittihamın absurd olduğunu, Fətullah Gülən şəbəkəsilə heç bir əlaqəsi olmadığını bildirib.**



Faiq Əmirli

Həsən Əhmədovun sədrlik etdiyi məhkəmə heyəti apelyasiya şikayətini təmin etməyib.

F.Əmirlinin vəkili Aqil Layıcov "Azadlıq"a açıqlamasında bildirib ki, bu qərar onlar üçün gözlənilməz olmayıb: "Bizim onsuz da apelyasiya məhkəməsindən ədalətli, obyektiv qərar çıxarılması ilə bağlı gözləntimiz yox idi. Sadəcə, Avropa Məhkəməsinə müraciət etmək üçün bu instansiyanı keçmək tələb olunur. Gözlədiyimiz kimi də oldu".

Vəkil əlavə edib ki, qərarı alandan sonra F.Əmirli barəsində həbs qərarından Avropa Məhkəməsinə şikayət göndərəcəklər.

REAL sədri İlqar Məmmədovun ailəsi sentyabrın 2-də onunla görüşüb. Görüş barədə REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova "Yeni Müsavat"a bunları deyib: "Vəziyyəti yaxşı idi. Elə bir problem yoxdur. Ali Məhkəmədə keçiriləcək prosesin hələ də günü məlum deyil".

Qeyd edək ki, Qobustan həbsxanasında cəza çəkən Azərbaycan İslam Partiyasının sədri Mövsüm Səmədov avqustun 29-dan müddətsiz aclıq aksiyasına başlayıb. M.Səmədov aksiya keçirməsinə səbəb kimi bu ayın 26-da keçiriləcək referenduma etirazını göstərib.

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mətbuat katibi Mehman Sadıqov AİP liderinin aclıq aksiyası keçirməsi ilə bağlı bunları dedi: "Qanunvericiliyə görə, məhbus aksiya barədə həbsxana rəhbərliyinə müraciət etməlidir. Müraciətdə aksiyanın səbəbi göstərilməlidir. Əgər o həbsxana rəhbərliyinə müraciət edibsə, qanunvericiliyə uyğun şəkildə rəhbərlik addımlarını atacaq".

**Azadlığa çıxmasına 10 ay qalmış, iyun ayında verilən Amnistiya Aktına düşən Müsavat başqanının müavini Fərəc Kərimli məlum olmayan səbəblərdən azad edilmir. Saxlanıldığı 14 saylı cəzaçəkmə müəssisəsində amnistiyanın icrası davam etsə də, bu, vicdan məhbusuna şamil olunmur. Başqan müavinin atası Raqif Kərimli son durumla bağlı bunları dedi:** "Elə bir yenilik yoxdur. Azadlığa çıxmasını gözləyirik, amma amnistiya düşdüyü deyilsə də azad olunmur. Təsəvvür edin ki, azadlığa çıxmalarına 1 il 3 və ya 4 ay qalanlar artıq amnistiya qərarı ilə azad olunublar. Amma Fərəcin 10 ayı qalıb, azadlığa buraxmırlar. Özü də sentyabrın 2-də zəng etmişdi. Dedi ki, amnistiya ilə tez-tez məhbuslar azad edilir, amma cəza müddəti azad edilənlərin müddətindən az qalsa da, buna qərar şamil olunmur. Yenə də amnistiyanın icra müddəti bitənə qədər gözləməyə məcburuq".

❑ **Cavanşir ABBASLI**

# Qürbətdə qocalan sabiq nazirimizi azərbaycanlılardan küsdürən səbəb

## Tofiq Qasımovun son fotosu maraqlı açıqlamalara səbəb oldu; **Xəyyam Qəhrəmanlı:** "O, azərbaycanlılarla da çox ünsiyyət saxlamır" **Mirmahmud Mirəlioğlu:** "Tofiq bəyin mənzilində otaqların şüşələri yox idi"





**Azərbaycanın sabiq xarici işlər naziri, milli azadlıq hərəkatının öncül isimlərindən olan Tofiq Qasımovun sosial şəbəkələrdə yayılan fotosu maraqla qarşılandı. İsveçrənin Lüzern şəhərində siyasi mühacir həyatı yaşayan sabiq nazirin fotosu sosial şəbəkələrin və mətbuatın əsas müzakirə mövzusuna çevrildi.**

Diqqəti əsasən T.Qasımovun qocalması çəkdi. 78 yaşlı sabiq XİN rəhbərinin fotosunu onun yaşadığı şəhərdə siyasi mühacir olan müsavatçı Xəyyam Qəhrəmanlı çəkərək facebook səhifəsində paylaşıb və üzərində bu sözləri qeyd edib: "Bəli, Tofiq Qasımovdur! Müstəqil Azərbaycanın qurucularındandır. Hərdən rastlaşırıq, arada bir yaxınlaşıb salamlaşıram. Dəyərini bilmədik, qürbət eldə bax beləcə qocalır, yaddan çıxır bu dəyərli insan!".

Bir fotonun tarixçəsi ilə bağlı müəllif X.Qəhrəmanlıdan internet üzərindən fikirlər aldıq. O, qürbətdə qocalan keçmiş nazirimizi tez-tez gördüyünü, lakin ona çox yaxınlaşmadığını söylədi: "Çox az danışan insandır. O vaxtkı hadisələr barədə də çox az danışır. Tofiq bəy azərbaycanlılarla da çox ünsiyyət saxlamır. Səbəb kimi təxmini bilirəm ki, Tofiq bəy Türkiyədə mühacirətdə olduğu zamanlar bəzi azərbaycanlıların ona çox ziyanı dəyib. Türkiyə hökuməti az qala onu Azərbaycana təhvil verirmiş. Son anda oranı tərk edən Tofiq bəy İsveçrəyə gəlib. Burada dövlət ona hər cür şərait yaradıb. Özünün mənə dediyinə görə almanca bir neçə kitabı çıxıb. Təəssüf ki, çox qocalıb, bəzən yaddaş problemi yaşayır. Burada hər kəs ona hörmətlə yanaşır. Amma ünsiyyətdən qaçır. Yaşadığım şəhərdə olur deyə onunla tez-tez rastlaşıram. Bir də dil kursuna gedirəm, məktəbin yanında market var, tez-tez ora gəlir. Xanımı və iki övladı ilə birlikdə yaşayır. Üzvü olduğu Müsavat Partiyası ilə mən bilən heç bir əlaqəsi yoxdur. Amma Müsavatı çox sevir. Azərbaycan mətbuatını da izləmir. Siyasi proseslərlə də maraqlanmır".

Qeyd edək ki, qürbətdəki sabiq mühacir nazirimizin son fotosundan sonra ölkənin müxalifət düşərgəsinin onunla əlaqə qurmaması, iqtidarın ona qarşı sərt mövqeyi, biganə münasibəti yenidən gündəmə gəlib və bu hallar ciddi şəkildə qınanır.

T.Qasımovla bir vaxtlar yaxın əlaqələri olan KXCP sədri Mirmahmud Mirəlioğlu T.Qasımovun kifayət qədər tanınmış, dövlətinə və xalqına xidmət edən bir şəxs olduğunu söylədi: "Millət vəkili kimi özünəməxsus, qeyri-adi bir deputat olub. Qeyri-adi ona görə deyirəm ki, ona edilən müraciətlə bağlı deyirdi ki, mən qanun yaradıcılığı ilə məşğulam. Qanun yaradıcılığı ilə məşğul olan millət vəkili kimi, müstəqillik haqqında Konstitusiya Aktının müəlliflərindən biri olduğu hər kəsin yaddaşındır. Əvvəllər bütün dünya üzrə belə bir qanun var idi; dövlət qurumlarında işləyən, dövləti təmsil edən şəxslərə xaricdə yaşamalarına az icazə verilirdi. Dövlət tərəfindən onların müavinətləri ödənilir, ehtiyacları qarşılanır, ona görə də onlar kənara getmirdilər. Dünyanın heç yerində də belə şeylər olmurdu. Təəssüflər olsun ki, Azərbaycanda belə hallar var. Ondan uzun müddətdir xəbərimiz yoxdur. Onunla münasibətlərimiz olub. Tofiq bəylə bağlı maraqlı bir fakt deyim. Onun yaşadığı mənzil Milli Məclisə çox yaxın idi. Bəziləri onu ittiham edirdilər ki, evini Milli Məclisin yanında tikdirib. Biz onun evinə getməli olduq. Bəlli oldu ki, Tofiq bəyin mənzilində otaqların şüşələri yoxdur. Bir dostumuzla şüşə zavodundan şüşə alıb, onun qapılarına, pəncərələrinə düzəltdik. Hətta zarafat etdik ki, evini Milli Məclisin yanında tikdirəndə şüşələri niyə nəzərə almamışdın. Amma çoxdandır artıq əlaqəmiz yoxdur. Ona cansağlığı arzulayıram. Hər kəs yaşlaşır, eləcə də Tofiq bəy. Kaş ki, vətəndə olardı. Azərbaycan insanının indiki və bütün zamanlarda hər birinə böyük ehtiyac var".

Xatırladaq ki, T.Qasımov 1992-ci ildə xarici işlər naziri təyin olunmuş, 1993-cü ilin aprelinə qədər bu vəzifədə işləmişdi. 1995-ci ilin "OMON" hadisələri zamanı həbs olunan eks nazir məhbəsdən çıxandan sonra ölkəni tərk edərək, bir müddət Türkiyə universitetlərində dərs deyib. Sonralar oradan İsveçə gedən Qasımov bu günə qədər orada ömür sürür.

❑ **Cavanşir ABBASLI**

**Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubovun Ankaraya səfəri başa çatsa da mövzuya medianın diqqəti hələ də qalır. Qeyd edək ki, Ramil Usubov türkiyəli həmkarı ilə görüşüb. Bu görüşdə nazir bildirib ki, FETÖ ilə mübarizədə Azərbaycan Türkiyənin yanındadır.**

# "Fətullah Gülən masondur"

## Sərdar Cəlaloğlu: "Hakimiyyət strukturlarında, Milli Məclisdə, YAP-da olan gülənçilər həbs olunacaqsa..."

Ramil Usubov birgə mətbuat konfransında bəyan edib ki, FETÖ-nün Azərbaycanda təşkilatlanmasına qarşı bundan sonra da lazımi addımlar atılacaq. Bunun qarşılığında Əfqan Ala deyib ki, Türkiyə ilə Azərbaycan qarşıdakı dövrdə də məlumat və kəşfiyyat bilgilərinin mübadiləsi, görüləcək tədbirlər məsələsində tam iş, fikir birliyində olacaq.

Azərbaycanın daxili işlər nazirinin səfərini və bu səfərdən sonra gözləntiləri "Yeni Müsavat"a şərh edən **deputat Zahid Oruc** isə bildirib ki, nazirin Türkiyəyə səfəri Azərbaycanın təhlükəsizliyi üçün də çox əhəmiyyətli idi.

Z.Oruc eyni zamanda diqqəti başqa bir mühüm məqama da cəlb edib. O deyib ki, təhsil məkanında uğur qazanan və yaxud bu sistemdən keçənlərin hamısını gülənçi elan etmədən Azərbaycan bu məsələdə öz təhlükəsizlik maraqlarını düzgün müəyyənləşdirməyi bacarmalıdır: "Ramil Usubov dərin dövlət adamıdır, ölkə rəhbərinə sədaqətlidir və prinsipialdır, heç kəsə qarşı süni şəkildə ittihamlara yol verilə bilməz, eyni zamanda gülənçi olduğu sübuta yetirilən heç kəsə də güzəşt edilməz".

**Ekspertlər isə bildirir ki, hakimiyyətə yaxın deputatın bu açıqlaması çox mühümdür. Rəylərə görə, iqtidar tərəfindən gerçəklik düzgün qiymətləndirilərək ölkədə süni gərginlik yaratmaq cəhdlərinin qarşısı alına bilər. Həmçinin hakimiyyətin resurslarından yararlanıb kimlərsə yalandan gülənçi ovuna çıxıb, dövlətin gücünü əsas hədəfdən yayındıra bilməz. Bu da indiki həssas məqamda ölkəyə çox lazımdır.**

Mövzunu "Yeni Müsavat"a şərh edən **ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, FETÖ problemi həqiqətən Azərbaycanın təhlükəsizliyi baxımından aradan qaldırılmalıdır: "Fətullah Gülən dünya masonluğunun tərkib hissələrindən biridir. İslam və türk dünyasının masonluq qanadının aparıcı simalarındandır. Masonluğun əsas elementlərindən biri odur ki, onlar nə din, nə millət, nə dövlət, nə sərhəd tanıyır. Fətullah Gülən hərəkatının Türkiyədən sonra ən çox fəaliyyət göstərdiyi ölkələrdən biri Azərbaycandır. Bu onu göstərir ki, gülənçilərin ən çox yerləşdiyi ölkələrdən biri də Azərbaycandır. Bu hərəkatın iş prinsipini izləyəndə görürük ki, onun gücü cəmiyyətdən çox hakimiyyət daxilində ifadə olunur. Masonlar da hakimiyyət vasitəsilə öz məqsədlərinə çatmaq üçün həmişə hakimiyyətdə təmsilçilik qazanırlar. Azərbaycanda gülənçilər, masonlar hakimiyyət daxilində, müxalifətdə, QHT sektorunda bu və ya başqa şəkildə kök salıb. Bu cür qüvvələrin böyük əksəriyyəti müxtəlif hakimiyyət strukturlarındadır. Belə bir vəziyyətdə Azərbaycanın hüquq-mühafizə orqanlarının Türkiyənin hüquq-mühafizə orqanları ilə məlumat mübadiləsi və əməkdaşlıq şəraitində işləməsi Azərbaycanın təhlükəsizliyi baxımından vacibdir. Gələcəkdə hakimiyyət strukturlarında, Milli Məclisdə, YAP-da olan gülənçilər həbs olunacaqsa, bunu iqtidardaxili çəkişmə kimi qəbul edə bilmərik. Amma o da mümkündür ki, kimlərsə yaranmış şəraitdən öz rəqiblərini sıradan çıxarmaq üçün istifadə etməyə çalışsın. Bax, hüquq-mühafizə orqanları belə məsələlərdə diqqətli olmalıdır ki, günahı olmayanların FETÖ-çü damğası ilə sıradan çıxarılması halları yaşanmasın".



**"Yol vermək olmaz ki, əslində FETÖ-çü olanlar izi azdırmaq üçün FETÖ ilə heç bir əlaqəsi olmayanları hədəfə alıb onların həbs edilməsinə nail olsunlar"**

**S.Cəlaloğlu deyib ki, o, Fətullah Gülənin kitablarını axtarır ki, oxusun, orada nələr yazıldığını öyrənsin:** "Mən Gülənin kitabını oxusam o deməkdir ki, FETÖ-çüyəm, Hitlerin "Mayn kamf" əsərini oxumuşamsa faşistəm, bir erməninin Azərbaycan haqda yazdıqlarını oxusam belə çıxır ki, erməniyəm? Bu baxımdan hesab edirəm ki, həqiqətən də araşdırmalar ciddi aparılmalıdır, FETÖ-çü olduğu faktlarla sübuta yetirilməyən adamlar qətiyyən həbs olunmamalıdır. Məsələn, Əli Kərimlinin köməkçisi Faiq Əmirli hətta Fətullah Gülənin hansısa kitabını oxuyubsa, buna görə onun həbsi düzgün deyil. Faiq Əmirlinin FETÖ-çü olduğunu, ora xidmət etdiyini sübuta yetirən dəlillər yoxdursa, o, həbs edilməməlidir".

**Partiya sədrinin sözlərinə görə, Gülən məktəblərində oxumayan heç kəs Gülən hərəkatında deyil. Gülən hərəkatının əsas qayəsi beyinlərin yuyulmasından ibarətdir ki, o da məhz Gülən məktəblərində həyata keçirilib:** "O məktəbdən keçməyən kimsə Gülən hərəkatına daxil edilmir. Bir adamın Gülənçi olduğunu bilmək istəyirsinizsə, öncə baxın görün orta təhsili, ali təhsili harada alıb, vəzifə pillələrinə, deputatlığa hansı sürətlə yüksəlib.

Azərbaycanda "nurçu evləri" deyilən evlər var. Şübhəsiz ki, DİN və digər orqanlar bu cür evlərin harda olduğunu bilirlər. DİN-də və digər təhlükəsizlik orqanlarında şübhəsiz ki, ciddi faktlara əsaslanan informasiyalar və siyahılar var. Çalışmaq lazımdır o siyahılara FETÖ ilə əlaqəsi olmayan adamlar daxil edilməsin. Azərbaycanda Gülən məktəblərini oxuyan adamların hamısı o hərəkatın təsiri altında olan insanlardır. Onların bəziləri konkret olaraq Hərəkatın üzvüdür, bəziləri isə ikinci dərəcəli planda yer alırlar, onlardan lazım olanda kütləvi səhnələrdə istifadə edilir. Onu da deyim ki, Gülən məktəblərini oxuyan hər kəsi həbs eləmək düzgün deyil. O adamları həbs etmək, qanunla cəzalandırmaq lazımdır ki, onun FETÖ-çü olduğu faktlarla sübuta yetirilsin. Qəzetlərdə bu mövzuda çıxan məlumatlara hüquq-mühafizə orqanları barmaqarası baxmamalıdır, ciddi araşdırmalar aparılmalıdır".

**S.Cəlaloğlu vurğulayıb ki, Azərbaycanın daxili işlər nazirinə Türkiyədəki həmkarı tərəfindən əsasən Türkiyədə həyata keçirilməsinə cəhd edilən darbenin Azərbaycandan kimlər tərəfindən dəstəklənməsi ilə bağlı dosye verilə bilər:** "Dosyedə kimlərin həmin darbeyə maddi, mənəvi, siyasi, hüquqi dəstək verdiyi və verə biləcəyi, o plana daxil olduğu və ya daxil ola biləcəyi əksini tapa bilər. Belə bir dosye verilibsə, dövlətin təhlükəsizliyi baxımından əhəmiyyətə malikdir və yəqin ki, müvafiq tədbirlər görüləcək.

"Ergenekon" və "Balyoz" əməliyyatlarını keçirənlərin FETÖ-çü olduğu, həmin əməliyyatların vətənpərvər insanlara, Atatürkçülərə, əslində dövlətə qarşı keçirildiyi indi sübuta yetirildi. Bu gün Azərbaycanda yol vermək olmaz ki, əslində FETÖ-çü olanlar izi azdırmaq üçün FETÖ ilə heç bir əlaqəsi olmayanları hədəfə alıb onların həbs edilməsinə nail olsunlar. Bu baxımdan ölkənin daxili işlər nazirinin prosesə çox ciddi yanaşması zəruridir".

❑ **Etibar SEYİDAĞA**

# Xalq müxalifətin çağırışlarına niyə qoşulmur?

**Son illər ictimaiyyətdə müxalifətin addımlarına biganəlik müşahidə olunur. Bunu sosial şəbəkələrdən, həmçinin mediada müxalifətlə bağlı olan xəbərlərin oxunma sayından da görmək mümkündür. Belə ki, insanlar müxalifət camiyəsinin ən öndə olan liderinin belə açıqlamalarına bir o qədər də maraq göstərmir, müxalifətin hər hansı bir fəaliyyəti, mitinqlə bağlı xəbərlərə çox zəif reaksiya verirlər.**

Bunun səbəbləri barədə "Yeni Müsavat"a danışan KXCP sədri Mirmahmud Mirəlioğlu bildirib ki, burada bir sıra nüanslar var: "İndiki şəraiti də nəzərə almaq lazımdır. Lakin bir də baxarıq ki, gözlənilməz halda başqa məsələlər oldu. Hər halda indi yay istirahəti başa çatmaqdadır. Tələbələr bir qədər sonra dərslərə başlayacaqlar. Bunların hamısının bu və ya digər dərəcədə məsələyə təsirləri var. Bunlar müxalifətin fəaliyyətində çox əhəmiyyət kəsb edən hallardır".

**Ağ Partiyanın lideri Tural Abbaslı** isə bildirib ki, bir neçə ildir ictimaiyyətin müxalifətə diqqəti azalıb: "Hətta müğənnilərin, digər sahələrdə məşhur olan insanların, qonşu dövlətlərin belə sənətkarlarının şəxsi həyatları insanları daha çox maraqlandırır, nəinki daxildə baş verən həyati əhəmiyyət daşıyan siyasi hadisələr. Bu, əslində uzun illərdən bəri müxalifətin fəaliyyətinin nəticəsizliyinin bir simptomudur. Çünki müxalifət artıq uzun illərdir ki, nəticəsiz mübarizə aparır. Söhbət təkcə qalibiyyətdən, hakimiyyətə gəlməkdən getmir. Müxalifətin 1993-cü ildə təhvil verdiyi mövqelərdə belə dayana bilməməsi, həmin ildən etibarən yalnız geri getməsi insanları artıq bezdirib. Bu məğlubiyyəti təmsil edən insanlar da həmçinin dəyişməyiblər. 20 ildir müxalifət adına eyni simalar, eyni adlar iddia edirlər. Mübarizə metodları, yanaşmalarında, xalqa verdikləri mesajlarda heç bir dəyişiklik olmur. Xalq təbii ki, bu proseslərə artıq inanmır. İllərdir insanlara " bu mitinqə gəlin və hər şey dəyişəcək" deyərək onları dəvət edirik. İnsanlar gəlirlər, ancaq dəyişən heç nə olmur. Nəticədə onlar mitinqə gəlmirlər və növbəti dəfələrdə mitinqlə bağlı xəbəri də ciddiyə almırlar.



**Tural Abbaslı:** "Bu, əslində uzun illərdən bəri müxalifətin fəaliyyətinin nəticəsizliyinin bir simptomudur"



**Fəzail Ağamalı:** "İstənilən bir çağırışın sosial sifarişi varsa, onun reallaşmasında heç bir problem olmur"

Təsadüfi deyil ki, hətta bu yaxınlarda "oğru dünyası" dediyimiz aləmin təmsilçisi Rövşən Canıyevin vəfatı haqqında informasiyalar rekord həddə oxundu, nəinki, referendumla bağlı məlumatlar".

**T.Abbaslı bildirib ki, bu məsələdə dolayısı ilə günahı müxalifətin özündə görür:** "Təbii ki, burada hakimiyyətin müxalifəti uzun illərdir dar bir məkanda fəaliyyət göstərməyə məhkum etməsi faktoru da var. Ancaq 21-ci əsrdə sosial şəbəkələrin, fəaliyyət göstərdiyi texnoloji inkişaf dövründə hakimiyyət bizim təbliğat və təşviqatımızı daraldır deyə şikayətlənmək bəhanə deyil. Bu gün dünyada zülm mərkəzi kimi sayılan İŞİD terror qruplaşması belə texnologiya vasitəsi ilə istədiyi təbliğatı qura bilir. Ancaq bizim müxalifət təəssüf ki, bu texniki nailiyyətlərdən istifadə edib, xalqı öz arxası ilə apara bilmir. Bunun da səbəbi qeyd etdiyim kimi dəyişməzlikdir. Dəyişiklik baş vermədikcə, insanlar yeni simalar, adlar və mesajlar görməyincə müxalifətə münasibət elə bu cür də olacaq. Bu da təbii ki, hakimiyyətə sərf edir. Odur ki, günah müxalifətdədir və problem onların dəyişmək istəməmək arzularındadır. İnanmıram ki, insanlar öz talelərinə qarşı biganə olsunlar. Ən azından devalvasiyadan sonra insanlar anladılar ki, siyasət onların həyatlarına birbaşa təsir edir".

**AVP sədri, deputat Fəzail Ağamalı** isə bildirib ki, hazırda mitinqlə bağlı sosial sifariş yoxdur: "Hər bir çağırış sosial sifarişə söykənməlidir. İstənilən bir çağırışın sosial sifarişi varsa, onun reallaşmasında heç bir problem olmur. Milli Şura və onun arxasında dayanan AXCP-nin Azərbaycanda sosial dayağı yoxdur. AXCP faktiki olaraq Bakıda bir ofis partiyasına çevrilib. Edilən çağırışlar heç bir reallığı əks etdirmir və buna görə də nəticə verməyəcək. Azərbaycan xalqının mütləq əksəriyyəti ölkə prezidentinin həyata keçirmiş olduğu siyasəti dəstəkləyir. Həm də bu siyasət Azərbaycan xalqının sosial sifarişini özündə ehtiva edir. Xalqın düşündükləri ölkə prezidentinin siyasətində aparıcı xətti təşkil edir. Xalq nə haqda fikirləşib, onun həyata keçməsini arzulayırsa, bundan öncə ölkə prezidenti fərmanlarında, həyata keçirmiş olduğu siyasətdə bunların hamısının yerinə yetirir. Belə olduğu halda təbii ki, alternativə yer olmur. Nəticədə müxalifətdə olan partiyalar bir növ tərk-silah olunur. Ölkənin təxminən 10-15 faizi ölkə prezidentinin siyasətinə qarşı ola bilər. Yəni sadəcə olaraq, bu siyasəti bəyənməyə bilərlər. Ancaq onların da əksəriyyəti bu və ya digər siyasi partiyada birləşməyiblər. Belə olan halda bu gün Milli Şuranın yaxud da AXCP-nin mitinqlərlə bağlı çağırışları nəticəsiz qalır. Hətta sosial şəbəkələrdə, ayrı-ayrı yazışmalarda da baxırsan ki, bu cür çağırışlar faktiki olaraq qəbul edilmir. Bu hər şeydən əvvəl ölkə prezidentinin keçirməkdə olduğu daxili və xarici siyasətin məntiqinə söykənir".

❑ **Əli RAİS**

# General Çovdarovun ölüm aclığı davam edir

## Zorla yedizdirilməyəcəksə, öləcək...



**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general Akif Çovdarov aclığı davam etdirir. Artıq onun keçirdiyi aclıq aksiyasını tərəddüdsüz ölüm aclığı adlandırmaq olar. Ədliyyə Nazirliyi Tibb Baş İdarəsi rəsmilərinin generalın səhhətinin normal olması ilə bağlı açıqlamalarına rəğmən, onun vəkili Sadiq Rəsulov müvəkkilinin avqustun 19-dan başlatdığı aclıq aksiyası səbəbindən ölə biləcəyini istisna etməyib.**

A.Çovdarov ona cinayət işinin materialları ilə tanış olmağa şərait yaradılmasını tələb edir, istintaqın hərəkətlərinin qanunsuz olmasına etirazını aclıq keçirməklə bildirir.

*Bəs, odioz general həbsdə başlatdığı aclıq səbəbindən dünyasını dəyişərsə, buna görə kim cavabdeh olacaq?*

Vəkili bu suala konkret cavab vermir, deyir ki, bu, ölüm baş verəndən sonra istintaqın müəyyən etməli olduğu məsələdir.

**Penitensiar Xidmətin sabiq rəisi Məmməd Zeynalov** durumu "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, dustaqların saxlanılmasına, sanitar gigiyenik, qidalanma, həyat və sağlamlıqlarına ümumilikdə dövlətin cavabdeh olduğunu, dövləti müəssisədə təmsil edən şəxslərin sırasında ilk olaraq saxlandıqları müəssisə, bu halda təcridxana rəisinin məsuliyyət daşıdığını açıqlayıb: "Birbaşa cavabdeh şəxs müəssisə rəhbərliyidir. Əgər dustaq deyirsə ki, həyatıma təhlükə var, məni öldürə bilərlər, bununla bağlı bəyanat verirsə, dərhal təhlükəsizlik tədbirləri həyata keçirilməlidir. Akif Çovdarovun durumu fərqlidir, o, aclıq keçirir. Onun tələbi haqlıdır. Əgər istintaq materialları ilə tanış olmaq istəyirsə, ona bu şərait yaradılmalıdır. Aclıq təcridxanada ciddi bir haldır və əgər dustağın durumu ağırlaşırsa, onu tibb-sanitar hissəyə yerləşdirə bilərlər. Akif Çovdarovu əvvəldən digər xəstəliyi ilə bağlı ora köçürüblər. Buna görə də onun köçürülməsinə lüzum qalmayıb".

A.Çovdarovun vəkili deyir ki, müvəkkilinin aclıq keçirməsi ilə bağlı müvafiq müraciətləri olub, amma Ədliyyə Nazirliyi Tibb Baş İdarəsi rəsmilərinin dediklərindən belə anlaşılır ki, generalın aclıq aksiyası qeydə alınmayıb. Bu halda rəsmi olaraq A.Çovdarovun aclıq keçirdiyi hesab edilmir və müvafiq olaraq onun durumu keçirdiyi faktiki aclıq aksiyası üzündən kəskinləşərsə, ona Cəzaların İcrası Məcəlləsinə uyğun olaraq məcburi qidalanma proseduru tətbiq edilməyəcək.

### **Məmməd Zeynalov:** "Xüsusi alət var, 2 nəfər aclıq edən dustağın əlini tutur, 3-cü şəxs isə..."

Yəni bu gedişlə A.Çovdarovun aclıqdan ölməsi labüddür. Əgər onu zorla yedizdirilməyəcəksə, öləcək...



**M.Zeynalov deyir ki, Akif Çovdarovun sağlıq durumuna Bakı İstintaq Təcridxanasının baş həkimi cavabdehlik daşıyır:** "Aclığı qeydiyyata almaya bilməzlər. Almasalar belə, onun vəziyyəti bu və ya digər xəstəlik üzündən ağırlaşarsa, cavabdeh oradakı həkimlərdir. Məcburi qidalanma proseduru var, ondan istifadə etməlidirlər. Adətən bu proseduru "KQB"də tətbiq edirlər. Akif Çovdarov belə şeyləri yaxşı bilər. Xüsusi alət var, iki nəfər aclıq edən dustağın əlini tutur və 3-cü şəxs xüsusi aləti dustağın ağzına yerləşdirməklə yeməyi boğazına tökür. Çox vaxt dövlətə xəyanət etmiş şəxslər ölüm aclığına başlayırlar. Onların boğazına yeməyi də belə tökürlər. İnanmıram ki, Akif Çovdarov ona belə bir prosedurun tətbiq edilməsinə imkan verər. Çox vaxt dustaqlar belə prosedurun tətbiq ediləcəyini biləndən sonra özləri yeməyə başlayırlar".

**Sabiq rəis deyir ki, bundan başqa aclıq keçirən dustaqların xüsusi iynələr vasitəsi ilə sağlamlıq durumlarına ziyan vurmalarının qarşısı alınır:** "Aclıq edən dustağın əl-qolunu tutub ona bədəni gücləndirən iynələr vururlar və yemək yeməsini tələb edirlər. Yəni ciddi bir problem deyil, Akif Çovdarova məcburi yedizdirilmə proseduru tətbiq ediləcək. Onun həyatına cavabdeh həkimlərdir".

M.Zeynalov "aclıq səbəbindən dustağın öləcəyi təqdirdə cavabdeh şəxs kim olacaq" sualına belə cavab verdi: "Adətən, dövləti cinayətlər etmiş şəxslər özlərini öldürürlər. Bu halda cavabdeh heç kim hesab edilmir. Və ya şəxs özünü asır. Bu halda da kimsə məsuliyyət daşımır. Aclıq məsələsində cavabdeh həkimlərdir. Türmə rəisi kiməsə məcburi yemək yedizdirən deyil ki..."

Qeyd edək ki, bir müddət əvvəl Akif Çovdarov və digərlərinin cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb. Hazırda təqsirləndirilən şəxslər və vəkilləri cinayət işinin materialları ilə tanış olurlar. Tanışolma mərhələsi başa çatandan sonra iş baxılmaq üçün məhkəməyə göndəriləcək. Akif Çovdarov Cinayət Məcəlləsinin 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə), 308.1-ci (Məcəllənin bu maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə), 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik *(cinayətkar təşkilat)* tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham olunur.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Pul içində üzən "Xəzər Dəniz Gəmiçiliyi"nin sabiq sədr müavininin seyfini necə oğurlayıblar?

## Mübariz Mədətov oğurluqda şübhəli bilinənlərin məhkəməsinə məcburi gətiriləcək

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin sabiq müavini Mübariz Mədətovun mənzilindən içərisində külli miqdarda pul olan seyfi oğurlamaqda təqsirləndirilən Bakı şəhər sakini, 1986-cı il təvəllüdlü Ruslan Nabatov və Sabirabad rayon sakini, 1979-cu il təvəllüdlü Ramil Bağırovun cinayət işi üzrə məhkəmə istintaqı başlanıb.**

Prosesə hakim Səbuhu Hüseynov sədrlik edir.

İttihama görə, Ruslan Nabatov tanışı Ramil Bağırovla birlikdə 17 may 2016-cı ildə gecə saatlarında Mübariz Mədətova məxsus Bakı şəhəri, Zirə qəsəbəsi, dəniz sahilində yerləşən bağ evindən içərisində 40 min evro və 10 min dollar olan dəmir seyfi talamaqla zərərçəkmişə külli miqdarda ziyan vurublar. (virtualaz.orğ). Mübariz Mədətov "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsində çalışarkən ölkə başçısının göstərişi ilə işdən çıxarılıb. Buna səbəb isə M.Mədətovun oğlu Xalid Mədətovun idarə etdiyi "Mercedes Galendewagen " markalı avtomobillə Zığ şossesində böyük sürətlə hərəkətdə olarkən Binə qəsəbəsi yaxınlığında içərisində xalq artisti Ağasəlim Abdullayevin ailəsinin olduğu "Jiquli"ni vurub. Nəticədə ailənin 2 üzvü həlak olub, qalanları yaralanıb. Bu hadisə geniş rezonans doğurub və prezident İlham Əliyev Mübariz Mədətovu vəzifəsindən azad edib. Oğlu isə hazırda həbsxanadadır.

Bəs bu başıbəlalı keçmiş məmurun bağından həmin soyğunçuluq hadisəsi necə baş verib? İstintaq materiallarına əsasən zərərçəkmişin dəniz sahilində ərazisi 5 hektar olan həyət evində, yaxud malikanəsində təmir işləri aparıldığından orada çoxsaylı fəhlələr işləyib. Evin açarı isə keçmiş məmurun tanıyıb etibar etdiyi Anar Zabirovda olub. A.Zabirov orada işləməklə yanaşı, həm də fəhlələrə nəzarət edib.



Mübariz Mədətov

A.Zabirovun uşaqlıq dostu, taksi sürücüsü işləyən Ruslan Nabatov onun M.Mədətova məxsus bağ evində işləməsindən xəbərdar imiş. Bir neçə dəfə Anarla birlikdə həmin ünvana da gəlib, ustalara köməklik edib. Sonuncu dəfə keçmiş məmurun bağ evinə təşrif buyuran Ruslanın diqqətini yataq otağındakı dəmir seyf cəlb edib. Seyfin içərisində pul olacağını təxmin edən Ruslan onu necə ələ keçirmək üçün özlüyündə plan cızıb, götür-qoy edib, həyətə giriş-çıxış qapılarını diqqətlə nəzərdən keçirib.

Ruslan cızdığı oğurluq planı barədə tanışı, əvvəllər narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə Rusiyada həbs olunan, 2013-cü ildə cəzasını çəkib Azərbaycana dönən Ramil Bağırovu məlumatlandırıb. Ona "sənə bir iş təklif etmək istəyirəm, bilmirəm razı olacaqsan, ya yox, Zirədə bir evdə seyf var, mənzildə heç kim olmur, gedək onu götürək".

Maddi vəziyyəti ağır olan Ramil Bağırovdan ötrü Ruslanın bu təklifi göydəndüşmə olub. Amma yenə də ehtiyatlanaraq həyətdə gözətçi, kamera olub-olmadığını soruşub. Kamera və gözətçi olmadığını öyrəndikdən sonra gecə saatlarında Ruslana qoşularaq Zirəyə yollanıb. Mənzil başına çatan dostlar ətrafa göz gəzdiriblər, kimsənin olmadığına əmin olduqdan sonra evə yaxınlaşıblar, özləri ilə gətirdikləri fanarla otaqları yoxlayıblar. Hər ikisi köməkləşərək yataq otağındakı seyfi götürüb maşına yerləşdiriblər. Sonra isə heç nə olmayıbmış kimi mənzili tərk edərək yaşadıqları ünvana "Çapayev" küçəsinə gəliblər.

Ətrafdakı zibilliyin yanında seyfi maşından düşürüblər, dəmirlə sındırıblar. İçərisindəki pulları saymadan ciblərinə doldurublar. Maşını Ruslanın yaşadığı küçəyə sürərək orada pulları aralarında bölüşdürüblər. Hadisə barədə heç kimə heç nə deməyiblər. Əldə etdikləri pulla borclarını qaytarıblar, şəxsi tələbatlarına xərcləyiblər. Ruslan pulun bir qisminə"Priora" markalı maşın kreditə götürüb, bir qismini topazda uduzub.

Baş vermiş oğurluq faktı ilə bağlı cinayət işi açılıb. Keçirilən əməliyyat istintaq tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Ruslan Nabatov və Ramil Bağırov saxlanılıb. Onların hər ikisinə Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə ittiham irəli sürülüb, Xəzər rayon Məhkəməsinin qərarı ilə barələrində həbs-qətimkan tədbiri seçilib.

Sözegedən cinayət işi üzrə istintaq yekunlaşıb. Cinayət işi üzrə materiallar Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Təqsirləndirilən şəxslər məhkəmədə dindiriliblər. Zərərçəkmiş M.Mədətov məhkəmə prosesinə gəlmədiyinə görə proses təxirə salınıb. Məhkəmə M.Mədətov barəsində məcburi gətirilmə ilə bağlı qərar qəbul edilib.Məhkəmə prosesi sentyabrın 6-a təyin edilib.



# Geri qaldığımız sahələr

Zamin HACI
zaminhaci@gmail.com

**Söz yox, biz analoqu olmayan şəkildə inkişaf etmişik, ancaq hərdən elə bil başqa dövlətlər gəlib müəyyən məsələlərdə bizi ötüb keçirlər. İnsan paxıllıq edir istər-istəməz... Axı niyə kimsə bizi ötsün? Mən indi bir-iki misal yazacağam, ümidvaram əlaqədar təşkilatlar nəticə çıxardar, cavabdeh şəxslər layiqli cəzasını alar, dövlətçiliyimiz möhkəmlənər.**

İki gün qabaq xəbər lentində qabağıma çıxdı: “Türkiyədə 35 jurnalist həbs edilmişdir”. Belə şey olarmı? İndi bunu oxuyub adamın ürəyi partlamasın neyləsin? A kişilər, bizdə 35 jurnalist heç bütün müstəqillik dövründə tutulmayıbdır! Bəlkə Həsən bəy Zərdabi səhvə yol verib 19-cu əsrin sonlarında “Əkinçi” qəzetini açandan bəri bu qədər yazar-dustağımız olmayıbdır. Bəs biz Türkiyədəki bu tərəqqiyə necə çataq? Nə cür ötək keçək? Bir millət, iki dövlət deməklə olmur ey... Gərək real işlə göstərəsən.

Özü də, bizdə bir jurnalisti tutanda görürsən yetmiş yeddi yerdən bəyanat, səksən səkkiz ünvandan nota, doxsan doqquz səfirlikdən qətnamə vızıldadı. Biri etiraz edir, başqası narahat olur, üçüncüsü qarın ağrısına düşür... Azərbaycanda 1 jurnalisti tutmaq çox çətindir. Ağır və məsuliyyətli işdir. Başqa ölkələrdə isə 35-35 tuturlar. Adam hüquq-mühafizə orqanlarımızın fərasətsizliyinə heyrət edir.

Yaxud, Şimali Koreya adlı gözəl dövlət vardır. Dünən oradan belə xəbər oxudum ki, dövlət başçısı Kim Çen İn müəllim baş nazirin təhsil işləri üzrə müavinini topa qoyub atıbdır. Orda məhkəmə-zad gözləmirlər, adətən adamı topun qabağına bağlayıb havaya uçurdurlar, lap Münhauzenin əhvalatındakı kimi. Əfsanəvi, nağılvari ölkədir axı. Bu məmurun dövlət başçısının qəzəbinə gəlməyinin isə çox, türkün sözü, ilginc səbəbi vardır: bir gün hardasa iclas imiş, dövlət başçısı baxıb ki, baş nazirin müavini pis oturubdur. Pis deyəndə, necə oturubdur - bu haqda bizə heç bir məlumat verilmir, eləcə yazıblar “pis oturduğuna görə”. Ta bu məmur ayaqlarını aralayıb oturub, ya üst-üstə aşırıb, ya çöməltmə imiş, ya təpəsi üstdə dayanıbmış, bizə məlum deyil. *(Diqqətli oxucu bu yerdə müəllifin savadsızlığına gülür: “təpəsi üstdə oturmaq olmur, oturmaq yan hissənin yerə dəyməsi ilə bağlı dayanış formasıdır” - gülsün də, oxucu nədəsə müəllifdən ağıllı olmalı deyilmi?).*

Sözümün canı odur ki, bizdə məmuru pis oturduğuna görə məhv eləmək praktikası hələlik yoxdur. Halbuki, çox lazımdır. Əksər məmurlarımız oturuşunu-duruşunu bilmir. Bunlardan bir-ikisini topa qoyub Ermənistana atsaq, başqalarına dərs olar.

Biz ümumiyyətlə millətin üzünə xoş baxırıq. Qəmlo demişkən, bunların nazıyla çox oynayırıq. Qardaş, belə yaramaz, bu minvalla sabitlik əldən gedər, başqaları bizi qabaqlayar. Misal üçün, Beynəlxalq Bankın şefi vardı, əli milyonlarla oynayırdı, o gün oxuyuram ki, türmədə aclıq çəkir. Vəkili deyir türmənin yeməkləri pisdir, Cahangir müəllim yeyəndə qarnı ağrıyır. Su gündə bir-iki saat verilir, soyuducusu yoxdur və sairə.

A kişi, qoy bir az da azərbaycanlılar kimi yaşasın. Pis nə var burda? O, bankın şefi olanda gerçək azərbaycanlı həyatından xəbərsiz idi, xalqımıza yadlaşıb getmişdi. İndi köklərinə qayıdır. Aclıq, susuzluq, işgəncə görəndən sonra əsl milli oğlan olacaqdır. Beyrək də o vaxt çətinlik çəkdi, əsirlikdə qaldı, ancaq axırda muradına qovuşdu. Beyrək misalı Beynəlxalq Bank sözünə bənzədiyi üçün ağlıma gəldi, əlbəttə, Cahangir müəllim istəsə Dəli Domrul da ola bilər, azadlığa çıxanda Şəkinin Kiş kəndinə körpü çəkər. Eşitdiyimə görə köhnə körpünü sel aparıbdır.

Bir ayrı MTN generalı isə türmədə aclıq aksiyası keçirdir. Görün bunlar necə qarışıqlıq salırlar. Biri yemək tapmır, o biri aclıq edir. Xaricdə respublikamız haqda xaotik rəylər oyatmaq istəyirlər. Düzgün adamsınızsa, ikiniz də bir yol gedin da bə!?

**Yazını yazdığım anda xəbər gəldi ki, özbəklərin lideri ölüb. Cəmi 4 gün idi ölmək xəbəri çıxmışdı... Belə şey olarmı?**



# Ermənistan isteriya və şübhə içində - düşmən mediası nələr yazır...

## Ermənilər üçün aprel müharibəsi bir kabus idi, bitdi, amma qurtarmadı...; Deputat Tevan Poqosyan aprel döyüşlərində məğlubiyyətin günahkarlarının qovulmaqdan əlavə, cəzalanmasını da tələb edir; **Yenokyan:** “Ermənistanın arxasında hansısa planlar müzakirə olunur...”

**Ermənistan mətbuatında hər gün Qarabağdan danışılır. Qarabağ ətrafında baş verənlər barədə fikir bildirən siyasətçilərin, deputatların, politoloqların, qəzet yazarlarının sayı-hesabı yoxdur. Doğrudur, yazmağa və söyləməyə bir şey tapmayanda fantaziyalarını da işə salmağı unutmurlar. Bütün fikirlərdə isə yalnız bu sezilir - xof, isteriya, şübhə...**

Amma hər halda düşmən cəbhəsinin beyinlərindən nələr keçdiyini Azərbaycan oxucularına çatdırmamaq da olmaz.

Ermənistan “Siyasi və beynəlxalq araşdırmalar mərkəzi”nin direktoru Agasi Yenokyan Qarabağ ətrafında son gəlişmələrlə bağlı iragir.am saytına açıqlamalar verib.

**Agasi Yenokyan Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı açarın Rusiyanın əlində olduğunu söyləyib. Buna rəğmən Yenokyan Rusiyanın bu məsələdə mövqeyinin konstruktiv olmadığını söyləyib:** “Azərbaycan və Ermənistan prezidentləri arasında son görüşü Moskva təşkil edib. Yəqin ki, Rusiya ATƏT-in digər həmsədrləri ilə razılaşdırmadan onlara bir sıra təkliflər də verib. Burdan belə çıxır ki, nizamlama prosesi üçün ən böyük potensial elə Rusiyada olmalıdır. Lakin Moskva münaqişəni həll etməkdə maraqlı deyilsə o başqa...”

**Müxbirin Qarabağ problemi ilə bağlı Ermənistanda mövcud olan situasiya və mövqeyi barədə sualına Yenokyan belə cavab verib:**

“ATƏT vasitəçiləri o qədər xeyirxah oldular ki ”Sasna tsrer" qiyamında Ermənistana öz daxili problemləri ilə boğuşmağa imkan verdilər. Qarabağ münaqişəsinə gəlincə, burda söhbət ərazi güzəştlərindən gedir. Hərçənd ki, Ermənistanın əvəzində nə alacağı bilinmir. Dəyişən bircə odur ki, iqtidar ərazi güzəştləri mövzusundan daha qaçmır və bunun birtərəfli olmayacağını bəyan edir. Lakin bununla bağlı adekvatlıq kodu hələ tapılmayıb".

**Yenokyan qondarma “DQR”in müstəqilliyinin tanınması ilə bağlı suala qeyri-müəyyən cavab verib:** “Müzakirələrin getdiyi 20 il ərzində biz ərazilərin təslim edilməsi, qaçqınlar, sülh deyərkən Dağlıq Qarabağ xalqının *(Dağlıq Qarabağın erməni icmasının - red.)* öz müqəddəratını həll etmək hüququ məsələsindən uzaqlaşmışıq. Müqəddəratı həll etmək hüququ barədə müəyyənlik həll olunmayana qədər problemin nizamlanmasından danışmaq olmaz. Digər tərəfdən, statusla bağlı da anlaşılmaz təkliflər gəlir. Bizlər üçün öz müqəddəratını həll etmək hüququ , elə öz statusumuzu müəyyən etmək imkanıdır”.

**Yenokyanın fikrincə, “Sasna tsrer” qiyamı nəticəsində Ermənistan onun üçün təhlükəli sayılan Lavrov planından imtina etməyə macal tapıb:** “Lakin görünür ki, Ermənistanın arxasında hələ də hansısa planlar müzakirə olunur. Mümkündür ki, bu elə həmin Lavrov planı olsun”deyə, Yenokyan açıqlamasında bildirib.

Ermənistanın digər politoloqu, Qafqaz İnstitutunun direktoru Aleksandr İsgəndəryanın fikrincə, aprel hadisələrindən sonra Qarabağ məsələsinin nizamlanmasında aktivlik hələ müşahidə olunmur: “Dördgünlük aprel döyüşlərindən sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri xüsusilə aktiv idilər. Onlar məsələnin həlli üçün bir çox cəhdləri həyata keçirirdilər. Lakin ATƏT-in rayon və torpaqların təslim edilməsi ilə bağlı səslənən təklifləri hər iki tərəfdə böyük panikaya səbəb oldu” deyə, o, jurnalistlərə açıqlamasında bildirib.

Politoloqun fikrincə, hazırda sərhəddə vəziyyət sakit görünməsinə baxmayaraq, sülh həmişə davam edə bilməz: “Gərginliyin azalması üçün siyasi faktorlar və mexanizmlər mövcud deyil. Hər şey mexaniki həyata keçirilir”, deyə, Aleksandr İsgəndəryan qeyd edib.

**Ermənistanın “Miras” Partiyasının parlament fraksiyasının katibi Tevan Poqosyan**ın da ağlı hələ də aprel döyüşlərindədir. O, parlamentdə jurnalistlərlə söhbət zamanı Qarabağda ərazi güzəştlərindən söhbət gedə bilməyəcəyini söyləyib. Poqosyanın fikrincə, aprel döyüşlərindən sonra müvafiq dərslər alınsa da bütün bunlar kifayət etmir.

Erməni deputat bu döyüşlərdə məğlubiyyətin *(Ermənistan tərəfinin -red.)* günahkarlarının qovulmaqdan əlavə, cəzalanmalı olduğunu da qeyd edir: “Erməni ordusu təkcə müdafiəyə deyil, preventiv zərbələr endirməyə də qadirdir”, deyə, erməni deputat “xox gəlməyi ” də unutmayıb.

Xatırladaq ki, Ermənistan silahlılarının Qarabağdakı qruplaşmasının komandanı *(ermənilər onu “DQR”in Müdafiə Ordusunun komandanı adlandırırlar)* Levon Mnatsakanyan da Rusiyanın “Regnum” agentliyinə verdiyi müsahibədə erməni ordusunun apreldə itirdiyi mövqeləri qaytarmağa şansı olacağını söyləmişdi. Lakin necə deyərlər, hürən it dişləmir...

Hər halda erməni mətbuatına göz yetirdiyimiz zaman bir şeyi görə bilərik... Bu hava onların havasıdı... Aprel müharibəsi onlar üçün bir kabus idi, bitdi amma qurtarmadıE Atəşkəs davam edir. Torpaqlarımız hələ düşmən tapdağı altındadır.

Doğma yurdlarımızda səngərlər qazırlar, su kəmərləri çəkirlər, kəndlərimiz bombalanır...onlara nə varEİtirilən, gedən öz torpaqları deyil ki...Tək məqsədləri varEatəşkəs mümkün qədər uzansın...hətta on illərlə... Torpaqlar işğal altında qalmaqda davam etsin, status-kvo olduğu kimi saxlanılsın...

**Lakin bunu artıq edəməyəcəklərini də gözəl bilirlər. Azərbaycan əsgəri aprel döyüşlərində yalnız status-kvonu silkələmədi; həm də və əsasən, erməni cəmiyyətini, bu millətlə bağlı olan hər şeyi silkələdi və sarsıtdı.**

❑ **Vaqif HÜSEYN**



# Ərdoğan Avropa liderləri ilə görüşəcək

**Sentyabrın 3-4-də Çində keçiriləcək G-20 Sammitində Almaniya, Fransa və İtaliya lidеləri Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla qaçqın problemini müzakirə edəcək. Lent.az-ın məlumatına görə, bu barədə Merkel açıqlama verib. O bildirib ki, G-20 Zirvə toplantısında Almaniya, Fransa və İtaliya liderləri Türkiyə prezidenti R.T.Ərdoğanla miqrantlarla bağlı görüş keçirəcək.**

Qeyd edək ki, Türkiyə tərəfindən verilən dünənki açıqlamada, türklərə verilən Avropaya vizasız səyahət vədinə əmək edilməyəcəyi təqdirdə miqrant sövdələşməsinin icra edilməyəcəyi bildirilib.

Merkel və bəzi Avropa ölkələrinin liderləri də buna cavab olaraq Türkiyənin vizasız səyahət hüququnu digər 72 şərti yerinə yetirəcəyi təqdirdə əldə edəcəyini deyirlər.

# ABŞ Rusiyaya qarşı sanksiya siyahısına daha 17 nəfəri əlavə etdi

**Vaşinqton Ukrayna ilə bağlı Rusiyaya qarşı sanksiya siyahısına 17 şəxsi əlavə edib. "RİA Novosti"nin verdiyi xəbərə görə, bu barədə ABŞ Maliyyə Nazirliyinin bəyanatında bildirilir.**

Məlumata görə, siyahıya Krım hökumətinin 8 naziri, həmçinin Federal Təhlükəsizlik Xidmətinin və İstintaq Komitəsinin Krım üzrə idarələrin rəhbərləri daxil edilib.

Siyahıya həmçinin Donetsk və Luqansk separatçı “respublikaları”nın rəhbər şəxsləri və rusiyalı diplomat Georgi Muradov daxil edilib. Bundan başqa, ABŞ-ın Maliyyə Nazirliyi Rusiyanın “Qazprom” holdinqinin bir neçə törəmə şirkətinə qarşı sanksiya tətbiq edib.

## Ürkən və ürkütməyə çalışan işğalçı - aprelin daha bir dərsi




# İrəvanın müharibə xofu, müstəqillik fiaskosu - Sərkisyan Qarabağa son dəfə gəlib...

### Ermənistan 25 ildə nəinki separatçı qurumu dünyaya tanıda bilmədi, üstəlik, öz müstəqilliyini də de-fakto itirdi; Xankəndindəki "ildönümün" ilk dəfə sönük keçirilməsinin əsas motivi - müharibə təlaşı, yaxınlıqdakı Azərbaycan Ordusunun zəhmi...

**Sentyabrın 2-də Dağlıq Qarabağdakı separatçı rejimin öz saxta müstəqilliyini elan eləməsinin 25-ci ildönümü idi. Maraqlıdır ki, ildönüm mərasimi bu dəfə təmtəraqsız, dar çərçivədə və xaricdən erməni lobbisinin pulu hesabına kirayələnmiş bəzi "ali qonaqlar"ın iştirakı ilə keçirilib.**

Bunun bir səbəbi Azərbaycan tərəfinin beynəlxalq səviyyədə tədbirə qarşı apardığı uğurlu ön diplomatik hazırlıq işidirsə, başqa səbəb əlbəttə ki, düşmən ölkənin hakimiyyəti də daxil, siyasi-ictimai kəsimində aprel fiaskosundan sonra hökm sürən ruh düşkünlüyü, bədbin ovqat, daha dəqiqi, yeni müharibə xofudur.

***

Erməni mənbələrinin yazdığına görə, "yubiley" töreninin zəif keçirilməsi bilavasitə rəsmi İrəvanın iradəsi ilə olub. Məsələn, "Qraparak" qəzeti qeyd edir ki, tədbiri ehtiyatlı formada keçirmək qərarı "apreldəki 4 günlük müharibə və yüz erməni hərbçisinin ölümü" (əslində itkilər iki dəfə çoxdur - red.) ilə bağlıdır. "Əgər öncəki illər bayram tədbirlərində Xankəndində Ermənistandan hakimiyyətini təmsil edən böyük nümayəndə heyəti iştirak edirdisə, bu dəfə belə qərara alınıb ki, yalnız parlament fraksiyalarının rəhbərləri və ənənəvi olaraq prezident Serj Sərkisyan ora getsin".

Elə də olub. İşğal altındakı Dağlıq Qarabağ bölgəsinə bu dəfə nə Ermənistan parlamentinin spikeri, nə də ölkənin baş naziri gedib. Yalnız Serj Sərkisyan yollanıb. Bu, ən əvvəl Azərbaycanın mənəvi qələbəsidir ki, düşmən on illərdir özününkü saydığı, guya "azad etdiyi" ərazilərdə ciddi şəkildə təlaşlanmağa, həmin ərazilərin ona məxsus olmadığını nəhayət, dərk etməyə başlayıb; nə vaxtsa üstündə durduğu torpaqların sahibinin gələcəyini anlamağa başlayıb. Qiymətli irəliləyişdir.

O ki qaldı Xocalı canisi Serj Sərkisyanın öz ənənəsini pozmayıb Xankəndinə getməsinə, bunun da izahı yox deyil - məqsəd apreldən sonra səksəkə içində yaşayan separatçı rejimin rəhbərliyi və təbəələrinə moral (ruh) vermək, onların ovqatını qaldırmaqdır. Hərgah, bu dəqiqə Sərkisyanın özünə də ürək-dirək verən, "qorxma" deyən lazımdır.

Yəni məşhur deyimi bir azca dəyişsək, işğalçı tərəf həm qorxur, həm də guya Azərbaycanı qorxutmağa çalışır. Bu paradoksu apreldəki 4 günlük müharibənin düşmən üçün əsas dərsi də adlandırmaq olar. Hər necə olmasa, aprelə kimi işğalçı yalnız qorxutmağa çalışır, özü və ordusu haqda məğlubedilməzlik mifi yaratmağa səy edirdi. Bu mifin necə dağıldığını artıq bütün dünya əyani şəkildə və artıqlaması ilə gördü. Dünya onu da gördü ki, müharibə hələ bitməyib və konfliktin sırf "qalib" İrəvanın şərtləri əsasında həlli mümkün olmayacaq.

***

Paradoks həm də ondadır ki, "Artsax"ın 25 illik müstəqilliyindən dəm vuran, illərdir bir əski parçasını onun bayrağı kimi reklam etməyə çalışan Ermənistanın özü indiyədək nə bu saxta qurumu tanımağa, nə də onu özünə rəsmən birləşdirməyə cürət edib. Ermənistan üçün acı gerçək, 25 ilin ağır yekunu həmçinin bundan ibarətdir ki, o, nəinki separatçı qurumun "müstəqilliyini" dünyaya tanıda bilib, üstəlik, öz müstəqilliyini de-fakto itirib - indi Ermənistan çar dönəmindəki kimi, Rusiyanın bir ucqar, həm də səfalət içində olan quberniyası kimi qəbul edilir. İşğalçı üçün miskin bir durum...

Bundan əlavə, 25 ildə Qarabağdakı qondarma rejim heç sülh danışıqlarının müstəqil tərəfi ola bilməyib. İllərdir İrəvan onu məhz bu statusda nizamlama prosesinə dürtməyə çalışsa da, nəticə yoxdur, olmayacaq. Niyə? Çünki hətta ermənipərəst mövqeyi ilə seçilən həmsədr dövlətlər də yaxşı bilir ki, Dağlıq Qarabağ konflikti Azərbaycanla uydurma "DQR" arasında, Azərbaycan xalqı ilə bir ovuc Qarabağ ermənisi arasında olan münaqişə deyil, Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından doğan qanlı münaqişədir - bölgə üçün bütün ağır nəticələri ilə birgə.

BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair məlum qətnamələri, digər mötəbər beynəlxalq təşkilatların analoji qərar və qətnamələri də elə bunu deyir. Bu isə bir daha məsələdə beynəlxalq hüququn hələ ki öz qüvvəsini saxladığını, beynəlxalq hüququn, BMT Nizamnaməsinin Azərbaycana öz ərazilərini son anda hərb yolu ilə azad eləmək haqqı verdiyini təsdiq edir.

Erməni tərəfini ən çox narahat edən, təlaşlandıran da belə bir sərt reallıqdır ki, Bakı beynəlxalq hüquqa əsaslanaraq istənilən an öz torpaqlarında antiterror əməliyyatı aparmaq hüququna malikdir, hansı ki, bu ilin aprelində kiçik miqyasda da olsa özünü göstərib və Rusiyanın müdaxiləsi olmasaydı, Azərbaycan ordusu qısa zamanda ən azı bir rayonu işğalçılardan təmizləyəcəkdi...

***

Saxta "müstəqilliyin" ilk dəfə belə qorxaq şəkildə, dar çərçivədə qeyd edilməsinin, xaricdən az sayda qonağın çağırılmasının baş səbəbi zatən, bu - vəziyyətin həssaslığı, Azərbaycanı qıcıqlandırmamaq zərurəti, cəmi bir neçə kilometrliyindəki Azərbaycan Ordusunun zəhmi, qisas ovqatı...

**Nə deyək, haqlı əndişədir. Çünki müharibə hələ bitməyib. Bu həqiqəti indi kim bilməsə də, ermənilər hamıdan yaxşı bilir və ciddiyə alır. Odur ki, bu, Serj Sərkisyanın Xankəndinə son "yubiley" səfəri də ola bilər. Qoy, sonuncu dəfə çilingər işlədiyi Azərbaycan şəhərinə - Xankəndinə tamaşa eləsin, arzularla yaşasın. Rus demiş, "Arzu etmək - ziyanlı məşğuliyyət deyil"...**

❑ **Siyasət şöbəsi**

# Diktaturanın qapalı dairəsi



**Xalid KAZIMLI**

**Əvvəllər hansısa ölkədə bir diktator devriləndə, öləndə, öldürüləndə bunu həmin ölkənin xalqı üçün xoş hadisə hesab edərdik, deyərdik, yaxşı oldu, indi yazıq xalq ağ günə çıxar.**

Diktatordan qurtulandan sonra ağ günə çıxanlar vardı. Məsələn, bütün Avropanın üz qarasına, baş töhmətinə çevrilən, qoca qitədə qətiyyən sevilməyən Serbiya dövləti məhz prezident Slobodan Miloşeviçin hakimiyyətdən uzaqlaşdırılmasından sonra ağ günə çıxdı. Ən azı serb xalqının "qaniçən", "qadın zorlayan" reputasiyası tədricən dəyişməyə başladı, ölkədə dürüst seçkilər keçirildi, qanunçuluq bərqərar olundu, azadlıqlar təmin edildi.

Peru xalqı da Fuximoridən qurtulduqdan sonra azad seçkinin nə olduğunu bildi, korrupsiya bataqlığından qurtuldu.

Ancaq gün gəldi ki, bir diktatorun devrilməsi, ölməsi həmin dövlətin faciələrinin başlanğıcı oldu.

Səddam Hüseynin devrilməsinə bütün dünya sevinmişdi. Hamı düşünürdü ki, İraq xalqı xoşbəxt olacaq, qanlı diktatorun insanları qırıb-çatmasına son qoyulacaq. Ancaq tərsinə oldu. Hazırda İraqda hər gün onlarla insan qətlə yetirilir. Ölkə terrorizm yuvasına çevrilib. Vətəndaş müharibəsi səngimək bilmir. Üstəlik, vahid İraq dövləti bu gün ən azı üç yerə parçalanıb - bir tərəfdə İŞİD, o biri tərəfdə kürd peşmərgəsi özünə dövlət qurub. Xalq ortalıqda əsir-yesirdir.

Liviya xalqı da öz qırx illik diktatorunu - Müəmmər Qəzzafini devirəndən, rüsvay edərək öldürəndən sonra düşünülürdü ki, indən belə Liviyada hər şey yaxşı olacaq. Hər şey daha da pis oldu. Ölkədə tayfalararası qarşıdurma başladı, İŞİD əl-ayaq açdı, xalqın rifahı pisləşdi.

Misir xalqı 30 ildən artıq müddətdə dövləti idarə edən Hüsnü Mübarəki devirərkən hər şeyin yaxşılığa doğru olduğuna inanırdı. Ancaq bir-iki il içində verilən çoxsaylı qurbanların heç nəyə xeyri olmadı. Tezliklə bir diktator generalın yerini başqa bir general diktator tutdu, xalqın vəziyyəti pisliyə doğru dəyişdi. Üstəlik, indi türmələr siyasi dustaqlarla dolub-daşır.

Dünya miqyaslı devrim kotanının gavahını Suriyada qayaya ilişdi. Bəşər Əsəd bərk diktator çıxdı, üstünə beş yerdən cumanlara sərt təpki verdi. Nəticədə ölkədə qan su yerinə axdı, ölkə əhalisinin böyük əksəriyyəti qaçqına dönüb xarici ölkələrə sığındı. Bu gün Suriya adlı dövlətin yerində bir-biri ilə vuruşan 5 "dövlət" var. Bəşər Əsəd vaxtında devrilsəydi də, elə olacaqdı.

İndi Özbəkistanda 25 illik diktator İslam Kərimovun ölümü ilə bağlı ölkədə vəziyyətin yaxşılaşacağını düşünənlər azdır. Artıq hamı təcrübədən çıxış edir. Təcrübə göstərir ki, demokratik mexanizmlərin, institutların, prinsiplərin və atmosferin bərqərar olmadığı ölkələrdə bir diktatorun ali postdn (hətta həyatdan) getməsi o ölkədə vəziyyəti dəyişə bilməz. Mütləq bir diktatorun yerini başqası tutacaq və böyük ehtimalla sələfindən daha pis, daha sərt olacaq.

Bu baxımdan Kərimovdan sonrakı Özbəkistandan gələn pis xəbərləri tez-tez oxumalı olacağıq. İntriqalar, tutqular, qiyamlar, hərc-mərcliklər bir-birini əvəz edəcək, xalqın durumu ağırlaşacaq. Bir neçə ildən sonra hansısa yeni diktator hakimiyyətdə möhkəmlənəndən sonra məlum olacaq ki, hazırkı vəziyyət İslam Kərimovun dövründə olduğundan pisdir.

Zatən, Özbəkistanda hər dörd nəfərdən birinin təhlükəsizlik orqanının gizli əməkdaşı olduğu barədə informasiyalar vardı. O ölkəyə gedib-gələnlər bildirirdilər ki, yüz minlərlə (bəlkə də milyonlarla) insan dövlət orqanlarına çuğulluq etməklə məşğuldur. Hazırda hakimiyyətə iddia edən üç qüdrətli şəxslərdən biri məhz ölkəni başdan-başa xəbərçilər şəbəkəsinə çevirmiş təhlükəsizlik xidmətini şefi Rüstəm İnoyatovdur.

İndi təsəvvür etmək olar ki, baş nazirlə onun arasında hansı qırğınlar gedəcək.

Beləcə, qəribə bir qapalı dairə alınır: xalqın azadlığa qovuşması üçün diktator getməlidir, diktator gedəndə xaos olur, xaos olanda isə hakimiyyətə yeni bir diktator gəlir.

Bəs mümkündürmü ki, diktatordan sonra xaos olanda hakimiyyətə diktator gəlməsin, azad seçki olsun, hakimiyyət demokratik qüvvələrin əlinə keçsin.

Mümkün deyil. Bu tipli ölkələrdə xaosu mafioz-odioz qüvvələr böyük pullar, administrativ resurslar hesabına idarə edirlər və onlar dinc hakimiyyət dəyişikliyi mexanizminin bərqərar olmasına imkan vermirlər.

**Özbəkistandan gələn ilkin xəbərlər göstərir ki, orada da fərqli bir durum gözləməyə dəyməz.**

YENİ MÜSAVAT
N 195 (6516) 3 sentyabr 2016

**Azərbaycan Ümumdünya Ticarət Təşkilatına (ÜTT) ölkədə kənd təsərrüfatı dəstək məqsədilə 1 milyard dollar ayrılmasını, işğal altında olan torpaqların azad edilməsindən sonra isə həmin ərazilərdə kənd təsərrüfatının bərpası üçün əlavə 1 milyard dollar ayrılmasını təklif edib. Bunu "Report"a açıqlamasında xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev bildirib. Onun sözlərinə görə, danışıqların növbəti mərhələsinin keçirilməsi müvafiq agentliyin onlara nə vaxt cavab verməsindən asılı olacaq, amma çox güman, növbəti danışıqlar gələn ilin birinci yarısından tez keçirilməyəcək.**

# Azərbaycanın ÜTT şərti - 2 milyard dollar...

## Ekspertlər quruma üzvlüyün baş tutmamasının səbəblərini sadalayırlar, yubanma nə ilə bağlıdır?

**M.Məmmədquliyev digər ciddi məsələnin kənd təsərrüfatı üzrə çoxtərəfli danışıqlar olduğunu vurğulayıb:** "Biz onlara yeni, 2013-2015-ci illəri əhatə edən cədvəl təqdim etmişik. Cədvəl üzrə xüsusi müzakirələr olmayıb. Əsas məsələ bizim yerli kənd təsərrüfatına dəstək üzrə təkliflərimizlə bağlıdır. ÜTT-nin sənədlərinə əsasən hesab edirik ki, belə desək, "sarı səbət"dən (amber box) istifadə etmək hüququna malikik. Hesab edirik ki, ÜDM-in 10 faizini kənd təsərrüfatını maliyyələşdirmək üçün ayıra bilərik. Amma ÜTT bu fikirlə razı deyil, onlar bu göstəricinin təxminən 5 faiz olmasını istəyir. Biz indi onlardan ölkədə kənd təsərrüfatı dəstək məqsədilə 1 milyard dollar ayrılmasını, işğal altında olan torpaqların azad edilməsindən sonra isə həmin ərazilərdə kənd təsərrüfatının bərpası üçün əlavə 1 milyard dollar ayrılmasını istəyirik. Hələlik, ÜTT 5 faiz verməyə hazır olduqlarını bildiriblər, amma baxacağıq" deyə, nazir müavini bildirib.

Daha sonra Mahmud Məmmədquliyev ÜTT-dən 1 milyard dollar istəmək haqqında gözlənilməz bəyanatının mahiyyətini izah etməyi qərara alıb. Bu qəribə bəyanat bir neçə gün əvvəl səslənib və bir çox suallar doğurub. XİN-in mətbuat katibi Hikmət Hacıyev açıqlama verib və bildirib ki, Bakı aqrar-sənaye kompleksinin subsidiyalaşdırılması üçün ÜTT-dən hər il 2 milyard dollar almaq hüququ əldə etmək niyyətindədir. Hazırda ÜTT-ə daxil olmaq çərçivəsində bu məsələ ilə bağlı danışıqlar aparılır. H.Hacıyevin sözlərinə görə, Azərbaycan ÜTT-ə daxil olduqdan sonra aqrar sektor üçün 1 milyard dollar və Ermənistanın işğal etdiyi ərazilərin Azərbaycanın yurisdiksiyasına qaytarılmasından sonra daha 1 milyard dollar almaq istəyir. Xatırladaq ki, Azərbaycanın ÜTT-ə daxil olması haqqında danışıqlar 1997-ci ildən aparılır və hiss olunan nəticələr verməyib.("Turan").

**Ekspert Vüqar Bayramov** isə musavat.com-a bildirib ki, danışıqların sürətlənməsi məqsədəuyğundur: "Bu, postneft dövrü üçün bu çox vacibdir. Nəzərə alsaq ki, Qazaxıstan da yaxınlarda ÜTT-yə üzv olub. Qazaxıstanın bu quruma üzv olması birbaşa neftin dünya bazarında qiymətinin aşağı düşməsi ilə bağlıdır. Azərbaycan da bu danışıqların sürətləndirilməsi istiqamətində addımlar atmalıdır. Hazırda razılaşdırıla bilməyən iki mühüm məsələ var. Biri Azərbaycanın statusu ilə bağlıdır. Azərbaycan ÜTT-yə inkişaf etməkdə olan ölkə kimi daxil olmaq istəyir, ÜTT isə inkişaf etmiş ölkə statusunu təklif edir. İkinci məsələ aqrar sektorda subsidiya ilə bağlıdır. Azərbaycan on faizlik subsidiya diyarı istəyir. ÜTT isə 5 faiz verir. Bütövlükdə bu iki məsələ ilə bağlı razılığın əldə edilməməsi nəticə etibarı ilə ÜTT-yə daxil olmanı yubadır".




Ekspertin sözlərinə görə, əvvəlki illərdə ÜTT-yə üzvlüyün ləngiməsi daha çox subyektiv faktorlarla bağlı idisə, indi vəziyyət fərqlidir: "Əvvəlki illərdə bir sıra dövlət qurumları ÜTT-yə üzv olmaqda maraqlı deyildilər, bu, daha çox müşahidə olunurdu. İndi isə gömrükdəki liberallaşmadan sonra subyektiv faktorlar xeyli dərəcədə zəifləyib. Faktorların zəiflədiyini nəzərə alsaq, Azərbaycan ÜTT-yə üzvlük prosesini sürətləndirməlidir. Nəticə etibarı ilə ÜTT-yə üzvlük birmənalı şəkildə Azərbaycanın indiki dövründə, qeyri-neft sektorunun inkişafı ilə bağlı prioritet istiqamətlərinə uyğundur. Azərbaycanın ÜTT-yə üzv olması xarici investisiyaların cəlb edilməsi baxımından vacibdir. Bu razılığın əldə edilməsi, qısa zamanda Azərbaycanın bu təşkilata üzv olmasını reallaşdırılması məqsədəuyğundur".

Qeyd edək ki, ekspertlərin fikrincə, ÜTT-yə üzvlük ölkə iqtisadiyyatı üçün neftin qiymətinin aşağı düşməsi fonunda daha vacibdir. Bildirilir ki, Azərbaycan ÜTT-yə üzvlüyünü gecikdirməklə çox böyük risk altına girir. Gecikmə ölkəni gələcəkdə əsassız tələblərlə üz-üz qoya bilər. Ancaq ortalıqda siyasi iradə olsa, Azərbaycanın qısa zamanda təşkilata üzv olması mümkündür. Ekspert Fikrət Yusifovun sözlərinə görə, hazırda iqtisadiyyatın neftdən asılılığı kifayət qədər yüksəkdir. Real sektor isə hələ ki, lazımı səviyyədə inkişaf etməyib. Onun sözlərinə görə, Azərbaycanın ÜTT-yə üzvlük məsələsi məhz real sektorun məhsullarının xarici bazarlara kifayət qədər böyük həcmlərdə çıxarılmasına nail olunduqdan sonra, yəni ölkə iqtisadiyyatının neftdən asılılığı optimal həddə endirildikdən sonra mümkündür.

**Xatırladaq ki, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyü ilə bağlı müzakirələr ötən ilin ortalarında dayandırılsa da, iqtisadi vəziyyət səbəbindən məsələ yenidən aktuallaşıb. Ötən il dayandırılan müzakirələrin sonucu olaraq bildirilirdi ki, bununla bağlı ikitərəfli və çoxtərəfli danışıqların növbəti raundu 2016-cı ilin ortalarından əvvəl baş tutmayacaq. Bu ilin fevralında isə Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerini bildirib ki, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü səmərəli addım olar. O, qeyd edib ki, ÜTT-yə üzvlük daha dərin iqtisadi inteqrasiyaya gətirib çıxaran bir addımdır.**

❑ **Röya RƏFİYEVA**

# Neftin qiymət proqnozları: hamı 50 dollar deyir

## Hasilat azaldılmır, gələn il də qiymətlər yüksəlməyəcək



**Neftin qiyməti ilə bağlı proqnozlar fərqlidir. Bəzi ekspertlər neftin qiymətinin balansı tapdığını vurğulasalar da, bəziləri əks fikirdədirlər. Neftin yaxın müddətdə qiymətinin artacağı barədə fikirlər də maraq doğurur.**

**BP-nin prezidenti Robert Dadli** 2017-ci ildə neftin 1 barrelinin qiyməti 50 dollar səviyyəsində olacağını vurğulayıb. "Hesab edirəm ki, neftin qiyməti balansı tapıb. Mənim proqnozuma əsasən, gələn il neftin 1 barrelinin qiyməti 50 dollar ətrafında olacaq",- deyə R.Dadli qeyd edib. (APA).

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** isə qeyd edib ki, Əlcəzairdə neft hasilatının dondurulması ilə bağlı keçiriləcək forum birjalara informativ baxımdan müsbət təsir edir. Ekspert neftin yaxın müddətdə bahalaşacağını bildirib: "Bu ilin əvvəlində yekun anlaşma olmasa da, hasilatın dondurulması ilə bağlı keçirilən ilk görüş nəticəsində neftin qiyməti dünya bazarında 30 faiz artdı. Hazırda bu məsələ yenidən gündəmə gəlib və neftin qiyməti 50 dollar ətrafında cərəyan edir. Yəni bu, birjalara informativ baxımdan müsbət təsir edir. Hesab edirəm ki, yaxın 1 aydan da artıq dövrdə neftin qiyməti 50-55 dollar diapazonunda dəyişəcək. Yəni neftin qiyməti artıma doğru gedəcək. Neft hasilatçısı olan ölkələrin yüksək vəzifəli rəsmilərinin açıqlamaları da bu mənada birjalara öz təsirini göstərəcək. Söhbət 50-55 civarında gözlənilən korreksiyalardan gedir. Ancaq bu, o demək deyil ki, bazar iştirakçılarının əhval-ruhiyyəsini yaxşılaşdıracaq bir şərait yaranacaq. Güman etmirəm ki, Əlcəzairdə hasilatın dondurulması ilə bağlı yeni qərar olacaq. Çünki bazarda 50-dən yuxarı qiymət formalaşırsa, bu, indiki şəraitdə həm hasilatçılar, həm də istehlakçılar üçün komfortlu bir qiymətdir". Qeyd edək ki, sentyabrın 26-28-də Əlcəzairdə neft hasilatının "dondurulması" ilə bağlı beynəlxalq enerji forumu keçiriləcək.

**Ekspert Elşad Məmmədov** musavat.com-a bildirib ki, yaxın gələcəkdə neftin qiymətinə təsir edəcək bir neçə amil var: "Azərbaycan iqtisadiyyatı üçün dünya bazarlarında neftin qiymətinin hansı səviyyədə olmasının strateji əhəmiyyət kəsb etdiyini nəzərə aldıqda, neft qiymətlərinin perspektivdə hansı dinamika ilə inkişaf edəcəyinin dəqiq proqnozlaşdırılması ölkə iqtisadiyyatı ilə bağlı idarəetmə qərarlarının qəbul edilməsi üçün son dərəcədə vacibdir. Hazırkı mövcud iqtisadi problemlərin bir hissəsi də iqtisadi blokun bu istiqamətdə son illərdə proqnozlaşdırma siyasətindəki nöqsanlarla bağlıdır. Bunları nəzərə alaraq, neft qiymətlərinin dünya bazarında gələcək dinamikasına təsir edən amillər təhlil edilməlidir. Fikrimcə, hazırda neftin qiymətinin formalaşdırılmasına təsir edən əsas amilləri beş hissəyə qruplaşdırmaq olar. Birinci, geosiyasi amillərdir. Qərb-Rusiya münasibətlərinin kəskinləşməsi fonunda Qərbin sınaqdan keçmiş "silahlarından" biri məhz neft qiymətlərinin endirilməsi siyasətidir. Hazırki Rusiya hakimiyyətinin inadkarlığını nəzərə aldıqda bu siyasətin hələ uzun müddət davam edəcəyini proqnozlaşdırmaq olar".

**Müsahibimiz həmçinin texnoloji amillərdən də danışıb**: "İkinci amil texnoloji amildir. Neft hasilatında inqilabi sayıla biləcək şişt texnologiyalarının tətbiqi dünya neft bazarının, o cümlədən neft qiymətlərinin formalaşmasına artıq etdiyi və gələcəkdə edəcəyi təsir o qədər böyükdür ki, hesab edirəm ki, neft erasının, neftlə bağlı geosiyasi və iqtisadi məsələlərə dünyada tamamilə yeni rakursdan yanaşmanın biz yaxın gələcəkdə şahidi olacağıq. Hesab edirəm ki, bu texnoloji sıçrayış yaxın illərdə neftin qiymətinin kəskin şəkildə artması məsələsinə ciddi şəkildə mane olacaq. Çünki hər dəfə neft qiymətlərinin nisbətən artması şişt yataqlarının işə salınmasını rentabellik səviyyəsinə çatdıraraq, hasilatın artmasına və bazarda neft təklifinin artmasına səbəb olacaq".

**Üçüncü amil isə tələbin azalmasıdır.** "Dünya iqtisadiyyatında, o cümlədən, dünya iqtisadiyyatının aparıcı qüvvələri olan Amerika və Çin iqtisadiyyatında müşahidə edilən artım tempinin zəifləməsi neftə olan tələbatın yaxın zamanda kəskin artımının gözlənilməməsini bildirməyə əsas verir" deyə, E.Məmmədov vurğulayıb. O, həmçinin bildirib ki, ölkələrin hasilatın azalmasında maraqlı olmaması dördüncü amildir: "Aparıcı neft hasilatçıları ölkələri olan Rusiya və Səudiyyə Ərəbistanı neft hasilatının azaldılmasında maraqlı görünmürlər. Bunu həmin ölkələrin rəsmilərinin bəyanatlarından açıq şəkildə müşahidə etmək mümkündür".

**Ekspert İran amilini beşinci amil hesab edir:** "Uzun müddət sanksiyalara məruz qalmış İran iqtisadiyyatı üçün dünya bazarlarına daha çox neft təklif etmək zəruridir. İranın neft bazarında mühüm rol oynadığını nəzərə aldıqda, bu amilin neft qiymətlərinin artmasına ciddi şəkildə mane olacağını söyləməyə əsas verir. Bütün bu neft qiymətlərinin dünya bazarında formalaşmasına fundamental təsir edən amilləri təhlil edərək, bildirmək olar ki, dünya siyasətində və dünya iqtisadiyyatında hər hansı fövqəladə hadisə baş verməsə, yaxın illərdə neft qiymətlərinin ciddi şəkildə artacağını proqnozlaşdırmaq mümkün deyil".

❑ **RÖYA**

# Müavini Cahangir Hacıyevin üzünə durdu

## Emil Mustafayev: "Qanun önəmli idi, ancaq rəhbərliyin göstərişinə əməl etmək məcburiyyətində idik"



**Sentyabrın 2-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin həbsdə olan sabiq sədri Cahangir Hacıyev və digər 7 nəfərin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində şahid kimi Cahangir Hacıyevin sürücüsü, keçmiş müavini və digərləri ifadə verib.**

Məhkəmədə ilk ifadə verən **şahid Kəmilə Hüseynova** olub.

O, təqsirləndirilənlərdən Bakı Fındıq Emalı Zavodunun direktoru olmuş Azad Cavadovu tanıdığını və həyat yoldaşının uşaqlıq dostu olduğunu bildirib. "2011-ci ildə yoldaşım dedi ki, get banka sənədlərə qol çək. Nəyə qol çəkdiyimi bilmirəm. Mən ifadə verməyə çağırılanda nəyə qol çəkdiyimi bildim" - deyə, o bildirib. Prokuror bildirib ki, K.Hüseynovanın adına 757 min 500 manat kredit götürülüb. Heç bir məbləğ də ödənilməyib. Prokuror həmin kredit üzrə 666 min manat faiz gəldiyini açıqlayıb.

K.Hüseynovanın yoldaşı İbrahim Hüseynov da şahid qismində ifadə verib.

**O, Ukraynada yaşadığını və Azərbaycana gələndə Azad Cavadovla görüşdüyünü deyib:** "Bakıya məzuniyyətə gələndə Azad Cavadov sənədlərə qol çəkməyimi istədi. Kömək lazım idi. Mən də yoldaşımdan xahiş etdim".

Cahangir Hacıyevin sürücüsü, adına milyonlarla kredit götürülən Aydın Mehdiyev də ifadə verib.

O deyib ki, 1997-ci ildən 2008-ci ilə qədər Cahangir Hacıyevin sürücüsü işləyib: "Mənə "Mərkəz" filialının rəhbəri Anar Sultanov zəng etdi ki, gəl sənədlərə qol çək. Mən də Cahangir müəllimdən soruşdum. Cahangir müəllim dedi ki, layihələrlə bağlıdır, imzala. Mən də onun dediyini etdim".

Prokurorun suallarını cavablandıran şahid deyib ki, istintaq vaxtı məlum olub ki, onun adına 11 milyon 928 min dollar kredit götürülüb. Sürücü həmin pulların hara xərcləndiyini bilmədiyini söyləyib.

Prokuror qeyd edib ki, 2009-cu ilin yanvar ayından 2013-cü ilə kimi onun adına üç ədəd plastik kart götürülüb. Həmin kartlarda 18 milyon avro, 32 milyon dollar, 10 milyon manat pul olub.

Şahid həmin kartlardan xəbərinin olmadığını, indiyə kimi bir dəfə sənədlərə qol çəkdiyini deyib.

F.Mehdiyev bildirib ki, onun adına götürülən kreditlərin 80 fazi ödənilib.

C.Hacıyev çıxış edərək bildirib ki, kredilər sürücüsünə onun göstərişi ilə verilib və kreditlər layihələrə xərclənib. C.Hacıyev əlavə edib ki, bütün ödəmələr və kreditlərin sərf olunduğu yerlər Vergilər Nazirliyin açdığı cinayət işində var və həmin cinayət işinə xitam verilib. Sabiq bankir həmin qərarın məhkəməyə təqdim olunmasını istəyib.





Növbəti şahid isə hazırda Beynəlxalq Bankda İdarə Heyəti sədrinin müaşviri vəzifəsində çalışan Emil Mustafayev olub. O, 1994-cü ildən bankda müxtəlif vəzifələrdə çalışıb. Cahangir Hacıyevin rəhbərliyi dönəmində isə onun müavini olub. Müavin ittihamda yer alan 157 kredit və VİP kreditlərlə bağlı bildirib ki, həmin kreditlər C.Hacıyevin göstərişi ilə verilib. O, bildirib ki, kreditlərin verilməsi qanunsuz olub və bununla bağlı Cahangir Hacıyev işdən çıxarıldıqdan sonra Daxili İşlər Nazirliyinə rəsmi müraciət edib.

**Vəkillərin suallarını cavablandıran E.Mustafayev niyə C.Hacıyev həbs ediləndən sonra DİN-ə müraciət etməsini belə izah edib:** "Rəhbərlik belə göstəriş verirdi".

**Vəkil:** "Rəhbərliyin göstərişi önəmli idi, yoxsa qanun?"

**E.Mustafayev:** "Qanun önəmli idi. Ancaq rəhbərliyin göstərişinə əməl etmək məcburiyyətində idik. Bu cür göstərişlərə əməl etmədiyinə görə filial müdirlərindən biri Cəlil Daşdəmirov işdən çıxarılıb".

**E.Mustafayev onu da əlavə edib ki, VİP kreditlər C.Hacıyevin özünə, ailə üzvlərinə və yaxınlarına verilib:** "Bu cür kreditlər əslində İdarə Heyətində təmsil olunan şəxslərə və ya yaxınlarına verilərkən bankın Müşahidə Şurasının yekdil qərarı ilə olmalı idi. Ancaq bu barədə həmin qərarlar olmayıb. Digər iri həcmli kreditlər də təminatla verilməli olsa da, Cahangir Hacıyevin göstərişi ilə təminatsız verilib. Həmin kreditlərin məqsədi barədə bizə məlumat verilməyib. Göstərişə əsasən yalnız rəsmiləşdirilib və filiallar üzrə göndərilib".

Prokuror deyib ki, ayrılan kreditlərin Dubay, Albaniya və digər ölkələrdə olan layihələrə xərclənməsi ilə bağlı ifadələr var. E.Rüstəmov cavabında deyib ki, həmin şirkətlərin Beynəxlaq Bankda girov təminatlı kreditləri olub.

**Prokuror:** "Əgər həmin şirkətlərə kredit ayrılıbsa, niyə fiziki şəxslərin adına plastik kartlar açılaraq şirkətlərə həmin kartlardan köçürülüb?"

**C.Hacıyev:** "Həmin şirkətlərə 200 milyon dollarlıq vəsait ayrılmışdı. Kartlar vasitəsi ilə göndərilən pullar isə səhmlərin və lazımi avadanlıqların nəğd şəkildə alınmasına sərf edilib".

**Prokuror:** "Bunu nə ilə sübut edə bilərsiniz?"

**C.Hacıyev:** "Vergilər Nazirliyinin apardığı yoxlamalarla..."

**Prokuror:** "Əgər həmin layihələr gəlirli idisə, niyə borclar bağlanmırdı?"

**C.Hacıyev:** "Həmin kreditlərin bir hissəsi bağlanırdı".

**Prokuror:** "Bağlanırdı. Amma başqa kreditlərin hesabına bağlanırdı".

**C.Hacıyev:** "Sizin hesabınıza bağlanmayacaqdı ki..."



# Maliyyə Nazirliyindən həbsdəki bankirə cavab: "Səfehləmə..."

## "Törətdiyi cinayətləri siyasiləşdirmək fəndlərindən başqa bir şey deyil"

**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan Beynəlxalq Bankına külli miqdarda ziyan vurulması faktı ilə əlaqədar bankın İdarə Heyətinin sabiq sədri və onunla birlikdə təqsirləndirilən şəxslərin işi üzrə keçirilən iclaslarda Maliyyə Nazirliyinin rəhbər şəxsləri haqqında deyilənlərə münasibət bildirməsi üçün "APA-Economics" nazirliyin mətbuat katibi Mayis Piriyevə müraciət edib.**

Bankın İdarə Heyətinin sabiq sədrinin keçirilən məhkəmə iclaslarında Maliyyə Nazirliyinin rəhbərliyinin ünvanına səsləndirdiyi ittihamlarla əlaqədar nazirliyin mətbuat katibi deyib ki, bir qayda olaraq qurum səfehləmələrə münasibət bildirmir və bu tip açıqlamaların səviyyəsi hər hansı bir ciddi reaksiya da tələb etmir.

"Yeganə olaraq qeyd edə bilərik ki, müttəhim kürsüsündə əyləşən bankın sabiq rəhbərinin həqiqəti əks etdirməyən və hər hansı fakta söykənməyən boğazdan yuxarı "açıqlamaları" törətdiyi cinayətləri siyasiləşdirmək, ictimaiyyətin diqqətini törətdiyi və bu gün məhkəmə predmeti olan əməllərindən yayındırmaq və mühakiməyə aidiyyəti olmayan məsələlərə yönəltmək məqsədi ilə istifadə edilən ucuz fəndlərdən başqa bir şey deyil. Həmin uğursuz fəndlər və manevrlər də nəticə etibarı ilə məhz özünü ifşaedici xarakter daşıyır. Belə ki, həmin şəxsin məhkəmə iclasında etiraf etdiyi kimi, qaytarılmayan kreditlərin ayrılması bilavasitə onun şəxsi qərarları və tapşırıqları əsasında həyata keçirilmişdir. Bu zaman Müşahidə Şurasının müəyyən etdiyi kredit riskləri üzrə limitlər kobud şəkildə pozulmuşdur (limitlər aşdığı təqdirdə Müşahidə Şurasının razılığı olmalı idi). Bir çox hallarda isə kreditlər bankın İdarə Heyətinin sabiq sədrinin ayrı-ayrı xarici ölkələrdə yaradılmış və nəticə etibarı ilə sahibliyi ona məxsus olan müxtəlif ofşor şirkətlərə (Lüksemburqun adını o təsadüfən çəkməyib) ötürülərək banka heç bir fayda gətirməyən layihələrin həyata keçirilməsinə yönəldilmiş və ya nağdlaşdırılaraq mənimsənilmişdir", - deyə açıqlamada qeyd olunub.

Maliyyə Nazirliyinin rəsmisi bildirib ki, 2009-cu ilin oktyabr ayından 2015-ci ilin mart ayınadək Müşahidə Şurasının qərarlarına zidd olaraq 1,5 mln. manat limitindən yuxarı məbləğlərdə hüquqi və fiziki şəxslərə ümumilikdə 1,3 mlrd. manat, 1,4 mlrd. dollar və 300 mln. avro həcmlərində kreditlər verilib ki, bunların da əksəriyyəti uzun müddət ərzində qaytarılmayaraq problemli və ümidsiz kreditlər qrupuna aid edilib: "Eyni zamanda, bankın sabiq rəhbərliyinin göstərişləri ilə mövcud qanunvericiliyə zidd olaraq 2 minə yaxın halda 3,7 milyard dollar və 1,1 milyard avro vəsait ölkədən çıxarılaraq heç hansı müsbət reputasiyaya və ya kredit reytinqinə malik olmayan, əksəriyyəti ofşorlarda yeni yaradılmış şirkətlərin borc kağızlarının (veksellərin) alınmasına sərf olunmuşdur. Bu vəsaitlər sonradan çoxpilləli köçürmələr vasitəsilə son benefisiarı və ya benefisiarlardan biri Cahangir Hacıyev olduğu layihələrə yönəldilib, onların əksəriyyəti bu günədək qaytarılmamış qalmaqdadır".

**O ki qaldı Müşahidə Şurasının qərarları ilə rəsmiləşdirilməsinə razılıq verilən kreditlərə, M. Piriyev deyib ki, bunların sayı 7, ümumilikdə məbləği isə 250 milyon ABŞ dolları və 261 milyon manat təşkil edib ki, bugünkü tarixə qeyd olunan kreditlərin hamısı bağlanıb.**

# Bağlanan bankların əmanətçilərinə 232 milyon manat kompensasiya ödənilib

**Əmanətlərin Sığortalanması Fondu tərəfindən 1 sentyabr 2016-cı il tarixində "Parabank" ASC-nin qorunan əmanətçilərinə 21 mln. 211 min manat, "Zaminbank" ASC-nin qorunan əmanətçilərinə 37 mln. 168 min manat, "Kredobank" ASC-nin qorunan əmanətçilərinə 15 mln. 931 min manat və "Dekabank" ASC-nin qorunan əmanətçilərinə isə 2 mln. 659 min manatdan artıq kompensasiya ödənilib.**

Fonddan "APA-Economics"ə verilən məlumata görə, 4 bank üzrə ümumilikdə 76 mln. 969 min manatdan artıq kompensasiya verilib.

1 sentyabr 2016-cı il tarixdə "Atrabank" ASC-nin qorunan əmanətçilərinə 9 mln. 371 min manat, "Qafqaz İnkişaf Bankı" ASC-nin qorunan əmanətçilərinə 1 mln. 419 min manatdan artıq kompensasiya ödənilib. 2 bank üzrə ümumilikdə 10 mln. 790 min manatdan artıq kompensasiya verilib.

1 sentyabr 2016-cı il tarixdə "Bank of Azerbaijan" ASC-nin qorunan əmanətçilərinə 24 mln. 61 min, "Gəncəbank" ASC-nin qorunan əmanətçilərinə 895 min 554 manat, "Texnikabank" ASC-nin qorunan əmanətçilərinə isə 119 mln. 630 min manatdan artıq kompensasiya ödənilib. 3 bank üzrə ümumilikdə 144 mln. 586 min manatdan artıq kompensasiya ödənilib.

**Ümumilikdə fond tərəfindən 9 bank üzrə 232 mln. 345 min manatdan artıq kompensasiya ödənilib.**

YENİ MÜSAVAT
N 195 (6516) 3 sentyabr 2016

# “Yeraltı dünya”dan xəbər verən jurnalistlə söhbət

**Dövlət qurumlarının mətbuat xidməti rəhbərləri ilə müsahibə rubrikamızın növbəti qonağı Bakı Metropoliteni QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayevdir. Jurnalistlər arasında keçirilən rəy sorğularında hər zaman birinci olan, media ictimaiyyətinin “ən əlçatan mətbuat katibi” kimi tanıdığı Nəsimi Paşayevlə sözügedən qurumun inzibati binasında görüşdük. Nəsimi müəllimlə təkcə metro haqqında yox, həm də özünün fəaliyyəti, şəxsi həyatı, Azərbaycan mətbuatı barədə düşüncələri və sair haqqında danışdıq.**



# “Metroda qrafikə sərnişinlər mane olur”

## Nəsimi Paşayev: “Qatar dayananda içəridəkilər çıxmaq istəyir, eyni zamanda bayırdakılar minmək istəyir, bir-birinə müqavimət göstərməklə vaxt itirirlər”

***- Nəsimi müəllim, sizinlə həmişə metro haqqında danışırıq. Bu dəfə bizə özünüz haqqında danışın. Harada doğulmusunuz, uşaqlığınız, gəncliyiniz, təhsil həyatınız necə keçib?***

- Mən 1975-ci ildə Yevlax rayonunun Xaldan kəndində anadan olmuşam. Sonra da həmin kəndin məktəbində oxumağa başlamışam. Kənd məktəbi olsa da, adi məktəb deyildi, sovet dövründə xüsusi tanınan məktəb idi. 11 il orada oxumuşam. Daha sonra 1992-ci ildə məzun oldum, o zaman Türkiyə universitetlərinə test üsulu ilə qəbul var idi. Həmin vaxt imtahan verdim və Ankara universitetinin jurnalistika fakültəsinə qəbul olundum. Əslində ixtisasım radio-televiziya və kinodur, yəni telejurnalistika sahəsində oxumuşam. Tələbəlik illərim Türkiyədə keçib. O zaman ölkəmizin ən ağır illəri idi, sovet hökumətinin dağılan, Azərbaycanın yeni müstəqillik qazanan vaxtları idi. 2000-ci ilə qədər Türkiyədə qaldım. Orada yaşadım və işlədim. 2000-ci ildə isə vətənə qayıtdım. Hərbi xidmətə getdim, ondan sonra isə artıq rayonda qalmadım. İxtisasıma uyğun iş tapa bilmək üçün mütləq Bakıya gəlməliydim. Burada işə mətbuatdan başladım. İlk iş yerim “Xalq Cəbhəsi” qəzeti olub, o zaman bu qəzet Vüsalə Mahirqızının baş redaktorluğu ilə təzə çıxmağa başlayırdı. Ancaq mən oraya müxbir kimi getməmişdim, çünki təcrübəm yox idi. Orada qısa müddət işlədim, daha sonrakı 3 il ərazində də müxtəlif mətbuat orqanlarında çalışdım. Ən son işlədiyim qəzet “Yeni Zaman” qəzeti idi. O bağlanandan sonra isə mətbuatdan ayrılmaq qərarına gəldim. İlk dəfə 2004-cü ildə “Barmek”də mətbuat xidmətində çalışdım, daha sonra bu qurum “Bakıelektrikşəbəkə” oldu, orada da mətbuat xidmətində mütəxəssis vəzifəsində işə başladım. 2014-cü ilin mart ayına qədər bu işdə çalışdım. 2014-cü ilin fevral ayının sonunda cənab prezidentin sərəncamı ilə “Azərtunelmetrotikinti” ilə Bakı Metropoliteni birləşdi, “Bakı Metropoliteni” QSC yaradıldı, Belə alındı ki, mən burada mətbuat xidməti və ictimai əlaqələr şöbəsinin rəisi vəzifəsinə təyin olundum. O gündən bu vəzifəni icra edirəm. 2003-cü ildə ailə qurmuşam, həyat yoldaşım da mətbuat işçisidir, televiziyaların birində çalışır. Oğlum bu il 7-ci sinfə gedəcək, qızım da birinci sinfə başlayacaq.



***- Saysız-hesabsız mətbuat orqanları var. Orada çalışan bütün jurnalistlərlə əlaqə qurmaq, münasibət yaratmaq sizin üçün çətin oldumu?***

- Çətin deyil, çünki mən özüm də jurnalist olmuşam, onlarla daha yaxın olduğum üçün nə istədiklərini bilirəm. Jurnalistlərlə münasibətim çox yaxşıdır. Həmişə fəxr edirəm ki, jurnalistika cameəsində mənim “sən” deyə müraciət etdiyim və mənə “sən” deyə müraciət edən jurnalistlər çoxluq təşkil edir. Ən sevmədiyim söz “məmur” sözüdür, kimsə mənə məmur deyəndə xoşum gəlmir. Jurnalistə məlumat vermək hər hansı qurumun mətbuat xidmətinin borcudur. Bizim işimizin adı budur. Bakı Metropoliteni QSC-də olan yeniliklər haqqında məlumat vermək, o cümlədən hansı problem varsa bu haqda açıqlama vermək, ümumiyyətlə ictimaiyyət üçün əhəmiyyət kəsb edən istənilən məlumatı ötürmək bizim işimizdir.

**“Rəhbərliyin mənə ilk tapşırığı o olub ki, mətbuatla yüksək səviyyədə işlə və jurnalistlər üçün əlçatan ol”**

***- Bakı Metropoliteninin mətbuat katibi vəzifəsinin hansı çətinlikləri var?***

- Bəziləri elə bilir ki, mətbuat xidmətində işləmək çox asandır, ancaq elə deyil. Mənim telefonum 24 sat açıq qalır, heç vaxt bağlana bilməz. Bu bir qaydadır. Mətbuat xidməti rəhbəri olaraq mənim səhv eləmək haqqım yoxdur, çünki dediyim söz bütün ölkə miqyasında yayılır. Bu baxımdan çox məsuliyyətli işdir. Metro işçilərinin hər biri öz sahəsinə aid işi bilir, mən isə onların bütün hamısını bilmək məcburiyyətindəyəm. Çünki jurnalist sual verəndə mən ona cavab verə bilmək üçün məlumatlı olmalıyam.

***- Rəhbərliklə münasibətləriniz necədir?***

- Bizim rəhbərliklə münasibətlərimiz çox gözəldir. Bəzi qurumların strategiyası elədir ki, mətbuat xidmətləri rəhbərliklə razılaşdırmadan heç bir informasiya verə bilməzlər. Bu normal bir haldır. Bizdə televiziyalar metroda çəkiliş etmək üçün yazılı sorğu göndərib icazə almalıdırlar. Bildiyiniz kimi, metropolitendə çəkiliş aparmaq qadağandır, mütləq razılaşdırılmalıdır. Mənim rəhbərliklə heç bir problemim yoxdur, onun mənə ilk tapşırığı o olub ki, mətbuatla yüksək səviyyədə işlə və jurnalistlər üçün əlçatan ol, mətbuata gedən informasiyalar birbaşa səndən getməlidir. Lazım olanda çox rahat şəkildə telefonla da əlaqə saxlayıb sualımı ünvanlaya bilirəm, əgər onun tapşırığı varsa, istənilən vaxt zəng edib tapşırıq verir.

***- Jurnalistlərin metrodakı texniki problemlər yaranan zaman tez-tez sizə zəng vurması sizi narahat edirmi?***

- Xeyr, məni metropolitendə hər hansı problemin yaranması narahat edir, bununla bağlı jurnalistlərin mənə zəng etməsi yox. Jurnalistlərin mənə müraciət etməsi məni narahat etmir, əksinə onların mənə müraciət etmədən birtərəfli qaydada yazı yazması məni narahat edir. Çünki ictimaiyyət də, jurnalist də metro işinin dərinlikləri bilmir. Buraya gələn gündən əsas məqsədim o olub ki, jurnalistlər üçün günün istənilən saatında əlçatan olum, gecə saat 3-də belə mənə zəng etsinlər, informasiyanı dəqiqləşdirib sonra yaysınlar. Günümüzdə informasiya vermək artıq ciddiliyini itirib. Jurnalistlər sosial şəbəkələrdəki statusları belə xəbərə çevirir, qarşı tərəfin mövqeyini öyrənmədən verirlər. Bu həm o qurumun, həm də media orqanının imicinə zərbə vurur. Bütün mətbuat orqanlarında jurnalistlər mənim telefon nömrələrimi bilirlər, hətta sosial şəbəkə üzərindən də sual yazıb cavab yaza bilirlər. Tutaq ki, qatarda problem yaranıb. Bunu yaradan mən deyiləm və ya kimsə qəsdən yaratmayıb. Bu texnikadır, qatarlar gün ərzində 16-18 saat xətdə olurlar, onda texniki problem yarana bilər, o demək deyil ki, o köhnədir, nasazdır. Qatarlarda ən çox yaranan problem qapıların bağlanmamasıdır. Qapılarla sərnişinlərin necə rəftar etdiyini də özünün görmüsünüz. Qapıları saxlayırlar, söykənməyin yazılsa da söykənirlər. Yəni problemin səbəbkarı mən deyiləm, ona görə də bu haqda danışmaqdan çəkinmirəm və bezmirəm.

***- Nəsimi müəllim, deyəsən sərnişin mədəniyyətindən narazısınız...***

- Bu çox böyük bir dərddir. Söhbət təkcə metrodan getmir, gündəlik həyatın hər sahəsində insanlarımızın davranışında problemlər mövcuddur. Ancaq tədricən vəziyyət yaxşıya doğru dəyişir. Metroda ən böyük problem sərnişinlərin qatara minib düşməsi zamanı olur. Hamı bilir ki, pik atlarda metroda sıxlıq var. İnsanlar elə bilir ki, qapının ağzında durub qatardan düşən insanların hərəkətinə mane olmaqla daha tez minə biləcəklər. İçəridəkilər çıxmaq istəyir, bayırdakılar minmək istəyir, bir-birinə müqavimət göstərməklə vaxt itirirlər. Metropoliten də elə bir ictimai nəqliyyat növüdür ki, orada qrafik saniyələrlə hesablanır. Sərnişinlərin sıxlığından asılı olaraq, qatarın platformada neçə saniyə dayanması müəyyən edilir. Qapıların vaxtında bağlanmaması, qatarın gecikməsi ümumi qrafikin pozulmasına səbəb olur. Bu durumundan da yenə sərnişinlər narazılıq edir.

***- Siz sərnişinlərdən narazılığınızı dediniz. İndi də mən sizə sərnişinlərin narazılığını çatdırım. Son 3 ayda insanlar metroda istidən, havasızlıqdan cəhənnəm əzabı yaşadılar. Qatarlarda ventilyasiya sisteminin quraşdırılması çox çətindirmi?***

- Metroda çox gözəl ventilyasiya sistemi var. Metroda yay aylarında havanın temperaturu bayırdakından sərin olur.

***- Platformada elədir, bəli...***

- Yox, elə qatarın içində də... Biz bununla bağlı müxtəlif cihazlar almışıq. Metroda sadəcə havanın temperaturunu deyil, həm də rütubəti, insanların bilmədiyi müxtəlif tərkibləri, bütün nöqtələrdən küləyin hərəkət istiqamətini yoxlamaq üçün cihazlar quraşdırmışıq. Bir stansiyada 20 nöqtədən küləyin istiqaməti yoxlanılır. Biz müəyyən edirik ki, ventilyasiyanı hansı istiqamətdə işlətsək sərnişinlər üçün rahatlıq olar. Bunun həm də iqtisadi əsasları var, biz onun səmərəliliyini də yoxlayırıq. Digər məsələlər də var. Məsələn, bayırda havanın temperaturu 35 dərəcədən yuxarıdırsa, biz o havanı alıb ventilyasiya vasitəsilə içəri vura bilmərik, bu qadağandır. Yalnız içəridəki havanın dövriyyəsini təmin edə bilərik. Bizim platformada problemimiz yoxdur, yalnız qatarlarda, tuneldə gedərkən problem olur. Orada isə süni havalandırmadır. Həmin qatarlar köhnə sovet qatarlarıdır, onların konstruksiyasında istehsalçı tərəfindən kondisioner nəzərdə tutulmayıb, o halda bunu əlavə etmək təhlükə yarada bilər. Normal vaxtlarda qatarda vəziyyət o qədər də pis olmur. Sadəcə pik saatlarda insanlar sıx olduğu üçün müəyyən problemlər olur. Biz bununla bağlı işlərimizi davam etdiririk, bu ilin 6 ayı ərazində 6 ventilyasiya sistemini tamamilə dəyişmişik, 6-sı da rekonstruksiya olunub.

**“Bayırda havanın temperaturu 35 dərəcədən yuxarıdırsa, biz o havanı alıb ventilyasiya vasitəsilə içəri vura bilmərik, bu qadağandır”**

***- Qarşıdakı dövrdə sərnişinləri hansı yeniliklər gözləyir?***

- Yeniliklərdən biri odur ki, əvvəl qatarlarımız təmir üçün Gürcüstana göndərirdik, ancaq artıq bunu özümüz edirik. Yaxın gələcəkdə qatar yollarının tikintisində istifadə olunan beton şpalları da özümüz istehsal edəcəyik.

***- Qatarlar nə zaman yeniləri ilə əvəz olunacaq?***

- Xətdəki qatarlar müxtəlif vaxtlarda alınıb və hələ istismar müddəti bitməyib. Ötən il Fransadan 3 ədəd yeni qatar aldıq, qatarlarımızın istismar müddəti başa çatdıqca, onları xətdən çıxarıb yenilərini alıb gətirəcəyik.

***- Hansı yeni stansiyalar açılacaq?***

- Bizim “Avtovağzal” stansiyası ilə “Memar Əcəmi 2" stansiyalarından ibarət bənövşəyi xəttimiz açıldı. Hazırda onun davamı olan, şərti adı B3 olan stansiyanın tikintisi davam edir. O, "Papanin" adlandırdığımız ərazidə, hərbi xəstəxananın qarşısında olacaq, tikintisi tam sürətlə davam edir. İşlər bizim planlaşdırdığımız şəkildə gedərsə, 2018-ci ildə biz həmin stansiyanı istifadəyə verəcəyik. Bakı Metropoliteni xətlərinin konseptual inkişaf sxemində stansiyalarımızın sayı 76 olmalıdır, hazırda 25 stansiyamız var. Bu istiqamətdə işlər davam edir, B4 stansiyasında, Dərnəgüldə depoların inşası, “Həzi Aslanov 2" stansiyasında işlər davam edir.

❑ Nərgiz LİFTİYEVA
Foto: Məğrur MƏRD

YENİ MÜSAVAT
N 195 (6516) 3 sentyabr 2016



# İslam Kərimov öldü, Özbəkistan matəmdə

## Özbəkistanda yeni hakimiyyət ölkədəki siyasi qüvvələrin deyil, daha çox klanlar arasında razılaşmanın nəticəsi olaraq müəyyən ediləcək; ən real namizəd Şövkət Mirzəyevdir

**İnsult keçirdiyi və komada olduğu bildirilən Özbəkistan prezidenti İslam Kərimovun sentyabrın 2-də ölüm xəbəri yayılıb. Xəbəri "Reuters" agentliyi yayıb. Türkiyənin baş naziri Binəli Yıldırım hökumətin iclasında Özbəkistan prezidentinin vəfatına görə başsağlığını çatdırıb. "Özbəkistan prezidenti İslam Kərimov vəfat edib. Allah rəhmət eləsin. Türkiyə cümhuriyyəti adından özbək xalqına başsağlığı verirəm" - Binəli Yıldırım deyib.**

Qeyd edək ki, daha əvvəl də Kərimovun ölüm xəbəri müstəqil mənbələr tərəfindən yayılsa da, rəsmi Daşkənd məlumatları təkzib etmişdi. Ötən gün isə Özbəkistan hökumət rəsmiləri İ.Kərimovun dumunun ağır olduğu haqda açıqlama yaymışdı. Bundan başqa Səmərqənddə ailə məzarlığında qəbir qazıldığı haqda xəbər və fotolar yayılmışdı.

Artıq beynəlxalq media bir sıra dünya dövlətləri liderlərinin Özbəkistana gələcəyi haqda xəbərlər yayır. 1989-cu ildən Özbəkistanı demək olar ki, təkbaşına idarə edən İslam Kərimovla son vida mərasiminə Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Rusiya prezidenti Putin və digər dövlət və hökumət başçılarının qatılacağı gözlənilir.

İslam Kərimov 1938-ci il yanvarın 30-da Səmərqənddə dünyaya gəlib. Mühəndis və iqtisadçı ali təhsili alıb, sovet Özbəkistanında müxtəlif vəzifələri tutub. 1964-cü ildən Kommunist Partiyasının üzvü olub. 1983-86-cı illərdə Maliyyə Naziri və baş nazirin müavini vəzifəsini tutub. Eyni zamanda həmin illərdə SSRİ-də korrupsiyaya qarşı mübarizə kapmaniyası zamanı həbs olunub və DTK zindanında saxlanılıb.

1989-cu ildə İslam Kərimov Özbəkistan SSRİ Komunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi postunu tutub. 1990-cı il martın 24-də isə Özbəkistanda prezident postu təsis olunanda Kərimov Özbəkistan SSRİ-nin ilk və son prezident olur. 1991-ci ildə isə müstəqil olan Özbəkistanın prezidenti Kərimov olaraq qalır. 1995-ci ildə Kərimovun səlahiyyəti başa çatmalı olsa da, keçirilən referendumla onun səlahiyyəti daha 5 il uzadılır. 2000-ci ildə keçirilən seçkilərdə Kərimov yeganə "rəqibinə" qalib gələrək prezdient postunu qoruyub saxlayır. 2002-ci ildə idə Özbəkistanda referendum keçirilir və prezidentlik müddəti 5 ildən 7 ilə artırılır. 2007 və 2015 keçirilən seçkilərdə Kərimov dalbadal qaliub gələrək postunu qoruyub saxladı.



İslam Kərimov 27 il ərzində Özbəkistanı "dəmir yumruqla" idarə edib, ölkənin yeganə söz sahibi olub. "Özbəkistan Qəhrəmanı", "Əmir Teymur" və "Müstəqillik" ordenlərinə sahib olub.

Ənənəvi olaraq digər postsovet respublikalarında olduğu kimi Kərimov da seçkiləri formal keçirib, qanunverici və məhkəmə orqanlarını nəzarətdə saxlayıb. Siyasi müxalifət əzilib və bir çoxu ölkədən qaçıb. 1999-cu ildə Kərimovun Türkiyədən idarə olunduğunu iddia etdiyi islamçı qruplar tərəfindən sui-qəsdə uğradığı haqda məlumat yayılıb. Bundan sonra ölkədə F.Gülən məktəbləri qapadılıb, Türkiyə şirkətlərinin fəaliyyəti məhdudlaşdırılıb. Eyni zamanda Kərimovun tələbi ilə sui-qəsdin təşkilatçısı elan olunan iki nəfər İstanbuldan alınaraq Özbəkistana gətirilib və edam olunub. Bundan sonra Türkiyə ilə Özbəkistan arasında münasibətlər xeyli dərəcədə soyuqlaşıb.

Orta Asiyanın digər respublikaları kimi Özbəkistan da Rusiya ilə yaxın müttəfiqlik münasibətlərinə sahib olsa da, Kərimov həm də Qərb ölkələri ilə əməkdaşlıq edib, 11 sentyabr olaylarından sonra ABŞ-ın terrorizmə qarşı böyük koalisiyasına dəstək verib, Özbəkistanda yerləşən hərbi hava bazalarından birini Əfqanıstanda əməliyyat keçirən ABŞ ordusunun ixtiyarına verib.

Ancaq bundan əvvəl, hələ 90-cı illərdə Özbəkistan Amerikanın Orta Asiyada əsas müttəfiqi idi. Bu səbəbdən də Qərb özbəkistandan insan haqlarının durumuna seyrçi qalmağa üstünlük verib. İslam Kərimovun avtoritar idarəçiliyi uzun müddət ciddi tənqid olunmayıb. Bu istiqamətdə qırılma nöqtəsi 2005-ci il Əndican olayları olub.

2005-ci ildə Fərqanə vilayətinin Əndican şəhərində baş qaldıran silahlı etirazlar rəsmi hökumət tərəfindən islamçı terror qrupları olaraq tanıdıldı və ordu qüvvələri üsnayçılara qarşı güc tətbiq etdi. Çoxlu sayda insan öldürüldü. Bu zaman ciddi insan haqları pozuntuları qeydə alındı. Qərb ölkələri isə Kərimovu hökumətin sərt müdaxiləsinə görə tənqid etdilər. Bundan sonra rəsmi Daşkəndlə Qərb arasında münasibətlər soyudu. Kərimov Özbəkistandakı Amerika bazasını bağladı. Yalnız 3 ildən sonra münasibətlərdə yumşalma qeydə alınmağa başladı. Ancaq Kərimov daha çox Rusiya və Çinlə yaxınlaşmağa başladı və Özbəkistan Rusiyanın ən yaxın tərəfdaş ölkələrindən biri idi.

**Bir sıra müşahidəçilərə görə, Kərimovdan sonra Özbəkistanda yeni hakimiyyət ölkədəki siyasi qüvvələrin deyil (onlar demək olar ki, yox kimidir - K.R), daha çox klanlar arasında razılaşmanın nəticəsi olaraq müəyyən ediləcək. Hal-hazırda daha çox baş nazir Şövkət Mirzəyevin adı hakimiyyətə əsas namizəd kimi hallanır. Ancaq bu qərar yəqin ki, Özbəksitanın aparıcı klanlarının anlaşması ilə müəyyən olunacaq. Bu isə müəyyən qədər vaxt alacaq.**

❑ Kənan RÖVŞƏNOĞLU



# Livan nəşrindən sensasion iddia: Bəşər Əsədlə Ərdoğan Moskvada görüşəcək

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Suriya prezidenti Bəşər Əsədin bu ay ərzində Moskvada görüşəcəyinə dair xəbər yayılıb. Virtualaz.org xəbər verir ki, bu haqda Livanda nəşr olunan "Əs Safir" qəzeti manşetdən yazıb. Xəbərə əsasən Ərdoğan-Əsəd görüşünün sentyabrın 18-22-i aralığında Moskvada baş tutması gözlənilir. Qəzet yazır ki, avqustun 9-da Ərdoğanla Putinin Sankt-Peterburqdakı görüşü zamanı Suriya nümayəndə heyəti Moskvada olub.**

Xatırladaq ki, həmin görüşdən sonra rəsmi Ankara Suriya məsələsində mövqeyini 180 dərəcə dəyişib, Bəşər Əsədin hakimiyyətdən getməsində israr etmədiyini açıqlayıb, onunla işləməyin mümkünlüyünü bildirib.



# "Şahdəniz" neft-qaz layihəsinə qarşı kim olub?

## Keçmiş dövlət müşavirindən yeni açıqlamalar




**Prezident İlham Əliyev srağagün Bakı Dərin Özüllər Zavodunda "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində çıxış edib. Ölkə başçısı ad çəkmədən o vaxtkı yüksək vəzifəli şəxslərdən birinin bu layihənin imzalanmasının əleyhinə çıxdığını deyib. İ.Əliyev bildirib ki, həmin şəxs bunu ölkənin inkişaf etməməsini və özünün daha yüksək vəzifəyə qalxmasını istədiyi üçün edib. Bir sıra saytlar həmin şəxsin o zaman Milli Məclisin spikeri olan Rəsul Quliyev olduğunu yazıblar. Sübut kimi isə sonralar mərhum prezident Heydər Əliyev çıxışlarının birində Rəsul Quliyevin müqavilənin imzalanmasının əleyhinə çıxdığını qeyd etməsi göstərilib.**

Rəsul Quliyev isə facebook səhifəsində dolayısı ilə təsdiq edib ki, sözügedən layihənin əleyhinə imiş.

"Əsrin müqaviləsi"nin imzalandığı və sonrakı illərdə dövlət müşaviri vəzifəsində işləyən, **politoloq Qabil Hüseynli** isə "Yeni Müsavat bildirdi ki, "Əsrin müqaviləsi"nin imzalanmasında bilavasitə iştirak edib. Buna qədər danışıqlar prosesinin iştirakçılarından olub: "Fransa şirkətlərindən biri ilə danışıqların ilkin mərhələsini şəxsən özüm aparmışam. Onlar bir nəfər vasitəsilə mənə müraciət etmişdilər. Mən də təklifi prezidentə təqdim elədim. "Əsrin müqaviləsi" imzalanana qədər bütün şirkətlərlə olan danışıqlar haqqında ətraflı məlumatım var. Çünki bu danışıqların bəzilərində şəxsən iştirak edirdim. Eyni zamanda danışıqların təfərrüatı barədə məlumatım var. "Əsrin müqaviləsi"nin imzalanması mərasiminin hazırlanmasında bilavasitə iştirak etmişəm. Bütün informasiya xidmətinin başında özüm durmuşam. Özüm də həmin mərasimdə iştirak eləmişəm. Onu da deyim ki, həmin dövrdə o müqavilə "Əsrin müqaviləsi" adlanmırdı. Mən həmin müqavilə haqqında böyük kitab yazmışam və kitab "Əsrin müqaviləsi" adlanır. Kitab rus dilində çapdan çıxıb. Lovğalıq olmasın, "Əsrin müqaviləsi" sözünü səhv etmirəmsə mən işlətmişəm həmin kitabda. Mərhum prezident Heydər Əliyev bu sözün həmin müqaviləyə tam uyğun gəldiyini deyirdi. Kitab müqavilə imzalanandan bir ay sonra çap edilmişdi.

"Şahdəniz" neft qaz-yatağının istismarı məsələsi ilə bağlı isə ola bilsin ki, hansısa toplantılarda kimsə narazılıq edirmiş. Ola bilsin ki, o zamankı spiker Rəsul Quliyev bu layihənin əleyhinə çıxırmış. Bu, mümkün idi. Ancaq şəxsən mən həmin şəxsin konkret kim olduğunu bilmirəm. "Şahdəniz" neft və qaz yatağı sovet dövründə tədqiq edilmiş və aşkarlanmış böyük neft və qaz ehtiyatlarına malik olduğu sübuta yetirilmiş yataq idi. Belə bir yataq təbii ki, istismara verilməli idi. Sonradan BP burada daha müasir metodlarla təkrar kəşfiyyat işləri apardılar və nəticədə Azərbaycan geoloqlarının gəldiyi qənaət yüz faiz təsdiq olundu. Şahdəniz-1 yatağının işlənməsi haqqında da qərar verildi. Bu layihə Azərbaycan büdcəsinə çox böyük gəlirlər gətirdi. Şahdəniz-2 layihəsi "Şahdəniz-1"in əhatə etmədiyi sahəni də əhatə etməlidir və burada daha çox qaz ehtiyatları var. Mümkündür ki, "Şahdəniz-2" layihəsinə də kiminsə etirazı olub. Şübhəsiz ki, ölkə prezidenti o açıqlamanı təsadüfən verməyib. Mən bu layihə ilə bağlı yığıncaqlarda iştirak etmədiyim üçün konkret hansı şəxs tərəfindən etiraz ortaya qoyulduğunu bilmirəm. Mənə sadəcə məlumatlar çatmışdı ki, "Şahdəniz-2"nin effektli olacağına şübhə ilə yanaşanlar olub. Amma bunun kim və ya kimlər tərəfindən səsləndiyini bilmirəm".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 195 (6516) 3 sentyabr 2016

# Azyaşlı uşaqların zəvvar olması nə dərəcədə doğrudur?

## Dini ekspert: "Həcc ziyarəti yeniyetməlikdən sonra vacib olur"



**Bir neçə gün əvvəl İraqın Kərbəla şəhərində 5 yaşlı azərbaycanlı uşağın vəfat etməsi sosial şəbəkələrdə geniş müzakirələrə səbəb oldu. İlkin ehtimallara görə, azyaşlı Zəhra Rəhimova günvurmadan dünyasını dəyişib. Məlumatda deyilir ki, onun atası Habil Rəhimov Suriyada dini təhsil alırmış. Suriyadakı məlum hadisələrdən sonra o, təhsilini Nəcəf şəhərində davam etdirib. Bu səfərdə də məqsəd H.Rəhimovun dövlət imtahanı verməsi ilə bağlı olub.**

Ümumiyyətlə, statistik məlumata görə, təkcə Həcc ziyarətinə hər il minlərlə uşaq gəlir ki, onların da əksəriyyəti 10 yaşından aşağı olanlardır. Xüsusən də Məkkə və bu kimi şəhərlərdə havanın temperaturunun 40 dərəcədən yüksək olduğunu nəzərə alaraq bunun azyaşlı uşaqlar üçün necə təhlükəli olduğunu müəyyənləşdirmək o qədər də çətin deyil.

İki il öncə Səudiyyə Ərəbistanı rəsmiləri 10 yaşından aşağı olan uşaqların valideynləri ilə birgə Həcc ziyarəti zamanı Məkkəyə gəlməsinə qadağa qoyulması ilə bağlı müzakirələr aparmışdılar. Həcc işləri üzrə nazirlikdən bildirilirdi ki, uşaqların çoxu isti hava şəraitində açıq havada, hər hansı sanitar qaydalara riayət edilməyən yerlərdə yatmalı olur və bu da onların sağlamlıqları üçün kifayət qədər təhlükəlidir. Lakin zəvvarlar qrupuna rəhbərlik edənlər bu məhdudiyyətlə razı olmadıqlarını, bəzi zəvvarların uşaqlarını qoymağa yerləri olmadığı üçün özləri ilə birgə apardıqlarını bildirmişdilər.

*Bəs görəsən, azyaşlı uşağın Həcc və digər ziyarətlərə getməsi nə dərəcədə doğrudur? İslam dininə əsasən zəvvarlıq üçün yaş həddi varmı?*

**Dini ekspert Kənan Rövşənoğlu** məsələyə bu cür aydınlıq gətirdi: "İslam dininə görə bütün ibadətlər və o cümlədən, Həcc ziyarəti bəlli bir yaşdan, yəni yeniyetməlikdən sonra vacib olur. Eyni zamanda, hətta yaşı da yerində olan insan üçün də bir sıra şərtlər var, maddi imkanları, əqli və fiziki imkanları yetərli olsun. Yalnız bu şərtlər olduğu halda insanın ibadət və ziyarətə getməlidir. Təbii ki, vacib hökm olmadığı halda onun ziyarəti də vacib ibadət sayıla bilməz, Həcc ibadəti sayılmır.

Kiçik uşaqların ziyarətə getməsi bu mənada vacib deyil, sadəcə valideynlər bəzi hallarda imkanları olduqda övladlarını gəzib görmələri və dini ruhda tərbiyə almaları üçün ziyarətə aparırlar.

Konkret son hadisəyə, yəni 5 yaşlı uşağın Kərbəla ziyarətinə getməsinə gəlincə, əvvəla, Kərbəla ziyarəti vacib bir dini ibadət deyil. İnsanlar İmam Hüseyn (ə) ziyarətinə getmək üçün Kərbəlaya gedirlər. Təbii ki, mənəvi baxımdan valideynin uşağını həddən artıq isti bir yerə apardığını nəzərə alıb onun qorunmasını da düşünməli, tədbir görməli idi. Ancaq hüquqi baxımdan o valideyn hər hansı məsuliyyət daşımır, yetkinlik yaşına çatmamış övladını öz inancları əsasında tərbiyə etmək valideynin müstəsna hüququdur.

Bu bir qəzadır, hər yerdə, hər zamana rastlaşa biləcək haldır. Ancaq valideynlərin xüsusilə müqəddəs yerlərə ziyarətə gedəndə bunları nəzərə alması, havanı, təhlükəni diqqətə almaları lazımdır".

**Dini ekspertin sözlərinə görə, azyaşlı uşaqların yüksək dərəcəli isti hava şəraitində ziyarətgahlara aparılmasına qanunla qadağa qoyula bilməz:** "Antalyada da havanın temperaturu 40 dərəcə olur. Misirdə, Şarm əl-Şeydə daha yüksək olur. Övladını hara aparmaq, hansı tarixi və ya dini abidəni ziyarət etməsini təşkil etmək valideynin hüququdur. Burda sadəcə mənəvi olaraq valideynlərin bu durumu nəzərə alması lazımdır".

❑ **Xalidə GƏRAY**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60; (070) 335-90-15**



## Şeyxin idarəsindən Qurban bayramı tövsiyəsi

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) müqəddəs Qurban bayramı münasibətilə tövsiyələr verib. İdarədən verilən məlumatda bildirilir ki, qurban kəsmək əsasən Məkkədə hacılara vacibdir. Digər yerlərdə isə imkanlı adamların qurban kəsmələri Allah-Təala yanında bəyənilmiş - müstəhəb əməllərdən hesab olunur. Qurban ətini fəqir və kasıb ailələrə paylamaq böyük savabdır.**

Qurban kəsilən heyvan sağlam və kök olmalıdır. Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa layiq və məqbul sayılmır. Qurban qoyun, keci, öküz-inək və dəvə olmalıdır. Bu heyvanlar müəyyən yaş həddinə çatmalıdır. Keçi və qoyunun ili tamam olmalı, öküz və inək bir və ya iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır. (Trend).

Bundan əlavə, beş-altı adamın cəmləşib bir iribüynuzlu heyvanı qurban kəsmələri çox yerlərdə el adətinə çevrilib. Yaxşı olar ki, bu zaman bölgü aparanda həmin şəriklər bir-birinə halallıq versinlər. Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə götürə bilər, digər hissə fəqir və kasıb ailələrə, üçüncü hissə isə hədiyyə kimi qohum-əqrəbalara paylanmalıdır. Qeyd edirik ki, şərikli kəsilən qurbanın hər şərikə çatan payı da həmçinin üç hissəyə bölünməlidir.

Bir qayda olaraq, qurban kəsərkən heyvanı uzu qibləyə uzatmalı, qoyundursa, qıçının birini azad saxlamaq, iribuynuzlu heyvandırsa, dörd ayağını da möhkəm bağlamaq lazımdır. Heyvanın boğazına bıçaq qoyularkən, yaxşı olar ki, Qurban duası oxunsun və ya heç olmazsa, "Bismillahi və billahi vəllahu əkbər" deyərək kəsilsin.

## Ölkədə intiharlar şoku-daha iki nəfər özünü öldürdü

**Bakıda intihar hadisəsi baş verib. Binəqədi rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə rayonun Ələkbərov küçəsində yerləşən fərdi yaşayış evlərindən birində qeydə alınıb. Orada yaşayan, 1992-ci il təvəllüdlü Zülfiyyə Rəfael qızı Əsədova yaşadığı evdə özünü asıb. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil. Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, araşdırma aparılır.**

Bakı bulvarında da özünü dənizə ataraq intihar edən şəxsin kimliyi müəyyənləşib. Lent.az-ın əldə etdiyi məlumata görə, Dənizkənarı Milli Parkın yeni salınmış hissəsində "Energy Club"un arxasında özünü dənizə ataraq intihar edən şəxsin Kələntərov Müşfiq Vaqif olması müəyyən edilib. Onun 40-45 yaşında olduğu bildirilir. Hadisədən sonra M.Kələntərovun meyiti sudan çıxarılıb. Bu zaman onun cibindən borc müqaviləsi tapılıb. Müqavilədən məlum olub ki, M.Kələntərovun 15 min manat borcu varmış.

Dənizkənarı Milli Bulvar ərazisində *("Yaxt klub"un yaxınlığı)* daha bir adam özünü dənizə ataraq intihar etmək istəyib. Özünü dənizə ataraq həyatına son qoymaq istəyən şəxsin 1973-cü ildə Naxçıvan Respublikasının Ordubad rayonunda anadan olmuş, Binəqədi rayonunda yaşayan Cəfərova Şahnaz Əkrəm qızı olması məlum olub. Onun psixi durumunda problem olduğu bildirilir.

## Bakı sakinini daş karxanasında elektrik vurub

**"Qafqazinfo" DİN-in saytına istinadən xəbər verir ki, hadisə dünən Qaradağ rayonunun Qızıldaş qəsəbəsində yerləşən daş karxanasında baş verib. Elektrik cərəyanı vuran Ramazan Hüseynov hadisə yerində ölüb.**



# Güclü yağış rayonlara və təsərrüfata ciddi ziyan vurub

## Bəzi kəndlərdə işıq dirəklərini su aparıb və elektrik enerjisinin verilişində problemlər yaranıb, rayon mərkəzi ilə əlaqə kəsilib

**Sentyabr ayı gələr-gəlməz artıq payızın ilkin nəfəsi duyulmağa başladı. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin əvvəlcədən verdiyi proqnoz özünü doğrultdu. Sentyabrın 1-i gün ərzində 2-si isə səhərədək ölkə ərazisində hava şəraiti dəyişərək qeyri-sabit keçib, güclü şimal-qərb küləyi əsib, şimşək çaxıb, yağış yağıb, bəzi yerlərdə intensiv olub, Göygöl və Tərtərdə dolu düşüb.**

Yağan yağış və leysan bir sıra rayonda fəsadlar törədib. Şimal bölgəsinə yağan güclü yağış nəticəsində çaylarda suyun səviyyəsi artıb. Xaçmaz rayonunda isə bir kəndi su basıb. Belə ki, Qudyalçayda suyun səviyyəsinin artması nəticəsində rayonun Qarğalıq kəndini su basıb. Qarabağlı kəndində də yaşayış evlərinə su dolub. Əraziyə rayon Fövqəladə Hallar Komissiyasının nümayəndələri gəlib. Dəyən ziyanının aradan qaldırılması və araşdırılması işlər görülür. Niyazabad kəndində də bir yaşayış evinə su dolub. Sentyabrın 1-i axşam saatlarında yağan güclü yağış Quba rayonunda da bir sıra fəsadlar törədib. Quba-Xınalıq yolunun 29-cu km-də körpü qəzalı vəziyyətə düşüb. Yolda avtomobillərin hərəkəti dayanıb. Ətrafdakı 7 kəndlə əlaqə kəsilib. Quba rayon İcra Hakimiyyəti başçısının birinci müavini, fövqəladə hallar komissiyasının sədri Yusif Abidovun APA-nın yerli bürosuna verdiyi məlumata görə, güclü sel rayonun digər kəndlərində də fəsadlar törədib. Qonaqkənd, Cimi, Utuq kəndlərində evləri su basıb. Bəzi kəndlərdə işıq dirəklərini su aparıb və elektrik enerjisinin verilişində problemlər yaranıb. İsmayıllı rayonuna yağan güclü leysan və dolu bir sıra fəsadlara səbəb olub. Yağıntı, əsasən ucqar dağlıq ərazilərdə yerləşən Qalacıq, Sumaxallı, İstisu və Çayqovuşan kəndlərini əhatə edib. Təbiət hadisəsi nəticəsində evlərin və tikililərin dam örtüyünə, eyni zamanda vətəndaşlara məxsus avtomobillərə ciddi ziyan dəyib. Göyçay çayının qollarında daşmalar əmələ gəlib. Nəticədə fərdi təsərrüfatlara, meyvə ağaclarına ziyan dəyib. Hazırda sözügedən kəndlərə gediş-gəliş qismən məhdudlaşıb. Yollarda yarğanlar əmələ gəlib. Güclü yağış Qəbələdən də yan keçməyib. Dağlara düşən leysan nəticəsində Qəbələ rayonu ərazisindən keçən Dəmirapararan çayı daşıb. Nəticədə bəndlərdə sızma əmələ gəlib. Həmçinin sel suları şəhərin mərkəzi küçələrini keçilməz edib. Hadisə yerinə xilasedicilər cəlb olunub. Laza kəndində köməksiz vəziyyətdə qalmış 53 nəfər təxliyə edilib. Bir avtomobil isə yararsız hala düşüb. Fərdi təsərrüfatlara ziyan dəyib. Göygöl və Tərtərdə dolu düşüb.



Ümumilikdə isə düşən yağıntının miqdarı Bakıda və Abşeron yarımadasında 1.0-8.0 mm, Lənkəran-Astara zonasında 1.0-26.0 mm, Astarada 84.0 mm, Lerikdə 41.0 mm, Böyük Qafqazda 1.0-18.0 mm, bəzi dağlıq ərazilərdə 33.0-78.0 mm, Kiçik Qafqazda 1.0-2.0 mm, Qazax-Gəncə zonasında 1.0-8.0 mm, Mərkəzi-Aran rayonlarında isə 1.0-24.0 mm olub. Şimal-qərb küləyinin sürəti bəzi rayonlarda 18-32 m/s, Abşeron yarımadası və Abşeron dəniz rayonunda 20-25 m/s təşkil edib, arabir 28 m/s-dək güclənib.

Maraqlıdır, bu cür yağıntılı hava şəraiti bir sıra bölgələrdə sel təhlükəsinin olacağını deməyə əsas verirmi? Bəs, yağıntılı hava şəraiti nə vaxta kimi davam edəcək?

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor müavini Gülşad Məmmədova** “Yeni Müsavat”a açıqlamasında havanın temperaturunun 5-7 dərəcə aşağı endiyini dedi: “Sentyabrın 1-i gündüz saatlarından başlayaraq havanın temperaturunun dəyişildiyi müşahidə edildi. Şimal-qərb küləyi əsir. Gündüz saatlarından başlayaraq paytaxtda şimal qərb küləyinin güclənməsi müşahidə olundu. Sentyabrın 1-dən 2-ə keçən axşam şimal-qərb küləyi bir qədər də güclənib. Paytaxtda havanın temperaturu əvvəlki günlərdə 30-32 dərəcə dəyişirdisə, ayın 2-də temperatur əvvəlki günlərlə müqayisədə 5-7 dərəcə aşağı enmişdir. Sentyabrın 3-ü və 4-də paytaxtda mülayim cənub-şərq küləyi müşahidə olunacaq, temperatur 25-29 dərəcə arasında dəyişəcək. Bölgələrdə də sentyabrın 1-dən etibarən hava şəraiti dəyişmiş, qeyri-sabit olmuş, şimşək çaxmış, yağış yağmışdır. Bəzi rayonlarda isə yağışlar intensiv xarakterli olub. Yağan leysan yağışlarla əlaqədar çaylarda suyun səviyyəsi artıb. Dağlı ərazilərdə isə Goranboy və Tərtərdə dolu düşməsi də müşahidə olunub. Sentyabrın 2-də də qeyri-sabit hava şəraiti davam edib. Sentyabrın 3-ü bəzi rayonlarda yağışın tədricən kəsiləcəyi proqnozlaşdırılır. Sentyabrın 4-ü və 5-də əsasən dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağış yağacağı da istisna olunmur. Havanın temperaturu paytaxtda olduğu kimi bölgələrdə də bir qədər aşağı enmiş, günorta saatlarında 25-27 dərəcə arasında dəyişəcəyi gözlənilir. Ayın 4-ü və 5-də havanın temperaturu bölgələrdə 27-32, dağlıq ərazilərdə isə 28-23 dərəcə arasında dəyişəcək”.

Bu cür havalarda qəza hallarının çoxaldığını nəzərə alan Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi də yağmurlu hava şəraiti ilə bağlı sürücülərə xəbərdarlıq edərək bildirib ki, belə hava şəraitində sürücülər ara məsafəsinə və sürət həddinə diqqət etməlidir. Çünki yay aylarında asfalt üzərinə yığılan toz qatı yağıntı zamanı palçığa çevrilir ki, bu da yollarda sürüşkənliyi artırır. Belə olan halda avtomobilin tormozlanması zamanı adi vaxtlara nisbətdə böyük fərq yaranır. Normal havadakı tormoz məsafəsi ilə yağıntılı havadakı tormoz məsafəsi arasındakı fərq 50 faiz artır. Məsələn, sürücü avtomobili saatda 60 km sürətlə idarə edirsə adi vaxtda tormoz məsafəsi 30 metrdən çox olur. Yağıntılı havada isə bu məsafə 45 metrdən artıq ola bilər. Baş Dövlət Yol Polisi İdarəsi Bakıda və Abşeron yarımadasında, respublikasının digər bölgələrində, xüsusən də dağlıq və dağətəyi ərazilərdə avtomobillə yola çıxan sürücülərdən yollarda son dərəcə diqqətli olmağı xahiş edir. Ara məsafəsi saxlamaq, sürət həddini aşmamaq, ötmə-manevr qaydalarına əməl etmək sizin mənzil başına sağ-salamat çatmağınız üçün olduqca önəmlidir.

❑ Günel MANAFLI

# Turizm nümayəndəlikləri yaradılır - nəticəsi olacaqmı?

## Ekspertlər bildirirlər ki, sərəncam turizmin inkişafına kömək edə bilər, çünki...

**Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərində turizm nümayəndələri təyin ediləcək. Turist axını ilə bağlı prioritet sayılan ölkələrdə fəaliyyət göstərən Azərbaycan diplomatik nümayəndəliklərində turizm nümayəndələri təyin ediləcək. APA-nın məlumatına görə, bu, dövlət başçısı İlham Əliyevin “Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” 1 sentyabr 2016-cı il tarixli sərəncamında əksini tapıb.**

Sərəncama əsasən, Mədəniyyət və Turizm Nazirliyi Xarici İşlər Nazirliyi ilə birlikdə ölkənin turizm potensialının təşviqi, turizm məhsullarının dünya turizm bazarına çıxarılması, satışının təşkili və ölkəyə turist axınının artırılması məqsədilə prioritet hesab olunan ölkələrdə fəaliyyət göstərən Azərbaycan diplomatik nümayəndəliklərində turizm nümayəndələrinin təyin və onların fəaliyyətinin təmin edilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb prezidentinə təqdim etməlidir.

**Ekspert Fikrət Yusifov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, sənəd iş adamlarının və xarici investorların Azərbaycanda turizm sahəsinə investitsiya yatırmalarını stimullaşdıra bilər: “Azərbaycanda turizmin inkişafını əks etdirən strateji yol xəritəsinin ilkin layihəsi artıq hazırdır. Bu sənəddə ölkədə turizmin inkişafında əsaslı dönüş yarada biləcək addımların atılması nəzərdə tutulur. Ölkə başçısının son sərəncamı Azərbaycanda turizmin inkişafına ciddi təkan verə biləcək mühüm bir addımdır. Sərəncamla Azərbaycanda xüsusi olaraq Turizm Şurasının yaradılması nəzərdə tutulur. Şura turizm sahəsində mövcud vəziyyəti təhlil edərək, mövcud problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini təmin etməklə yanaşı, turizm sahəsində dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini də həyata keçirəcəkdir. Bu, çox mühüm bir məsələdir. Çünkü turizm sahəsində bu günə mövcud olan bir çox problemlərin kökü məhz aidiyyatı qurumların və icra orqanlarının arasında bu sahədə əlarələndirmənin olmamasından və ya zəif olmasından irəli gəlirdi. Bir sözlə, sənəd iş adamlarının və xarici investorların Azərbaycanda turizm sahəsinə investitsiya yatırmalarını stimullaşdıra biləcək tədbirlər kompleksinin həyata keçirilməsini nəzərdə tutmaqla yanaşı, turistlərin Azərbaycan sərhədlərindən daxil olmasından başlamış, onlara bütün səviyyələrdən olan xidmətlərinin yüksək səviyyədə təşkil edilməsini nəzərdə tutan kompleks tədbirləri də özündə əks etdirir. İndi söz bu sənədin icrasını təmin edəcək aidiyyatı qurumlarındır”.




**Ekspert Vüqar Bayramov** isə musavat.com-a bildirib ki, sərəncam turizmin inkişafına kömək edə bilər: “Turizm Azərbaycan üçün prioritet sahələrdən biridir. Turizmin digər sektorlardan fərqi ondan ibarətdir ki, xarici valyutanı dərhal ölkəyə gətirə bilir. Turizm valyuta deməkdir, iqtisadiyyata sərmayə deməkdir. Araşdırmalar göstərir ki, ölkəyə gələn hər bir turist orta hesabla 800 dolar pul xərcləyir. Bu, o deməkdir ki, turistin ölkəyə gəlməsi iqtisadiyyata investisiyadır. Bu baxımdan, turizmə diqqət başadüşüləndir. Valtuya ehtiyatlarının müəyyən hissəsinin qarşılanması baxımından vacibdir. Qısamüddətli dövrdə hökumət çalışmaldıır ki, turizmi inkişaf etdirməyə daha çox valyutanın ölkəyə daxil olmasına nail ola bilsin”.

**Ekspertin sözlərinə görə, turizm nümayəndəliklərinin yaradılması birbaşa turizm potensialının tanıdılması ilə bağlıdır:** “Müxtəlif ölkələrdə Azərbaycana turistlərin marağının cəlb edilməsinə ehtiyac var. Məsələn, Rusiyada, Azərbaycanda sağlamlıq turizminə böyük maraq var. Sağlamlıq turizminin daha çox təqdim edilməsinə ehtiyac var. Bəzi avropa ölkələrində tarixi turizmə daha böyük maraq var. O baxımdan, bu istiqamətdə ölkəni həmin yerdə tanıtmaq vacibdir. İstirahət, çimərlik, dağ-meşə turizminə də maraq yüksəkdir. Maraq müxtəlif ölkələrdə fərqlidir. Xarici ölkələrdə Azərbaycanın turizm potensialına turistlərin maraqları fərqlidir. Bu baxımdan, ölkələrin maraqlarına uyğun olaraq Azərbaycanın turizm potensalı təqdim edilməlidir. Son dövrlər ərəb ölkələrindən də daha çox turist axınının olduğunu nəzərə alsaq, bu, o deməkdir ki, yaradılacaq nümayəndəliklər vasitəsi ilə ölkənin turizm potensalının təqdim edilməsi turizmin inkişafına təkan verə bilər. Eyni zamanda, viza sisteminin daha da sadələşdirilməsi, vizasız ölkələrin sayının artırılmasına nail olmaq daha məqsədəuyğun olardı”.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT

Son səhifə

N 195 (6516) 3 sentyabr 2016



# Elə öskürdü ki, iflic oldu

**42 yaşındakı qadın öskürəndə beyin qanaması keçirib, indi nə danışır, nə də yeriyə bilir. "Daily Mail"də yayımlanan xəbərə görə, Caz Dickinson sağlam bir qadın olduğu halda bir öskürək krizi həyatını cəhənnəmə çevirib.**

Öskürərkən hamamda özündən gedən qadın xəstəxanaya aparılıb. 3 uşaq anası olan Caza 4 səviyyəli beyin qanaması diaqnozu qoyulub. Ölümcül ola bilən bu beyin qanaması növü beynin səthində meydana gəlir. Cərrahiyyə əməliyyatından sonra oyanıb, ailəsi ilə normal bir şəkildə danışan Cazla bağı hər kəs optimist düşündüyü halda, bir neçə gün sonra onun yenidən halı pisləşib və bədəninin sol tərəfini tərpədə, eləcə də danışa bilməyib. Həkimlər onun iflic keçirdiyini deyib və qadını reanimasiyaya aparıblar. Edilən bütün müdaxilələrə baxmayaraq, həkimlər boynundan aşağısı iflic olan Cazın bir daha yeriyə bilməyəcəyini vurğulayıb.

# Qripdən şübhələndi, sən demə...

**24 yaşlı müəllimə April Heatin başına gələnlər tibb dünyası üçün görünməmiş hadisə olub. "Daily Mail"in xəbərinə görə, şagirdlərindən qrip virusu keçdiyini düşünən müəllimə həkimə müraciət edəndə ona narahatlıq və qulaq infeksiyası diaqnozu qoyulub.**




Amma qəbul etdiyi dərmanlara baxmayaraq, baş dönməsi və yorğunluğu davam edib. Başqa bir həkimə gedən gənc müəlliməyə anemiya xəstəliyinə yoluxduğu, qan miqdarının təhlükəli dərəcədə az olduğu müəyyənləşib. Daha sonrakı müayinələr nəticəsində müəllimənin qarnında xərçəngli olmayan bir şişin partladığı və yavaş-yavaş qanayaraq onu ölümə apardığı üzə çıxıb. Qan köçürmələri və əməliyyatlardan sonra, hazırda yaxşılaşmaq üzrə olan April Heatinin tezliklə sağlamlığına qovuşacağı bildirilir.

# Qadının saç düzümü onun xarakterini göstərir

**Qadınların saç forması onların xasiyyətini nişan verir. Bunu psixoloqların apardığı araşdıralar sübut edib. Aşağıda hər saç formasına görə qadın xarakterinin təsnifatı var:**

Dağınıq saç: Qadınlarda dağınıq saç modeli özündən əmin, azadlığına bağlı olduğunu göstərir.

Qısa saç: Qısa saçı daha çox sərt xasiyyətli qadınlar sevir.

Arxadan yığılan saç: Bu model qadının özünə qarşı diqqət gözlədiyini göstərir.

Topuz modeli: Ağırlığını hiss etdirmək, kübarlığını, olduğu mühiti önəmsədiyini göstərmək istəyən qadınların seçimidir.

Arxası topuz, qabağı azacıq dağınıq saç: Adətən ofis kimi qapalı yerlərdə işləyən qadınların modelidir. Ən rahat saç tipi...

Düz saçlar: Tez-tez saçlarını düzləşdirən qadınlar, həyatın monotonluğundan sıxılmış və bəzi dəyişikliklər istəyənlərdir.





# Bu, ideal qadın sifətidir

**Britaniyalı plastik cərrah məşhurların üz cizgilərindən istifadə edərək, ideal qadın sifətinin fotoportretini hazırlayıb. Ideal gözəlçənin fotoportretini hazırlayarkən o, daha çox qadınlar tərəfindən ona edilən müraciətləri əsas götürüb.**

Londondakı estetik klinikanın həkimi olan Culian De Silva son 10 ildəki təcrübəsi boyunca qadınlar tərəfindən edilən müraciətləri analiz edib və onların ən populyarlarını seçib. O, bu günə qədərki 1000 pasientin müraciətini bir daha analiz edib. Həkim özü üçün müəyyənləşdirib ki, zərif cinsin nümayəndələri hər zaman Şahzadə Uilyamın həyat yoldaşı Keyt Middltonun burnundan "istəyirlər". Pasiyentlər eyni zamanda Kira Naytlinin gözlərini, Cenifer Lopesin alnını və Penelopa Kruzun dodaqlarını bəyənirlər. Mayli Sayrusun alnı, Riz Uizerspunun dərisi də qadınların idealları arasındadır.

De Silva qeyd edib ki, müştərilərinin özlərini ulduzlarına bənzətmələrində pis heç nə görmür. Əksinə, dəqiq arzu, sifariş cərrahın işini asanlaşdırır.

Londonlu həkim artıq çoxdandır ki, qadın gözəlliyini tədqiq edir.




**QOÇ** - İlin-günün bu vaxtında romantik duyğulara qapılmaq sizə yalnız zərər verə bilər. Şairanə düşünməkdənsə reallığa uyğun addım atın ki, uğurlarınız yaxınlaşsın. Səhhətinizi də qoruyun.

**BUĞA** - Ulduzlar bir neçə gərgin situasiya ilə rastlaşacağınızı bildirir. Bu sətirləri ona görə yazırıq ki, qarşısını alasınız. Çətin də olsa, təmkin göstərin, oturaq işlərə aludə olun.

**ƏKİZLƏR** - Neçə vaxtdan bəri donub qalan planları həyata keçirmək üçün bu təqvimdən maksimum yararlanın. Bu istiqamətdə ümid etdiyiniz və gücü çatan adamlara da müraciət edə bilərsiniz.

**XƏRÇƏNG** - Atalarımızın dediyi "işim daşdan çıxır" ifadəsi bu təqvimdə sizin bürcə daha çox uyğun olacaq. Odur ki, daşdan iş çıxarmaqdansa, istirahətə üstünlük verin. Mübahisələrdən isə qaçın.

**ŞİR** - Astroloji göstəricilər bu təqvimi daha çox münasibətlərin tənzimlənməsinə yönəltməyi tövsiyə edir. Hətta buna görə fəaliyyətə də ara vermək olar. Axşam qonaq getməyə dəyər.

**QIZ** - Analitik zəkanızı işə salın. Nə qədər enerjiniz var, hamısını fəaliyyətə yönəldin. Sədaqətli və təcrübəli insanları özünüzdən uzaqlaşdırmayın. Bu gün uzaq yola çıxmayın.

**TƏRƏZİ** - Mənfi yüklü Ayın bürcünüzdə mövcud olması səhhətinizə mənfi təsir göstərə bilər. Lakin bu fəsadın fəaliyyət prinsipinə və ya iş planınıza hər hansı maneəsi olmayacaq. Əksinə, gücünüzü ortalığa qoyun.

**ƏQRƏB** - Nəhayət ki, neçə aydan bəri ora-bura vurnuxmağınız öz nəticəsini verməyə başlayır. Odur ki, hər cür dedi-qodudan, cəfəng söhbətlərdən uzaqlaşıb perspektivli işlərlə məşğul olun.

**OXATAN** - Ötən günlərdəki tövsiyəmizi bu günə də şamil edirik: ətrafınızda olanlarla qərəzsiz davranın. Əks halda tənhalığa mübtəla ola bilərsiniz. Axşam bir neçə yenilik gözlənilir.

**OĞLAQ** - Qarşınızda duran bu təqvimi daha çox neytral şəkildə başa vurmağa çalışın. Riskə ehtiyac yoxdur. Yaxşı olar ki, maddi sıxıntılarınızı aradan qaldırmağın yollarını tapasınız.

**SUTÖKƏN** - "Dünya həyatı bir körpüdür, bu körpünü təmir etməyə vaxt itirməyin, sadəcə tez ötüb keçin!". Peyğəmbərimizin (s) bu sözlərinə əməl edin. Dünyanı düzəltmək sizlik deyil.

**BALIQLAR** - Ümumi mənzərə neqativ deyil. Bu isə nəzərdə tutduğunuz işləri normal şəkildə başa çatdıracağınızdan xəbər verir. Tənbəllik etməyin, yeni işgüzar əlaqələrə həvəs göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Tez-tez ac qalanlar çox yaşayır

**Alimlər ayrı-ayrı araşdırmalar çərçivəsində insan həyatını uzatmaqla bağlı nəticələrə gəlib. Bunlar "ömrü uzatmağın 10 yolu" adı altında toplanıb. Sözügedən yollardan biri insanın tez-tez ac qalmasıdır. Dünyanın ən uzun yaşayan insanların yaşadığı Okinavada xalq tam doymadan yeməkdən əlini çəkir.**

İkinci yol dil öyrənməkdir. Dil öyrənmək daha çox insanla ünsiyyət və müsbət enerji qazanmaq anlamına gəlir. Dağlarda yaşamaq, genetik müalicə, varlanmaq, bir inanca sahib olmaq, çox işləyib, stressə girmək, dərmandan düzgün istifadə, orqan transplantasiyası, dünyada yaxşı işlər görmək də yaxşı yaşamağın qaydaları sırasındadır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750